RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 113 (10133) 1 iyul 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Sabitlik inkişafın əsas ilkin şərtlərindəndir



***"Azərbaycan cəmi 35 ildir ki, müstəqildir. Müharibə, işğal, humanitar fəlakət, vətəndaş müharibəsi və digər çətinliklərlə səciyyələnən ilk iki ili istisna etməklə, qalan dövr ölkənin sabit inkişafı ilə yadda qaldı. Bu isə hər hansı ölkənin uğuru üçün əsas ilkin şərtlərdən biridir. Sabitlik pozulduqda biz inkişaf haqqında heç danışa bilmərik. Beləliklə, sabitlik, - yəni bu gün Azərbaycanın reallığını təşkil edən siyasi, iqtisadi və sosial sabitlik, - nəinki inkişafımızın əsas meyarıdır, o cümlədən regional inkişaf göstəricisidir".***

**İlham ƏLİYEV**

Mayası süni şəkildə yaradılan "Dağlıq Qarabağ münaqişəsindən" qidalanan və Moskvanın ölkəmizə qərəzli, ədalətsiz münasibətindən yaranan, həmin dövrdə ölkəyə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz insanlar başçılıq etdiklərindən vaxtında həllini tapmayan məsələlərdən doğan narazılıqlar ölkədə sabitliyin ciddi şəkildə pozulması ilə nəticələndi.

Anarxiya və qanunsuzluqların cilovlanaraq sabitliyin bərpası isə xeyli zaman, vaxt və enerji tələb etdi.

Sabitliyi pozmaq asandır, onu bərpa etmək isə qat-qat çətin!

Azərbaycanda da belə oldu.

Ölkəyə başçılıq edənlər pozulan sabitliyi geri qaytara, xalqın etimadını doğrulda və etibarını qazana bilmədilər!

ODUR Kİ:

Ə.Vəzirov 20 Yanvar faciəsinin səbəbkarlarından biri sayıldığından hərbi təyyarəyə minərək Moskvaya qaçdı!

A.Mütəllibov da eyni aqibəti yaşadı!

AXC-Müsavat cütlüyünün taleyi isə qismən fərqli oldu!

İqtidarda olduqları qısa müddətdə xalqın etimad kreditini xərcləyib qurtaranları xalq müdafiə etmədi.

Odur ki, S.Hüseynov hərbiləşdirilmiş dəstəsi ilə Bakıya gəlmək istəyəndə prezident Ə.Elçibəy "komandası"nı yiyəsiz qoyaraq Kələkiyə qaçdı.

Başlarını itirən komanda üzvləri isə bir-bir "vəzifələrini donduraraq" aradan çıxmağa başladılar!

Düşmən isə yaranmış situasiyadan istifadə edərək dalbadal ərazilərimizi işğal edir və Kürədək Azərbaycan torpaqlarına sahib durmaq niyyətini gizlətmirdi.

Xalq yaranmış vəziyyətdən yeganə çıxış yolunun sevimli və sınanmış oğlunun, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü.

Heydər Əliyev xalqın müraciətinə biganə qalmadı və dövləti qoruyub saxlamaq üçün yenidən ölkə rəhbəri olmağa razılıq verdi!

Bununla da xilaskarlıq missiyasının icrasına başladı.

Sabitliyin yaradılması çətin, uzunmüddətli və çoxsaylı tədbirlər görülməsini tələb edir.

Sabitliyin əleyhinə çalışan qüvvələrin mövcudluğu şəraitində isə məsələ daha da qəlizləşir.

Ölkəmizdə də belə bir vəziyyət mövcud idi...

Düz iki dəfə Azərbaycana düşmən qüvvələr sapı özümüzdən olan baltaların köməyi ilə dövlət çevrilişinə cəhd göstərdilər!

Lakin onlar bir məsələdə yanılmışdılar!

Artıq Azərbaycana dünyanın görkəmli siyasi və dövlət xadimi, xalqın sevdiyi və qoruduğu Ulu Öndər Heydər Əliyev rəhbərlik edirdi!

Onun çağırışı ilə xalq hər iki halda ayağa qalxaraq öz rəhbərini müdafiə məqsədilə meydana axışdı...

Cəmiyyətin sağlam qüvvələri dövlətə xəyanət yolunu tutan ünsürlər üzərində qələbə çaldılar!

Heydər Əliyev zəkası hər cür xəbis niyyətlilərə üstün gəldi!

Bundan sonra müstəqilliyi əbədiliyə və dönməzliyə çevirmək, sabitliyi uzunömürlü etmək yolunda qətiyyətli addımlar atıldı:

Qanunsuz silahlı dəstələr tərk-silah edildi;

Əhalidəki qeyri-qanuni silah-sursat yığıldı;

Xaos, anarxiya və özbaşınalığa son qoyuldu;

Xüsusi komissiya yaradılaraq yeni Konstitusiyanın layihəsi hazırlandı və ümumxalq səsverməsi yolu ilə qəbul olundu;

Dövlət əmlakının özgəninkiləşdirilməsi məqsədilə iki dövlət proqramı qəbul edilərək reallaşdırıldı, bazar iqtisadiyyatına keçid təmin edildi;

"Əsrin müqaviləsi" imzalanaraq Azərbaycanın gələcək inkişafının iqtisadi bünövrəsi qoyuldu.

Tale bundan artığına vaxt vermədi, ölkədə uzunmüddətli sabitliyin təminatına imkan yaradan etibarlı siyasi kurs müəyyənləşdirən və layiqli siyasi varisini hazırlayan Ulu Öndər Heydər Əliyev əbədiyyətə qovuşdu.

Azərbaycanın gələcək taleyi isə etibarlı əllərə, ümumxalq səsverməsi ilə yüksək etimad qazanan cənab İlham Əliyevə tapşırıldı!

5

## 2025-ci ilin dövlət büdcəsi strateji inkişaf prioritetlərinə uyğun icra edilib



Son illər ölkəmizdə aparılan ardıcıl islahatların qeyri-neft sektorunun davamlı inkişafını təmin etdiyi, dövlət büdcəsinin neft gəlirlərindən asılılığının azaldılmasının əsas prioritet istiqamətlərdən biri olduğu söylənilib. Qeyri-neft sektoru üzrə gəlirlərin artırılması və mənbələrinin şaxələndirilməsi istiqamətində tədbirlərin davamlı olaraq həyata keçirildiyi qeyd olunub. Habelə bildirilib ki, qanunvericiliyə uyğun olaraq, dövlət müəssisələrinin nizamnamə kapitalının artırılması məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlər onların bank hesablarına köçürülür və il ərzində xərclənməyən hissəsi növbəti illərdə xərclərinin maliyyələşdirilməsinə yönəldilir. Bununla yanaşı, dövlət büdcəsinin xərclərində müdafiə olunan xərclərin "Büdcə sistemi haqqında" qanunda öz əksini tapdığı, sosialyönlü xərclərə isə əməyin ödənişi, dərman, sarğı ləvazimatlarının və qida məhsullarının alınması, sosial ödənişlər, icbari tibbi sığorta fonduna ayrılan vəsait, dövlət icbari şəxsi sığortası və digər bu kimi xərclərin daxil edildiyi diqqətə çatdırılıb. Həmçinin qeyd olunub ki, qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olan kənd təsərrüfatı sahəsinə hər il dövlət büdcəsindən əhəmiyyətli dövlət dəstəyi göstərilir. Eyni zamanda səhiyyə sahəsində profilaktik tədbirlərin və ilkin səhiyyə sisteminin təkmilləşdirilməsi ilə bağlı məsələlərə də aydınlıq gətirilib.

3

## Azərbaycanın islam dünyasında artan rolu və genişlənən missiyası

İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci Sessiyası Azərbaycanın beynəlxalq nüfuzunun və islam dünyasında artan siyasi çəkisinin növbəti təsdiqi oldu. Bu həm də müsəlman dövlətləri arasında qanunvericilik müstəvisində əlaqələrin yeni mərhələyə qədəm qoymasının bariz göstəricisinə çevrildi. Dünyanın müxtəlif regionlarından parlament sədrlərini, deputatları və beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirən bu mötəbər tədbir təkcə parlament diplomatiyasının inkişafına deyil, həm də islam aləminin qarşısında duran çağırışların müzakirəsinə xidmət etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sessiya iştirakçılarına müraciətində səsləndirilən fikirlər ölkəmizin islam dünyası ilə münasibətlərinin fəlsəfəsini, bu əməkdaşlığın prioritet istiqamətlərini və gələcək hədəflərini aydın şəkildə ortaya qoydu. Müraciət göstərdi ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatını beynəlxalq təşkilat olaraq müsəlman ölkələrinin həmrəyliyini təmin edən mühüm siyasi platforma kimi qiymətləndirir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri islam dünyası ilə əlaqələrin möhkəmləndirilməsi olub. Ölkə İƏT çərçivəsində daim fəal iştirak edib, təşkilatın qəbul etdiyi təşəbbüslərin həyata keçirilməsinə töhfə verib və parlamentlərarası əməkdaşlığın genişlənməsini dəstəkləyib.

7

## "Azərbaycan Korsika məsələsinin beynəlxalq gündəmdə yer almasına mühüm töhfə verdi"

Artıq uzun illər müstəmləkə şəraitində yaşayan xalqlar öz hüquq və azadlıqlarını təmin etmək yolunda mühüm tarixi nailiyyətlər əldə edirlər. Bu xüsusda Fransa Milli Assambleyasında Korsikanın Fransa Respublikası daxilində xüsusi muxtariyyət statusunun təsbit edilməsini nəzərdə tutan konstitusiya qanunu layihəsinin qəbul edilməsini qeyd etmək olar. Azərbaycan Respublikasının Milli Məclisinin bu əlamətdar hadisə ilə bağlı bəyanatında da qeyd olunduğu kimi, bu hadisə Korsika xalqının uzun illər ərzində apardığı dinc, demokratik və ardıcıl mübarizənin mühüm siyasi nəticəsi kimi qiymətləndirilir. Bu qərar onu göstərir ki, xalqların qanuni və legitim tələblərinin siyasi müstəvidə həlli mümkündür.

7

## Avropa İttifaqı Azərbaycanın regiondakı strateji rolunu qəbul edir



Son aylarda Azərbaycan və Avropa İttifaqı rəsmilərinin qarşılıqlı səfərləri, həmçinin təhlükəsizlik, enerji və nəqliyyat sahələrində səmərəli dialoqları ikitərəfli əlaqələrin dərinləşməsinə önəmli töhfələr verib, tərəfdaşlığın keyfiyyətcə yeni mərhələyə daşınması üçün əlverişli zəmin yaradıb. Hazırda tərəflər arasında əlaqələr strateji müstəvidə irəliləyir. Xüsusilə 2025-ci ilin may və oktyabr aylarında Aİ-nin Tirana və Kopenhagendə keçirilmiş "Avropa Siyasi Birliyi"nin (ASB) Zirvə görüşlərində ölkəmizin yüksək səviyyədə təmsil olunması, dövlətimizin başçısı İlham Əliyevin həmin toplantılar çərçivəsində görüşləri əməkdaşlığa əlavə stimul verib. Azərbaycanla əməkdaşlığa verilən önəmin göstəricisidir ki, ötən ilin oktyabrında ASB-nin Kopenhagendə baş tutmuş 7-ci sammitində qurumun 12-ci Zirvə toplantısının 2028-ci ildə Azərbaycanda keçirilməsi qərara alınıb. Bakının belə bir mötəbər tədbirə evsahibliyi rəsmi Bakı ilə Brüssel arasında yaxınlaşmanın göstəricisidir.

İkitərəfli təmasların coğrafiyası və intensivliyi bununla məhdudlaşmır. 2026-cı ilin mart ayında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın və may ayında Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfərləri rəsmi Bakının Brüsselin xarici siyasət gündəmində nə dərəcədə prioritet yer tutduğunun sübutudur. Avropanın yüksəkrütbəli rəsmilərinin Prezident İlham Əliyevlə birbaşa və intensiv dialoqu göstərir ki, Aİ Cənubi Qafqaz regionu ilə əməkdaşlığının məhz Azərbaycanla qurulan konstruktiv münasibətlərdən asılı olduğunu qəbul edir. Bu səfərlər tərəflər arasında qarşılıqlı etimadın və ortaq maraqların yeni mərhələyə qədəm qoyduğunu bir daha təsdiqləyir.

7

## Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi davam etdirilib



Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

12

## Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsini icra edən zati-aliləri xanım Delsi Rodriqesə

Zati-aliləri!

Venesuelada baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Venesuela xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il mayın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Esvatini Krallığının İnformasiya, Kommunikasiyalar və Texnologiya Nazirliyi arasında dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl mexanizminin yaradılması sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Esvatini Krallığı Hökumətinə bildiriş göndərsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

## "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 491 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi, Fərmanının və bəzi sərəncamlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 405 (Cild I); 2026, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 aprel tarixli 648 nömrəli Fərmanı) I hissəsinin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi tərəfindən mühafizə olunan şəxslərin və qorunan strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış fəaliyyətini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir.".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

## "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 201** **Bakı şəhəri, 30 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I); 2024, № 2, maddə 241; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 may tarixli 137 nömrəli və 4 iyun tarixli 167 nömrəli qərarları) ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin 6.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. 6.1.1-ci yarımbəndə "sənədlərinin" sözündən sonra" ("Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tələbkar tərəfindən icraya yönəldilən icra sənədləri istisna olmaqla)" sözləriəlavə edilsin.

2. 6.1.1-1-ci yarımbəndə (birinci halda)"informasiya" sözündən əvvəl "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq," sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 6.1.1-2-ci yarımbənd əlavə edilsin:

"6.1.1-2. xüsusi icra məmurları tərəfindən icra sənədlərinin qeydiyyatının aparılması, barəsində icra hərəkətləri həyata keçirilən əmlakın uçotunun aparılması, icra icraatı ilə bağlı qərarların, aktların, protokolların və digər sənədlərin informasiya sisteminə daxil edilməsi;".

4. 6.1.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.1.6. dövlət icra məmurları və xüsusi icra məmurları tərəfindən icra icraatı ilə bağlı sənədlərin hazırlanması və göndərilməsi;".

5.6.1.16-cı yarımbəndə (birinci halda) "barədə" sözündən sonra "dövlət icra məmurunun və xüsusi" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16, № 2, maddə 110; Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 367-VIIQD nömrəli, 3 mart tarixli 376-VIIQD nömrəli, 10 aprel tarixli 383-VIIQD nömrəli, 27 aprel tarixli 394-VIIQD nömrəli və 1 may tarixli 401-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1.65-ci maddə üzrə:

1.1.1. 5-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçi attestasiyadan keçirildikdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş səlahiyyətli struktur bölmə (şəxs) attestasiyanın keçirilməsində birbaşa və ya dolayı yolla iştirak etməməlidir.";

1.1.2. "Qeyd" hissəsi ləğv edilsin;

1.2. 187-ci maddənin 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"4. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs ona qisas almaq məqsədilə intizam tədbirlərinin tətbiqinə dair dəlillər irəli sürdükdə həmin dəlillərin təkzib edilməsi işəgötürənin üzərinə düşür.".

**Maddə 2.** "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 750 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 13.1-ci maddənin ikinci cümləsində "birbaşa rəhbərinə" sözləri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş səlahiyyətli struktur bölməyə (şəxsə)" sözləri ilə əvəz edilsin;

2.2. 14-cü maddə üzrə:

2.2.1. 14.1-ci maddənin ikinci cümləsində "Qanunda" sözü "Azərbaycan Respublikasının Qanununda" sözləri ilə əvəz edilsin;

2.2.2. 14.2-ci maddədə "birbaşa rəhbərinin" sözləri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş səlahiyyətli struktur bölmənin (şəxsin)" sözləri ilə əvəz edilsin;

2.2.3. 15.5-ci maddənin ikinci cümləsində "birbaşa və ya yuxarı rəhbərinə" sözləri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş səlahiyyətli struktur bölməyə (şəxsə)" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 683 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 11.1-ci maddənin ikinci cümləsində "birbaşa rəhbərinə" sözləri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş səlahiyyətli struktur bölməyə (şəxsə)" sözləri ilə əvəz edilsin;

3.2. 12.2-ci maddədə "birbaşa rəhbərinin" sözləri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş səlahiyyətli struktur bölmənin (şəxsin)" sözləri ilə əvəz edilsin;

3.3. 13.4-cü maddənin ikinci cümləsində "birbaşa və ya yuxarı rəhbərinə" sözləri "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş səlahiyyətli struktur bölməyə (şəxsə)" sözləri ilə əvəz edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 5 iyun 2026-cı il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" 2001-ci il 30 iyun tarixli 518 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının emblemi haqqında Əsasnamənin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının embleminin təsvirinin təsdiq edilməsi barədə" 2002-ci il 11 mart tarixli 676 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2009-cu il 22 may tarixli 96 nömrəli və "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanununun tətbiqi barədə" 2025-ci il 25 dekabr tarixli 558 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I); 2024, № 5 (I kitab), maddələr 521, 529, № 12 (II kitab), maddə 1369;Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 aprel tarixli 642 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bəndin ikinci abzasından "tədris," sözü çıxarılsın;

1.2. 3.1-ci bənd üzrə:

1.2.1. 3.1.23-cü yarımbənddə "və sayı" sözləri", ali hərbi rütbəli vəzifələrin siyahısı və ümumi say tərkibi" sözləri ilə əvəz edilsin;

1.2.2.3.1.25-ci yarımbəndə ikinci halda "fövqəladə" sözündən sonra "vəziyyətin, habelə sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqinə səbəb olmuş" sözləri əlavə edilsin;

1.3. 5.3-cü bənd üzrə:

1.3.1. 5.3.7-ci yarımbəndə "vəzifələrinin" sözündən sonra "(ali hərbi və ali xüsusi rütbəli vəzifələr istisna olmaqla)" sözləri əlavə edilsin;

1.3.2. aşağıdakı məzmunda 5.3.11-2-ci yarımbənd əlavə edilsin:

"5.3.11-2. daxili qoşunların hərbi hissələrinin daimi yerləşdiyi ərazilərdən kənarda fəaliyyətinə dair qərar verir;";

1.3.3. 5.3.13-cü yarımbənddə "heyət rütbələrinin" sözləri "xüsusi rütbələrin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 mart tarixli 676 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 126 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının emblemi haqqında Əsasnamə"nin2-ci və 4-cü hissələrində "tədris mərkəzinin" sözləri "xüsusi təyinatlı təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Şurası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 96 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 328 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. preambulada "Daxili qoşunların statusu" sözləri "Azərbaycan Respublikasının daxili qoşunları" sözləri ilə, "12-ci" sözləri "6.1.7-ci" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Şurası haqqında Əsasnamə"nin 1-ci hissəsində "Daxili qoşunların statusu" sözləri "Azərbaycan Respublikasının daxili qoşunları" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 303-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 dekabr tarixli 558 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (I kitab), maddə 1149) 1.8-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.8.1-ci yarımbənddə "və 6.1.8-ci" sözləri ", 6.1.8-ci və 6.1.13-cü" sözləri ilə əvəz edilsin;

4.2. 1.8.3-cü yarımbənddə "6.1.11-6.1.22-ci" sözləri "6.1.11-ci,6.1.12-ci və 6.1.14-6.1.22-ci" sözləri ilə əvəz edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 202** **Bakı şəhəri, 30 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 977 (Cild I); 2024, № 1, maddə 80, № 10, maddə 1159) ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "II. "İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə" peşə istiqaməti üzrə" hissədə:

2. "030204 Kommersiya" ixtisas qrupuna "Tədbirlərin təşkilatçısı" ixtisasından sonra "Tədbirlərin planlaşdırılması və təşkili", "Satış və marketinq" və "Satınalmaların təşkili" ixtisasları əlavə edilsin;

3. "030214 Avtomatlaşdırılmış texnologiyalar və istehsal" ixtisas qrupuna "Robototexnika" ixtisasından sonra "Mexatronika" və "İstehsalata rəqəmsal nəzarət sistemləri" ixtisasları əlavə edilsin;

4. "030219 İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti" ixtisas qrupuna "Veb proqram tərtibatçısı" ixtisasından sonra "Rəqəmsal məzmun idarəçiliyi" və "3D rəqəmsal oyun dizayneri" ixtisasları əlavə edilsin.

5. "III. "Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı" peşə istiqaməti üzrə" hissənin "030301 Bitkiçilik" ixtisas qrupuna "Aqronomluq" ixtisasından sonra "Bitki mühafizəsi və fumiqasiya işləri üzrə texnik" ixtisası əlavə edilsin.

6. "IV. "Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları" peşə istiqaməti üzrə" hissənin "030433 Geomatika" ixtisas qrupuna "Kartoqrafiya üzrə mütəxəssis" ixtisasından sonra "Geodeziya və kartoqrafiya" ixtisası əlavə edilsin.

7. "VIII. "İlkin tələbat və qida məhsullarının texnologiyası" peşə istiqaməti üzrə" hissənin "030811 Bitki və marqarin yağı istehsalı" ixtisas qrupuna "Yağ özüllərinin tamperasiyaçısı" ixtisasından sonra "Qida emalı texnologiyaları" ixtisası əlavə edilsin.

5. "IX. "İnşaat və arxitektura" peşə istiqaməti üzrə" hissədə:

5.1. "030908 Ümumi inşaat işləri" ixtisas qrupuna "Quru inşaat işləri ustası" ixtisasından sonra "Rəqəmsal inşaat üzrə mütəxəssis" ixtisası əlavə edilsin;

5.2. "030918 Elektrik avadanlıqları və elektrik şəbəkələrinin elektroquraşdırılması" ixtisas qrupuna "Elektroquraşdırıcı-sazlayıcı" ixtisasından sonra "Elektrik sayğacları texniki" ixtisası əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Milli Məclisin iclasında

# 2025-ci ilin dövlət büdcəsi strateji inkişaf prioritetlərinə uyğun icra edilib

**İyunun 30-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə iyunun 22-dən 25-dək Bakıda Milli Məclisin evsahibliyi ilə keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası ilə bağlı fikirlərini bildirib.**

Sessiyanın və sessiya ilə bağlı iclasların uğurla keçirildiyini deyən spiker qeyd edib ki, İslam Əməkdaşlıq Təşkilatı dünyanın ən böyük beynəlxalq qurumlarından biridir və öz sıralarında 57 dövləti birləşdirir. 1969-cu ildə yaradılmış bu təşkilat müsəlman ölkələri arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, habelə islam dünyasının ümumi maraqlarının müdafiəsi üçün mühüm platforma rolunu oynayır.

Bildirilib ki, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı Konfransının 20-ci Sessiyası Azərbaycanın islam aləmində yüksək nüfuzunu bir daha təsdiq edən mühüm beynəlxalq hadisə oldu. Tədbirdə 43 ölkədən və 11 beynəlxalq təşkilatdan 54 nümayəndə heyəti, ümumən 500-dən çox nümayəndə iştirak edib. O da diqqətə çatdırılıb ki, nümayəndə heyətləri artıq iyunun 21-də ölkəmizdə idilər və ertəsi gündən sessiyaya hazırlıq iclaslarının keçirilməsinə başlanılıb.

Milli Məclisin Sədri bildirib ki, İcraedici komitənin 56-cı iclası, habelə 5 daimi komitənin və 3 qrupun - Asiya, Afrika və Ərəb qruplarının, eləcə də müsəlman qadın parlamentarilərin, müsəlman icmaları və azlıqlar alt komitəsinin, Baş Katiblər Assosiasiyasının növbəti iclasları, məsləhətləşmə görüşləri və konqresləri, digər toplantılar sessiyada müzakirələrin səmərəli təşkili baxımından çox əhəmiyyətli idi.

İyunun 24-də 20-ci sessiyanın açılış mərasiminin olduğunu deyən spiker Sahibə Qafarova qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin sessiya iştirakçılarına müraciəti tədbirin əhəmiyyətini daha da artırıb. Müraciətdə islam ölkələrinin həmrəyliyini və iş birliyini möhkəmləndirməyin əsas prioritetləri müəyyən edilib. İslam dəyərlərinin qorunması naminə birgə səylərin əhəmiyyəti vurğulanıb.

Spiker daha sonra deyib: "Sessiyada İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqına sədrlik Azərbaycan Milli Məclisinə təhvil verildi. Bu, ölkəmizə göstərilən yüksək beynəlxalq etimadın yeni bir ifadəsidir və eyni zamanda, dövlətimizin müsəlman ölkələri ilə əməkdaşlığı inkişaf etdirmək sahəsində ardıcıl siyasətinin təsdiqidir.

20-ci sessiyanın sədri kimi mən açılış nitqimdə Parlament İttifaqına Milli Məclisin sədrliyi dövründə fəaliyyətimizin əsas istiqamətləri barədə danışdım. Bildirdim ki, Milli Məclis təşkilatın rolunun daha da güclənməsinə və üzv ölkələrin parlamentləri arasında iş birliyinin inkişafına çalışacaqdır. Digər məsələlərlə yanaşı, mən sülhün, dialoq və qarşılıqlı anlaşmanın gücləndirilməsində parlament diplomatiyasının əhəmiyyətini vurğuladım. İslam dünyasının potensialını tam reallaşdırmağın və onun üzləşdiyi çətinlikləri aradan qaldırmağın yolları barədə fikirlərimi bölüşdüm".

Diqqətə çatdırılıb ki, sessiyada nümayəndə heyətlərinin rəhbərləri və beynəlxalq təşkilatların təmsilçiləri çıxış ediblər. 2 gün ərzində ümumən 32 çıxış səslənib, beynəlxalq gündəliyin aktual məsələlərinə dair geniş fikir mübadiləsi aparılıb. Parlament İttifaqının fəaliyyətini daha da təkmilləşdirməyə və üzv dövlətlərin parlamentləri arasında qarşılıqlı əlaqəni genişləndirməyə yönələn qərarlar qəbul edilib.

Milli Məclisin Sədri bildirib ki, tədbirin ən mühüm yekunlarından biri də Bakı Bəyannaməsinin qəbul edilməsi oldu. Bəyannamə İttifaqın üzvü olan parlamentlərin qarşılıqlı əlaqəni və əməkdaşlığı, həmrəyliyi və dialoqu daha da möhkəmləndirmək əzmini ifadə edir.

Sessiya çərçivəsində Milli Məclisin Sədrinin 19 ikitərəfli görüşləri olub. Bu barədə danışan spiker Sahibə Qafarova deyib ki, Türkiyə, İran, İordaniya, Oman, Qətər, Yəmən, Mozambik, Niger, Şimali Kipr parlamentlərinin sədrləri, Birləşmiş Ərəb Əmirlikləri, İraq, Mərakeş, Qvineya-Bisau, Burkina Faso, Çad, Kot-d`İvuar və Mali parlamentlərinin sədr müavinləri, Qlobal Tolerantlıq və Sülh Şurasının sədri ilə danışıqlarda ikitərəfli və çoxtərəfli platformalarda iş birliyinin inkişaf etdirilməsi yolları nəzərdən keçirilib. Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb.

Spiker Sahibə Qafarova xüsusi vurğulayıb ki, Milli Məclisin deputatları həm 20-ci sessiyada, həm də müxtəlif komitələrin və qrupların iclaslarında və digər tədbirlərdə fəal iştirak ediblər. Milli Məclisin komitə sədrləri bir sıra təşkilati komitə iclaslarında sədrlik də ediblər. Milli Məclisin Sədri vitse-spiker, Parlament İttifaqında nümayəndə heyətinin rəhbəri Rafael Hüseynova, iclaslarda və müxtəlif tədbirlərdə iştirak etmiş komitə sədrlərinə, dostluq qruplarının rəhbərlərinə və deputatlara minnətdarlığını bildirib.

"Hesab edirəm ki, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası həm forma, həm də məzmun baxımından yüksəksəviyyəli bir tədbir oldu və biz qarşıya qoyulan bütün hədəflərə nail olduq. Bununla əlaqədar mən tədbirin təşkilində əməyi olan hər kəsə bir daha təşəkkür edirəm", - deyə Milli Məclisin Sədri Sahibə Qafarova bildirib.

Spiker bir məlumatı da nəzərə çatdırıb ki, Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edən İordaniya Nümayəndələr Palatasının Sədri Mazen Torki Saud Əl-Qadi eyni zamanda onun dəvəti ilə ölkəmizə rəsmi səfərini də həyata keçirib. "İordaniya parlamenti sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 21-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmişdir. İyunun 22-də İordaniya Nümayəndələr Palatası Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Milli Məclisdə mənim görüşüm oldu. Görüşdə parlamentlərimiz arasında həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu. Parlamentlərarası əlaqələrin dərinləşməsində qarşılıqlı səfərlərin rolu və parlament dostluq qruplarının fəaliyyəti vurğulandı", - deyə Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb.

Qeyd edilib ki, Azərbaycan və İordaniya parlamentlərində fəaliyyət göstərən dostluq qrupları üzvlərinin ayrıca görüşü də keçirilib. Milli Məclisin Sədri İordaniya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Anar İsgəndərova da minnətdarlığını bildirib.

Çıxışına yekun vuran spiker səfərin həyata keçirilməsində əməyi keçən hər kəsə dərin minnətdarlığını bildirib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova iclasda 14 məsələnin müzakirə ediləcəyini nəzərə çatdırıb. O, gündəliyin birinci məsələsinin - "Metrik Konvensiya"ya qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsinin beynəlxalq sənədlə bağlı olduğuna görə, müvafiq qanunvericiliyin tələbinə əsasən bir oxunuşda qəbul ediləcəyini söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov "Metrik Konvensiya"ya qoşulmaq haqqında qanun layihəsini təqdim edib. Bildirib ki, "Metrik Konvensiya" 1875-ci il mayın 20-də Paris şəhərində imzalanıb və 1 yanvar 1876-cı ildə qüvvəyə minib. 67 ölkə hazırda Konvensiyaya tərəf dövlətlərdir. 36 ölkə, o cümlədən Azərbaycan assosiativ dövlətlərdir. "Metrik Konvensiya" 14 maddədən, sənədin tərkib hissəsi olan Əlavə Qaydalar isə 22 maddədən ibarətdir. Konvensiya ölçmə elmində qlobal əməkdaşlıq üçün çərçivə yaradaraq elm, ticarət və mühəndislik sahələrində istifadə olunan çəki və ölçülərlə bağlı beynəlxalq miqyasda vahidliyi təmin edib. Konvensiya əsasında fiziki ölçü qaydaları uzlaşdırmaq və tənzimləmək üçün üç əsas təşkilati struktur - Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büro, Çəkilər və Ölçülər üzrə Beynəlxalq Komitə və Çəkilər və Ölçülər üzrə Baş Konfrans təsis edilib.






Qeyd olunub ki, Konvensiyanın müddəaları beynəlxalq prototiplər, onların nəzarət nüsxələri, saxlanma yerlərinə giriş, Büronun təsisi, qurulması illik xərcləri, Tərəflərin üzərinə düşən məbləğ, elmi avadanlığın təkmilləşməsi, Konvensiyaya qoşulmaq qaydalarını müəyyən edir. Konvensiyanın tərkib hissəsi olan Əlavə Qaydalarda Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büronun yerləşdiyi bina, laboratoriya, tərəzilər, müqayisəli cihazlar, geodeziya xətkeşləri, Baş Konfransın toplanma şərtləri, Konfrans çərçivəsində səsvermə, Beynəlxalq Komitəyə üzvlük, hesabata dair tələblər və digər məsələlər tənzimlənir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ barədə bu komitənin müsbət rəyini diqqətə çatdırıb.

Deputat Hikmət Məmmədov məsələ barədə fikirlərini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin spikeri növbəti məsələnin "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) olduğunu bildirib. Sədr bu məsələ ilə əlaqədar maliyyə naziri Sahil Babayevin, hökumət üzvlərinin, Hesablama Palatası rəhbərliyinin və digər vəzifəli şəxslərin iclasda iştirak etdiyini söyləyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsi barədə məlumat verib. O, dövlət büdcəsi ilə bağlı parlamentdə aparılan konstruktiv və məhsuldar müzakirələrin büdcə prosesinin təkmilləşməsinə xidmət etdiyini söyləyib, deputatların səsləndirdiyi fikirlərin, Hesablama Palatasının təklif və tövsiyələrinin əhəmiyyətini qeyd edib. Bildirilib ki, ölkəmizdə iqtisadi sahədə vahid dövlət siyasəti həyata keçirilir. Parlament bu siyasətin formalaşdırılmasında və icrasında mühüm rol oynayır. Ölkə Prezidentinin rəhbərliyi ilə dövlət maliyyəsinin idarə olunması sahəsində aparılan islahatların şəffaflığın, hesabatlılığın və nəticəyönümlü büdcə siyasətinin gücləndirilməsinə xidmət etdiyi vurğulanıb.

Qeyd olunub ki, müvafiq hesabatla birlikdə təqdim edilmiş qanun layihəsi büdcə qanunvericiliyinin tələblərinə cavab verir. Ötən ilin dövlət büdcəsinin sosial-iqtisadi hədəflərin reallaşması üçün müvafiq maliyyə təminatı yaratdığı, müəyyən edilmiş strateji inkişaf prioritetlərinə uyğun olaraq icra edildiyi bildirilib.

İclasda çıxış edən maliyyə naziri Sahil Babayev 2025-ci ilin dövlət büdcəsinin icrası nəticəsində ölkəmizin dayanıqlı inkişafının, maliyyə sabitliyinin və vətəndaş rifahının yüksəldilməsinin təmin edildiyini söyləyib. Son illərdə dünyada gedən mürəkkəb geosiyasi proseslərə baxmayaraq Azərbaycan iqtisadiyyatının öz dayanıqlığını qoruduğunu, dövlət maliyyə sisteminin çevik və məsuliyyətli idarəetmə prinsipləri əsasında fəaliyyət göstərdiyini bildirib. Bütün bunların əsasında ölkə rəhbərliyinin uzaqgörən siyasətinin, fiskal intizamın gücləndirilməsinin, iqtisadiyyatın şaxələndirilməsinin və əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş davamlı diqqətin dayandığını vurğulayıb.

Nazir büdcənin icrası ilə əlaqədar aparılan müzakirələr zamanı deputatlar tərəfindən büdcə gəlirlərinin formalaşması, qeyri-neft sahəsinin inkişafı, büdcə xərclərinin icrası, sosial müdafiə, səhiyyə və digər məsələlərlə bağlı qaldırılan məsələlərə münasibət bildirib. Son illər ölkəmizdə aparılan ardıcıl islahatların qeyri-neft sektorunun davamlı inkişafını təmin etdiyi, dövlət büdcəsinin neft gəlirlərindən asılılığının azaldılmasının əsas prioritet istiqamətlərdən biri olduğu söylənilib. Qeyri-neft sektoru üzrə gəlirlərin artırılması və mənbələrinin şaxələndirilməsi istiqamətində tədbirlərin davamlı olaraq həyata keçirildiyi qeyd olunub. Habelə bildirilib ki, qanunvericiliyə uyğun olaraq, dövlət müəssisələrinin nizamnamə kapitalının artırılması məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlər onların bank hesablarına köçürülür və il ərzində xərclənməyən hissəsi növbəti illərdə xərclərinin maliyyələşdirilməsinə yönəldilir. Bununla yanaşı, dövlət büdcəsinin xərclərində müdafiə olunan xərclərin "Büdcə sistemi haqqında" qanunda öz əksini tapdığı, sosialyönlü xərclərə isə əməyin ödənişi, dərman, sarğı ləvazimatlarının və qida məhsullarının alınması, sosial ödənişlər, icbari tibbi sığorta fonduna ayrılan vəsait, dövlət icbari şəxsi sığortası və digər bu kimi xərclərin daxil edildiyi diqqətə çatdırılıb. Həmçinin qeyd olunub ki, qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olan kənd təsərrüfatı sahəsinə hər il dövlət büdcəsindən əhəmiyyətli dövlət dəstəyi göstərilir. Eyni zamanda səhiyyə sahəsində profilaktik tədbirlərin və ilkin səhiyyə sisteminin təkmilləşdirilməsi ilə bağlı məsələlərə də aydınlıq gətirilib.

Sahil Babayev 2025-ci ildə dövlət və icmal büdcələrinin ölkə Prezidenti tərəfindən müəyyən edilmiş prioritet istiqamətlərin icrasına, sosial təminat tədbirlərinə, ölkənin iqtisadi inkişafının, müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin təmin olunmasına, həmçinin işğaldan azad edilmiş ərazilərimizin bərpa və yenidən qurulması tədbirlərinə yönəldildiyini və hökumət qarşısında qoyulan vəzifələrin maliyyələşdirilməsini təmin etdiyini vurğulayıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxışında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin və onunla birlikdə təqdim olunan hesabatın həm komitədə, həm də plenar iclasda müzakirəsi zamanı deputatların Palatanın rəyinə verdikləri qiymətə görə minnətdarlığını bildirib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda daha sonra Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş), Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş), Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş), "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş), "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş), "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) qəbul edilib.

İclasda "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Məsələ ilə bağlı məlumat verən Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, layihənin əsas məqsədi psixiatriya yardımı sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, şəxslərin hüquq və təhlükəsizliyinin daha effektiv təmin olunması və elektron səhiyyə sisteminin tətbiqidir. Layihədə qanunun 14 maddəsi üzrə 16 əlavə və dəyişiklik təklif olunur. Dəyişikliklərdə psixi pozuntusu olan şəxsin sağlamlıq vəziyyəti və ona göstərilən psixiatriya yardımı tədbirləri, habelə müalicədən imtina ilə bağlı məlumatların elektron sağlamlıq kartı sisteminə daxil edilməsi və həmin məlumatların əldə olunması ilə bağlı tənzimləmələr nəzərdə tutulur. Layihədə həmçinin psixiatriya müayinəsinin aparılması prosedurlarının təkmilləşdirilməsi, təxirəsalınmaz hallarda müayinənin həyata keçirilməsi, aidiyyəti şəxslərin məlumatlandırılması mexanizmlərinin dəqiqləşdirilməsi və digər məsələlər də öz əksini tapıb.

Qanun layihəsinin müzakirəsində komitə sədri Zahid Oruc, deputatlar Vasif Qafarov, Bəxtiyar Əliyev, Elçin Mirzəbəyli və Nigar Məmmədova çıxış edərək dəyişiklikləri müsbət qiymətləndiriblər, bəzi qeydlərini bildiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda sonra "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) müzakirə edilib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov diqqətə çatdırıb ki, qanun layihəsi Hesablama Palatasının fəaliyyətinin müasir çağırışlara, beynəlxalq audit standartlarına və milli qanunvericiliyin tələblərinə uyğun olaraq təkmilləşdirilməsini nəzərdə tutur. Qeyd olunub ki, layihədəki dəyişikliklərə əsasən, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikasının büdcəsinə dair nəzarət mexanizmlərinin qanunvericiliyə uyğunlaşdırılması, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsi zamanı məlumatların əldə olunması qaydalarının dəqiqləşdirilməsi təklif olunur. Sənəddə həmçinin dövlət auditi ilə bağlı informasiya sistemlərindən istifadənin hüquqi əsasları yaradılır. Vurğulanıb ki, layihə dövlət maliyyə nəzarətinin institusional əsaslarının gücləndirilməsinə, büdcə prosesində hesabatlılığın və şəffaflığın artırılmasına xidmət edir.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Növbəti məsələni də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edib. Bildirilib ki, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) Ələt Azad İqtisadi Zonası ərazisinə investisiya cəlbi üçün əlverişli şəraitin yaradılması və həmin ərazidə istehsal olunan malların rəqabət qabiliyyətinin qorunması məqsədilə hazırlanıb. Belə ki, Azad zona ərazisində istehsal olunmuş seçilmiş malların əsas iqtisadiyyata gətirilməsi müəyyən şərtlər əsasında gömrük rüsumundan azad edilməsi nəzərdə tutulur. Diqqətə çatdırılıb ki, bu güzəştlər Ələt Azad İqtisadi Zonası ərazisində Azad zona hüquqi şəxsi tərəfindən istehsal və ya kifayət qədər emal olunmuş Azərbaycan mənşəli mallar üzrə və Azad zona hüquqi şəxsinin təsis olunduğu tarixdən 15 il müddətində veriləcək.

Layihə ilə bağlı deputat Rövşən Muradovun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Gündəliyin sonuncu məsələsi olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli diqqətə çatdırıb ki, sənədə əsasən, iqtisadi fəaliyyət sahəsində olan bəzi cinayətləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxslər, bundan əlavə vurulmuş ziyanın artıq bir misli deyil, əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad ediləcəklər.

Həmçinin Cinayət Məcəlləsində yalançı sahibkarlıq fəaliyyəti dəqiqləşdirilir, "Xarici valyuta vəsaitlərini xaricdən qaytarmama" adlı 208-ci maddə ləğv edilir. Texnoloji yeniliklərə uyğun olaraq, qumar oyunlarının təşkili və ya keçirilməsi ilə bağlı cinayət tərkibləri dəqiqləşdirilir, habelə uşaqlarla bağlı bu qəbildən olan cinayətlərə görə cəzalar sərtləşdirilir.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc layihə barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb. Komitə sədri bildirib ki, layihədə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən, internet informasiya ehtiyatlarında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinin qarşısının alınması qaydaları təkmilləşdirilib.

Müzakirədə Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, komitə sədrləri Fazil Mustafa, Siyavuş Novruzov, deputatlar Razi Nurullayev, Nizami Səfərov çıxış ediblər, layihə barədə fikirlərini bildiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Rəqəmsal transformasiya siyasi partiyaların da qarşısında yeni vəzifələr müəyyən edir

## YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ICAPP Daimi Komitəsinin xüsusi sessiyasında çıxış edib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin 25-28 iyun tarixlərdə Monqolustanın paytaxtı Ulan-Batorda keçirilən 45-ci iclasının xüsusi sessiyasında videoformatda iştirak edib.






17 ölkədən 22 aparıcı siyasi partiya nümayəndələrinin iştirak etdiyi tədbirin açılış mərasimində Monqolustan Xalq Partiyasının baş katibi Sodbator Yanquq və ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq çıxış ediblər.

ICAPP-ın baş katibi Oh Sonq təşkilatın fəaliyyətinə dair cari məsələlər barədə məruzə ilə çıxış edib. Sonra gələcək iş planı ətrafında fikir mübadiləsi aparılıb.

ICAPP Daimi Komitəsinin "Rəqəmsal dövrdə Asiya transformasiyası: süni intellektin yaratdığı çağırışlar" mövzusuna həsr olunmuş xüsusi sessiyası keçirilib.

Sessiyaya videoformatda qatılan YAP Sədrinin müavini Tahir Budaqov ICAPP Daimi Komitəsinin 45-ci iclasına evsahibliyinə görə Monqolustan Xalq Partiyasına təşəkkürünü bildirib və iclasın işinə uğurlar arzulayıb. O, hazırda olduqca aktual bir mövzuya həsr olunmuş bu mühüm iclasda aparılan müzakirələrin rəqəmsal inkişafın ən son yeniliklərinin və süni intellektin yaratdığı çağırışlara adekvat tədbirlərin müəyyənləşdirilməsi baxımından səmərəli fikir və təcrübə mübadiləsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Tahir Budaqov qeyd edib ki, bu gün bəşəriyyət fundamental texnoloji dəyişikliklər dövrünü yaşayır: "Asiya qitəsi bu transformasiyanın əsas mərkəzlərindən biridir. Əhalisinin sayı, iqtisadi potensialı, texnoloji innovasiya imkanları və insan kapitalı baxımından Asiya süni intellekt inqilabının əsas hərəkətverici qüvvəsinə çevrilməkdədir. Bununla yanaşı, regionumuz rəqəmsal bərabərsizlik, texnoloji asılılıq, kibertəhlükəsizlik riskləri, etik tənzimləmə və əmək bazarının transformasiyası kimi ciddi çağırışlarla da üzüzədir. Bu baxımdan əsas məsələ süni intellektin inkişaf edib-etməyəcəyi deyil, onun hansı prinsiplər əsasında inkişaf etdiriləcəyidir. Bu qlobal prosesləri diqqətlə izləyən Azərbaycan rəqəmsal transformasiyanı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Bu sahədə həyata keçirilən islahatlar çərçivəsində ölkədə elektron dövlət xidmətlərinin inkişafı və süni intellekt texnologiyalarının tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Milli prioritetlərimizi dəstəkləyən etibarlı, təhlükəsiz və səmərəli infrastruktur, data bazası və xidmətlər təmin etməklə nəqliyyat və kommunikasiya şirkətlərimizin fəaliyyətini müasirləşdirmək, qarşılıqlı inteqrasiyasını təmin etmək və dəyərini artırmaq məqsədilə 2024-cü ildə "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs yaradılmışdır. AZCON Holdingin tərkibində fəaliyyət göstərən Milli Süni İntellekt Mərkəzi süni intellekt sahəsində tədqiqat və inkişaf fəaliyyətinin təşviqinə, innovativ həllərin hazırlanmasına, rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsinə və qabaqcıl texnologiyaların iqtisadiyyatın müxtəlif sahələrində tətbiqinə dəstək göstərir".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 19 mart tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" isə bu istiqamətdə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir, ölkədə süni intellekt ekosisteminin inkişaf etdirilməsi, innovativ həllərin təşviqi, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi və yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasını nəzərdə tutur: "Strategiyanın icrası çərçivəsində atılmış mühüm addımlardan biri Azərbaycanda süni intellekt üzrə bilik və bacarıqların inkişaf etdirilməsi, yeni nəsil mütəxəssislərin hazırlanması məqsədilə 2025-ci ildə Süni İntellekt Akademiyasının yaradılmasıdır. Azərbaycanın ali təhsil müəssisələri də bu prosesdə mühüm rol oynayır. Ölkənin aparıcı universitetlərində kompüter elmləri, informasiya texnologiyaları, verilənlərin analitikası və süni intellekt istiqamətlərində ixtisaslaşmış proqramlar inkişaf etdirilir. Məqsəd yalnız texnologiyadan istifadə edən mütəxəssislər deyil, yeni texnologiyalar yaradan tədqiqatçılar və innovatorlar yetişdirməkdir. Görülən işlər çərçivəsində rəqəmsal texnologiyaların və süni intellektin dövlət idarəçiliyində tətbiqinin genişləndirilməsi ilə bərabər, onların yaratdığı problemlərin və təhdidlərin qarşısının alınması, kibertəhlükəsizliyin gücləndirilməsi yönündə də hüquqi və əməli addımlar atılır, müvafiq qanunlar qəbul edilir. İnsanlar istifadə etdikləri texnologiyaların şəffaflığına, təhlükəsizliyinə və ədalətliliyinə inanmalıdırlar. Süni intellekt sistemləri hüququn aliliyinə, etik normalara və insan hüquqlarına uyğun fəaliyyət göstərməlidir. Bu baxımdan beynəlxalq əməkdaşlığın əhəmiyyəti xüsusi vurğulanmalıdır. Heç bir dövlət süni intellektin yaratdığı imkanlardan və risklərdən təkbaşına sığortalana bilməz. Məlumat təhlükəsizliyi, etik standartlar, rəqəmsal idarəetmə və innovasiya sahəsində ortaq yanaşmaların hazırlanması qlobal zərurətə çevrilmişdir".

Tahir Budaqovun sözlərinə görə, süni intellekt və rəqəmsal transformasiya yalnız hökumətlərin deyil, eyni zamanda siyasi partiyaların da qarşısında yeni vəzifələr müəyyən edir: "Müasir dövrdə siyasi partiyalar cəmiyyətlə dövlət arasında körpü rolunu oynamaqla yanaşı, texnoloji dəyişikliklərin sosial nəticələrinin düzgün idarə olunmasında mühüm məsuliyyət daşıyırlar. Siyasi partiyalar rəqəmsal savadlılığın artırılması, innovasiyaların təşviqi, gənclərin texnologiya sahəsinə cəlb olunması və süni intellektin etik istifadəsi ilə bağlı ictimai konsensusun formalaşdırılmasında fəal rol oynamalıdırlar. Yeni Azərbaycan Partiyası da süni intellektin imkanlarından istifadə etmək məqsədilə özünün ixtisaslı kadrları vasitəsilə bu texnologiyanı öyrənir və onun tətbiqi imkanlarını təhlil edir. Ötən il iyunun 15-də YAP-ın təşkilatçılığı ilə Şuşa şəhərində keçirilmiş "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" adlı beynəlxalq konfransın "Ortaq dəyərlər və süni intellekt: yeni təhdidlər və imkanlar" mövzusuna həsr olunmuş panel sessiyasında kifayət qədər maraqlı fikir və təcrübə mübadiləsi aparılmışdır. Günümüzün reallıqlarını nəzərə alaraq, bu məsələnin daim diqqət mərkəzində saxlanılmasının və aparılan müzakirələrin əhatə dairəsinin daha da genişləndirilməsinin vacibliyini bir daha qeyd edir, bugünkü müzakirələrin də uğurlu nəticələrlə yadda qalacağına əminliyimi ifadə edirəm".

Aparılmış müzakirələrdə rəqəmsal transformasiyanın və süni intellektin inkişafının qlobal tərəqqi və rifaha bir çox yeni imkanlar yaratdığı qeyd olunub. Bununla belə, yeni texnologiyaların, xüsusən də süni intellektin meydana çıxardığı bir sıra təhlükəsizlik çağırışlarına qarşı beynəlxalq ictimaiyyətin əlaqələndirilmiş və birgə fəaliyyətinin zəruriliyi vurğulanıb.

*"Azərbaycan"*

# Sahilləri birləşdirən "Dostlug"





Prezident Sərdar Berdiməhəmmədovun bu yaxınlarda Azərbaycana etdiyi dövlət səfəri çərçivəsində qardaş ölkə Türkmənistana "Dostlug" neft tankeri hədiyyə edilib. Bu hadisə Xəzər dənizi sahillərində qonşuluqda yaşayan türkmən və Azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluğun bu gün dövlətlərarası səviyyədə yeni məzmun kəsb etdiyinin növbəti rəmzi olub.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkmənistan mediasında dərc olunmuş məqalədə bildirilir.

"Bakı Gəmiqayırma Zavodunda inşa edilmiş yeni yük gəmisi dərhal ilk səfərinə çıxaraq Türkmənbaşı Beynəlxalq Dəniz Limanına gəlib və burada onun təntənəli qarşılanma mərasimi keçirilib. Türkmənistan sahilində yerləşən müasir limanda lövbər salan tankeri şəhər administrasiyasının nümayəndələri, fəxri ağsaqqallar, dəniz limanının mütəxəssisləri, dənizçilik ixtisası üzrə təhsil alan gənclər və çoxsaylı şəhər sakinləri qarşılayıblar. Tankerin qarşılanması münasibətilə keçirilən təntənəli mərasimin proqramında mədəniyyət və incəsənət xadimlərinin musiqili çıxışları mühüm yer tutub.

Dəniz donanmasına daxil edilən və sarsılmaz türkmən-Azərbaycan dostluğu və qardaşlığının rəmzinə çevrilən "Dostlug" neft tankeri ölkəmizin dəniz ticarət donanmasının imkanlarını da genişləndirəcək. Gəminin uzunluğu 141, eni 16,9 metr, yükdaşıma qabiliyyəti isə 8 min tondur. Tanker Xəzər dənizi vasitəsilə karbohidrogenlərin daşınma həcminin artırılmasına xidmət edəcək. Bu isə öz növbəsində iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin artmasına töhfə verəcək.

Tanker müasir gəmiçilik və dənizdə təhlükəsizlik sahəsində irəli sürülən tələblər nəzərə alınmaqla inşa edilib. Gəminin hərəkətinə və naviqasiyasına nəzarət qabaqcıl texnologiyalar vasitəsilə həyata keçirilir.

Mərasim iştirakçıları müasir gəminin texniki imkanları ilə tanış olub, ona türkmən və Azərbaycan xalqlarının firavanlığına və rifahına, iqtisadi-ticari əlaqələrin daha da möhkəmlənməsinə xidmət etməsini, dost və qardaş Xəzərin sularında uğurlu səfərlər və xoş yol arzulayıblar", - deyə məqalədə bildirilir.

# ADA Universitetində 9-cu Beynəlxalq Təhsil Konfransı təşkil edilib

İyunun 30-da ADA Universiteti və Elm və Təhsil Nazirliyinin birgə tərəfdaşlığı ilə 9-cu ADA Beynəlxalq Təhsil Konfransının rəsmi açılış mərasimi olub.




AZƏRTAC xəbər verir ki, "Pedaqoji transformasiya dövründə öyrətmə və öyrənmə" mövzusuna həsr olunmuş builki konfransda süni intellektin geniş tətbiqi, milli inkişaf prioritetləri, əmək bazarının yeni tələbləri və müasir təhsil ekosisteminin qurulması kimi aktual çağırışlar ətrafında geniş müzakirələr aparılıb.

Tədbiri açan ADA Universitetinin strategiya və inkişaf üzrə prorektoru, konfransın Təşkilat Komitəsinin sədri professor Vəfa Kazdal tədbirin əsas məqsədi və hədəfləri barədə ətraflı məlumat verib.

Açılış mərasimində ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev və elm və təhsil naziri Emin Əmrullayev çıxış ediblər.



Elm və təhsil naziri çıxışında müasir təhsildəki strateji hədəfləri vurğulayaraq bildirib ki, ölkəmizdə ali təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən islahatlar nəticəsində istedadlı gənclərimiz ölkəni tərk etmədən yüksəksəviyyəli təhsil almaq imkanı əldə edirlər. Təhsilin iki mühüm funksiyasını qeyd edən nazir, gənclərə fundamental bilik və bacarıqların qazandırılması ilə yanaşı, onlara milli və bəşəri dəyərlərin də aşılanmasının zəruriliyini diqqətə çatdırıb.

ADA Universitetinin rektoru Hafiz Paşayev isə keyfiyyətli təhsil mühitinin yaradılmasının əhəmiyyətinə toxunub. Rektor vurğulayıb ki, müəllimlər elmi tədqiqatlara başlamazdan əvvəl kifayət qədər təcrübə toplamalı və araşdırmalarını məhz öz təcrübələrinə, eləcə də mövzuya olan maraqlarına əsasən aparmalıdırlar. Keçmişdə müəllimlərin daha ağır və çətin şəraitdə işlədiklərini xatırladan rektor hazırda təhsil sahəsində mühüm irəliləyişlərin olduğunu, lakin elm sahəsində hələ də görüləsi işlərin qaldığını bildirib.

Konfransın əsas məruzəçisi, Honkonq Təhsil Universitetinin professoru Yusuf Oldac "Generativ süni intellekt dövründə əhəmiyyətli biliklər istehsal edən ali təhsil sistemlərinin qurulması: inkişaf etməkdə olan dünyadan meyillər və dərslər" mövzusunda təqdimatla çıxış edərək qlobal trendləri diqqətə çatdırıb.

Proqram çərçivəsində paralel elmi sessiyalarla yanaşı, beynəlxalq və yerli ekspertlərin iştirakı ilə iki mühüm panel müzakirəsi təşkil olunub.

ADA Universitetinin professoru Azər Əbizadənin moderatorluğu ilə keçən "ADA Universitetində tədqiqat ekosisteminin yaradılması: gələcəyə doğru addımlara dair düşüncələr" mövzusundakı ilk panel müzakirəsində Kanzas Dövlət Universitetinin dosenti Səbuhi Sərdarlı, Kolumbiya Universitetinin dosenti Cavid Hüseynov, Corc Vaşinqton Universitetinin professoru Sevinc Məmmədova və ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər fakültəsinin dekanı professor Azər Babayev çıxış edərək öz rəy və təkliflərini bölüşüblər.

# Azərbaycanın və Qazaxıstanın xarici işlər nazirləri əməkdaşlığın perspektivlərini nəzərdən keçiriblər

İyunun 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev arasında telefon danışığı baş tutub.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin gündəliyində duran məsələlər, ikitərəfli və çoxtərəfli əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub.

Nazirlər beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulayaraq, çoxtərəfli platformalarda əlaqələndirilmiş fəaliyyətin bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) sədrliyi çərçivəsində həyata keçirilən tədbirlər və qarşıdakı təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanda keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"ndə Qazaxıstanın yüksək səviyyədə təmsil olunmasını məmnunluqla qeyd edərək, bunun ortaq tarix, mədəniyyət və mənəvi irsin təşviqi, eləcə də türk dünyasında həmrəyliyin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# ICMP-nin baş direktoru Ermənistanın hərbi təcavüzü ilə əlaqədar taleyi naməlum qalmış şəxslər barədə məlumatlandırılıb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) baş direktoru Katrin Bomberger ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib.



Bildirilib ki, görüş zamanı Azərbaycan ilə ICMP arasında əməkdaşlıq gündəliyi, münaqişədən sonrakı dövrdə itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən fəaliyyət, habelə bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın hərbi təcavüzü nəticəsində təxminən 4 minə yaxın azərbaycanlının taleyinin bu günədək naməlum qaldığını diqqətə çatdıraraq, itkin düşmüş şəxslər məsələsinin Azərbaycan üçün prioritet humanitar istiqamətlərdən biri olduğunu vurğulayıb. Bu çərçivədə Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri, basdırılma faktları və mina xəritələri ilə bağlı mövcud məlumatların tam şəkildə təqdim edilməsinin itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair Saziş layihəsində itkin düşmüş şəxslər məsələsinə dair müddəanın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, bu istiqamətdə etimadın qurulması və humanitar nəticələrin aradan qaldırılması üçün praktiki addımların vacibliyini qeyd ediblər.

Görüşdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə ICMP arasında formalaşmış faydalı tərəfdaşlıq yüksək qiymətləndirilərək, bu əməkdaşlığın itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi, identifikasiya imkanlarının gücləndirilməsi və beynəlxalq təcrübənin tətbiqi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Nazir Ceyhun Bayramov Azərbaycan tərəfinin 44 günlük Vətən müharibəsindən sonra humanitar öhdəliklərinə sadiq qalaraq, mürəkkəb təhlükəsizlik şəraitinə və mina təhlükəsinə baxmayaraq genişmiqyaslı axtarış işləri həyata keçirdiyini, aşkarlanmış 2 mindən artıq erməni hərbçisinin cəsədini qarşı tərəfə təhvil verdiyini diqqətə çatdırıb. Bu addım Azərbaycanın beynəlxalq humanitar hüquqa hörmətinin və humanitar məsələlərdə konstruktiv yanaşmasının bariz nümunəsi kimi qiymətləndirilib.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aşkar olunan kütləvi məzarlıqlar, aparılan ekshumasiya və identifikasiya işləri, habelə aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər və ICMP-nin digər ölkələrdə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Sabitlik inkişafın əsas ilkin şərtlərindəndir



***"Azərbaycan cəmi 35 ildir ki, müstəqildir. Müharibə, işğal, humanitar fəlakət, vətəndaş müharibəsi və digər çətinliklərlə səciyyələnən ilk iki ili istisna etməklə qalan dövr ölkənin sabit inkişafı ilə yadda qaldı. Bu isə hər hansı ölkənin uğuru üçün əsas ilkin şərtlərdən biridir. Sabitlik pozulduqda biz inkişaf haqqında heç danışa bilmərik. Beləliklə, sabitlik, - yəni bu gün Azərbaycanın reallığını təşkil edən siyasi, iqtisadi və sosial sabitlik, - nəinki inkişafımızın əsas meyarıdır, o cümlədən regional inkişaf göstəricisidir".***

**İlham ƏLİYEV**

*Keçmişini unudan gələcəyini qura bilməz, - demişlər.*

*Keçmiş təkcə tarixin uzaqlarında qalan dövrləri deyil.*

*Bu gün də yaşayan insanların neçə il öncə gördükləri və yaşadıqları da keçmiş sayılır.*

Buna yaxın keçmiş də demək olar.

**Ancaq olanları, gördüklərimizi, çəkdiklərimizi unutmamalı, bugünkü və gələcək nəsillərə söyləməli, onları hər şeydən hali etməliyik.**

**Çünki unutqanlıq keçmiş faciələrin və səhvlərin yenidən yaşanılmasına səbəb ola bilər.**

*Bax, müdriklərimiz bu mənada keçmişi unutmamağı tövsiyə edirlər.*

❖ ❖ ❖

- Sabitlik olmayanda cəmiyyətin nizamı dağılır!
- Sabitlik olmayanda insanların rahatlığı, normal həyat ritmi pozulur!
- Sabitlik olmayanda bu günə və sabaha olan inam azalır!
- Sabitlik itəndə yeni, çoxsaylı problemlər meydana çıxır!

Problem demişkən, sovet dövründə problem sarıdan heç zaman "çətinliyimiz" olmayıb.

*Bu gün bizim üçün adiliyə çevrilən məsələlərin bir qismi sovet hakimiyyəti illərində problem səviyyəsində idi.*

MƏSƏLƏN:

**Gecələr qorxmadan bayıra çıxır, istədiyimiz yerə gedirik, hətta şəhərimizdə olan əcnəbi turistlər belə səhərədək Dənizkənarı bulvarda, küçələrdə rahat və kimsədən ehtiyat etmədən gəzə bilirlər.**

- Amma vaxt vardı - 20 Yanvar faciəsindən sonra Bakıda komendant saatı tətbiq olunmuşdu, kimsə gecələr bayıra icazəsiz çıxa bilməzdi, sovet əsgəri insanlara birbaşa atəş açırdı.
- Ürəyimizdən keçənləri, istədiklərimizi mağazalarımızdan (indi onlara "supermarket", "ticarət mərkəzi" deyirik) istənilən qədər alırıq;
- Amma vaxt vardı ət və yağ ailə üzvlərinin sayına görə xüsusi talonlarla və "təhkim olunduğun" mağazalardan verilirdi;
- Normal pal-paltar, əyin-baş almaq üçün qardaş Türkiyəyə gedərdik, yaxud onların gizli satışı ilə məşğul olan alverçi axtarardıq;
- Bir sıra zəruri ərzaq məhsulları - çay, qənd, şəkər tozu qıt olduğundan onları "altdan" alardıq, yəni satıcılara artıq pul ödəməklə gizlincə əldə edərdik;
- Çörək növbələri isə ən zəif yerimiz idi - yalnız dövlətə məxsus çörək zavodlarında istehsal edildiyinə görə hərdən zavodların qarşısında da növbələr yaranardı;
- İndi isə istədiyin "market"dən günün istənilən vaxtı istədiyin növdə, rəngdə və çeşiddə çörək ala bilirsən.

**Xalqımızın daha bir ağrılı yaddaşı: AXC-Müsavat iqtidarının səriştəsizliyi nəticəsində dövlətin taxıl ehtiyatı vaxtında yaradılmadığından "bəy"lər əhaliyə mal-qara üçün nəzərdə tutulan qüvvəli yemdən - "jımıx"dan çörək bişitdirərək satdırırdılar.**

Yaxud şəhərimiz üçün artıq probleme çevrilən, minik maşınlarının çoxluğundan yaranan "tıxac" problemi.

Sovet dövründə əsas üç marka ("Volqa", "Moskviç" və "Jiquli") minik maşınları satılardı (indi küçələrdə şütüyən maşınların markalarının sayı-hesabı bilinmir).

*Onları əldə etməkdən ötrü isə 5-10 il ərzində yerli ZDS (sonra XDS) İcraiyyə komitələrində "maşın növbəsi"nə durmalı idin.*

Yalnız bundan sonra avtomobil sahibi ola bilərdin.

Keçid dövründə kolxoz və sovxozlar dağıdıldığından, kooperasiya əlaqələri pozulduğundan ittifaq tabeli müəssisələrin - fabrik, zavod və istehsalat birliklərinin öz işini dayandırması böyük işsizlər ordusunun yaranması ilə nəticələnmişdi.

İşsiz qalan insanlar isə şəhər və rayonların mərkəzlərindəki meydanlara yığılaraq kütləvi mitinqlər keçirirdilər.

Bu həm də Moskva tərəfindən körüklənən Qarabağ probleminə mərkəzin ədalətsiz yanaşmasına Azərbaycan xalqının açıq etirazı sayılırdı.

**Bu gün ölkədə işsizlik və yoxsulluq səviyyəsi 5 faizdən aşağıdır.**

**"Qıtlıq problemləri" isə öz yerini "bolluq problemi"nə vermişdir.**

MƏSƏLƏN:

- Hər ailənin bir neçə maşını olduğundan küçələrin tıxacı həllolunmaz problemə çevrilib.
- Vaxtilə mənzillərinə telefon çəkdirmək üçün illərlə növbə gözləyən ailələrin hər üzvünün indi mobil telefonu var.
- Hətta uşaqları sosial şəbəkələrdən çəkindirmək üçün qanunda müvafiq dəyişiklik etməyə hazırlaşırıq.

*Mayası süni şəkildə yaradılan "Dağlıq Qarabağ münaqişəsi"ndən qidalanan və Moskvanın ölkəmizə qərəzli, ədalətsiz münasibətindən yaranan, həmin dövrdə ölkəyə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz insanlar başçılıq etdiklərindən vaxtında həllini tapmayan məsələlərdən doğan narazılıqlar ölkədə sabitliyin ciddi şəkildə pozulması ilə nəticələndi.*

**Anarxiya və qanunsuzluqların cilovlanaraq sabitliyin bərpası isə xeyli zaman, vaxt və enerji tələb etdi.**

❖ ❖ ❖

*Sabitliyi pozmaq asandır, onu bərpa etmək isə qat-qat çətin!*

*Azərbaycanda da belə oldu.*

**Ölkəyə başçılıq edənlər pozulan sabitliyi geri qaytara, xalqın etimadını doğrulda və etibarını qazana bilmədilər!**

ODUR Kİ:

- Ə.Vəzirov 20 Yanvar faciəsinin səbəbkarlarından biri sayıldığından hərbi təyyarəyə minərək Moskvaya qaçdı.
- A.Mütəllibov da eyni aqibəti yaşadı.

AXC-Müsavat cütlüyünün taleyi isə qismən fərqli oldu.

İqtidarda olduqları qısa müddətdə xalqın etimad kreditini xərcləyib qurtaranları xalq müdafiə etmədi.

- Odur ki, S.Hüseynov hərbiləşdirilmiş dəstəsi ilə Bakıya gəlmək istəyəndə prezident Ə.Elçibəy "komandası"nı yiyəsiz qoyaraq Kələkiyə qaçdı.

Başlarını itirən komanda üzvləri isə bir-bir "vəzifələrini donduraraq" aradan çıxmağa başladılar.

Düşmən isə yaranmış situasiyadan istifadə edərək dalbadal ərazilərimizi işğal edir və Kürədək Azərbaycan torpaqlarına sahib durmaq niyyətini gizlətmirdi.

**Xalq yaranmış vəziyyətdən yeganə çıxış yolunu sevimli və sınanmış oğlunun, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü.**

*Heydər Əliyev xalqın müraciətinə biganə qalmadı və dövləti qoruyub saxlamaq üçün yenidən ölkə rəhbəri olmağa razılıq verdi!*

Bununla da xilaskarlıq missiyasının icrasına başladı.

❖ ❖ ❖

**Sabitliyin yaradılması çətin, uzunmüddətli və çoxsaylı tədbirlər görülməsini tələb edir.**

*Sabitliyin əleyhinə çalışan qüvvələrin mövcudluğu şəraitində isə məsələ daha da qəlizləşir.*

Ölkəmizdə də belə bir vəziyyət mövcud idi...

**Düz iki dəfə Azərbaycana düşmən qüvvələr "sapı özümüzdən olan baltalar"ın köməyi ilə dövlət çevrilişinə cəhd göstərdilər.**

Lakin onlar bir məsələdə yanılmışdılar.

**Artıq Azərbaycana dünyanın görkəmli siyasi və dövlət xadimi, xalqın sevdiyi və qoruduğu Ulu Öndər Heydər Əliyev rəhbərlik edirdi!**

*Onun çağırışı ilə xalq hər iki halda ayağa qalxaraq öz rəhbərini müdafiə məqsədilə meydana axışdı...*

**Cəmiyyətin sağlam qüvvələri dövlətə xəyanət yolunu tutan ünsürlər üzərində qələbə çaldılar!**

**Heydər Əliyev zəkası hər cür xəbis niyyətlilərə üstün gəldi!**

*Bundan sonra müstəqilliyi əbədiliyə və dönməzliyə çevirmək, sabitliyi uzunömürlü etmək yolunda qətiyyətli addımlar atıldı:*

- Qanunsuz silahlı dəstələr tərk-silah edildi;
- Əhalidəki qeyri-qanuni silah-sursat yığıldı;
- Xaos, anarxiya və özbaşınalığa son qoyuldu;
- Xüsusi komissiya yaradılaraq yeni Konstitusiyanın layihəsi hazırlandı və ümumxalq səsverməsi yolu ilə qəbul olundu;
- Dövlət əmlakının özgəninkiləşdirilməsi məqsədilə iki dövlət proqramı qəbul edilərək reallaşdırıldı, bazar iqtisadiyyatına keçid təmin edildi;
- "Əsrin müqaviləsi" imzalanaraq Azərbaycanın gələcək inkişafının iqtisadi bünövrəsi qoyuldu.

**Tale bundan artığına vaxt vermədi, ölkədə uzunmüddətli sabitliyin təminatına imkan yaradan etibarlı siyasi kurs müəyyənləşdirən və layiqli siyasi varisini hazırlayan Ulu Öndər Heydər Əliyev əbədiyyətə qovuşdu.**

*Azərbaycanın gələcək taleyi isə etibarlı əllərə, ümumxalq səsverməsi ilə yüksək etimad qazanan cənab İlham Əliyevə tapşırıldı!*

❖ ❖ ❖

2003-cü il prezident seçkilərinin növbəti günü AXC-Müsavatdan qalma müxalifətin tör-töküntüləri və Azərbaycana düşmən dövlətlərin maliyyələşdirdiyi ünsürlər yenidən ölkədaxili sabitliyi sınağa çəkərək aranı qarışdırmağa cəhd göstərdilər.

**Lakin İlham Əliyevin atdığı qətiyyətli və uzaqgörən addımlar, prinsipial mövqeyi və gördüyü operativ tədbirlər sayəsində məqsədlərinə çata bilmədilər!**

*Həm də anladılar ki, dövlət yenə də möhkəm və etibarlı əllərdədir!*

**Cənab İlham Əliyevin sonrakı illərdə də gördüyü işlər, qazandığı nailiyyətlər söylənilənlərin təsdiqinə çevrildi!**

*Ən əvvəl İlham Əliyev seçki kampaniyası dövründə xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirdi:*

- Məcburi köçkünlər üçün müasir tipli 116 yaşayış kompleksi və şəhərcik saldıraraq onların həyat şəraitini əsaslı şəkildə yaxşılaşdırdı;
- Görülən tədbirlər sayəsində elektrik enerjisi ilə təminatda baş verən fasilələr tam aradan qaldırıldı;
- Sahibkarlığın inkişafına münbit şərait yaradıldı;
- Yol infrastrukturu təzələndi;
- Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars transmilli layihələri reallaşdırıldı;
- TAP və TANAP xətləri çəkilməklə "Cənub qaz dəhlizi" yaradıldı və hazırda onun vasitəsilə Azərbaycan 16 ölkəyə təbii qaz ixrac edir;
- Orta dəhlizin işə salınması və Zəngəzur dəhlizinin istifadəyə verilməsi üçün inamlı addımlar atıldı;

*Lakin tam və daimi sabitlik yaranması üçün Dağlıq Qarabağ münaqişəsi həllini tapmalı, torpaqlarımız işğaldan və separatçılardan azad edilməli idi.*

**Odur ki, cənab İlham Əliyev ölkə iqtisadiyyatının gücləndirilməsinə, yeni ordu qurulmasına və onun ən müasir texnologiyalara əsaslanan silahlarla təmin olunmasına xüsusi diqqət yetirirdi.**

Münaqişənin sülh yolu ilə həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu saxta və riyakar mövqe tutmaqla vaxtı uzadır, işğalı əbədiləşdirməyə çalışırdı.

Ermənistan isə mənfur niyyətini gizlətmirdi.

*Xankəndidə sərxoş vəziyyətdə olan baş nazir N.Paşinyan artıq torpaqların işğalı ilə bağlı məsələnin bitdiyini açıq şəkildə bəyan etdi: "Qarabağ Ermənistandır və nöqtə".*

Haylar o qədər qudurmuşdular ki, hətta bizə hədə-qorxu da gəlirdilər: "Yeni müharibə, yeni ərazilər olacaqdır".

**Təbii ki, Azərbaycan belə vəziyyətlə heç cürə razılaşa bilməzdi.**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaxınlarda söylədiyi nitqindən bir neçə məqamı diqqətə çəkirik:**

*"Danışıqlar prosesinin ilkin mərhələsində böyük ümidlərimiz var idi. Mən 2003-cü ildən Prezident kimi fəaliyyət göstərirəm və 17 il ərzində, dediyim kimi, sonradan nəticəsiz olduğu aydın olan bu danışıqlarda şəxsən iştirak etdim, sülh yolu ilə həll variantı tapmağa və böyük dövlətləri həqiqətin bizim tərəfimizdə olduğuna inandırmağa çalışdım".*

*"Biz deyirdik: "Haqq bizim tərəfimizdədir. Biz işğala məruz qalmışıq. Xəritəyə baxın, Ermənistan silahlı qüvvələrinin bizim ərazilərimizdə harada yerləşdiyini görün". Bunun müqabilində isə yalnız bir cavab alırdıq: "Gedin razılaşın" birinci mesaj. İkinci mesaj: "Bu münaqişənin hərbi həlli yoxdur". Üçüncü mesaj: "Siz müharibəyə başlaya bilməzsiniz". Dördüncü mesaj: "Əgər müharibəyə başlasanız, sanksiyalara məruz qalacaqsınız" və bunun kimi çoxsaylı başqa mesajlar verilirdi".*

*"Beləliklə, dünya siyasətində qərar verən qüvvələrin torpaqlarımızın qeyri-qanuni şəkildə əbədi işğal altında qalmasına qərar verdiyini anladığımız zaman biz öz qərarımızı verdik və bütün planları dəyişdirdik. 2020-ci ildə torpaqlarımızın azad olunması uğrunda müharibə 44 gün davam etdi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Biz işğal altında olan ərazilərimizin böyük hissəsini azad etdik, lakin hamısını deyil. Daha sonra - 2023-cü ildə bu məsələyə tam və qəti nöqtə qoyduq. Bu gün Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam şəkildə bərpa olunub və bu, bütün dünya tərəfindən qəbul edilir. Bundan sonra isə biz Ermənistana sülh təklif etdik. İşğaldan və dağıntılardan əziyyət çəkmiş qalib ölkə, qalib xalq olaraq sülh təşəbbüsü ilə çıxış edən tərəf məhz biz olduq. Bu gün isə artıq sülh reallığa çevrilib".*

❖ ❖ ❖

- İlham Əliyev işğal altındakı torpaqları "dəmir yumruğ"u ilə azad etdi!
- İlham Əliyev ərazilərimizi separatçılardan və qondarma qurumlardan "dəmir yumruğ"u ilə təmizlədi!
- İlham Əliyev "dəmir yumruğ"unu yenidən hazır vəziyyətə gətirsə də, sülh siyasəti yeridir!
- İlham Əliyev müdrikliyi, qətiyyəti və uzaqgörən siyasəti sayəsində Azərbaycanda əsl sabitlik və daimi tərəqqi bərqərar olunmuşdur!

\- Sabitlik xalqla iqtidarın birliyi, vəhdəti deməkdir!

\- Sabitlik pozulmaz nizamdır!

\- Sabitlik dövlətin gücü, qüdrətidir!

\- Sabitlik sürətli və davamlı inkişafdır!

\- Sabitlik vətəndaş məmnunluğunun təzahürü, xalqın iqtidara güvəni və inamıdır!

*Son 20 ildə Azərbaycana 350 milyard dollardan çox birbaşa investisiya qoyulmuşdur ki, bunların da yarısı xarici mənbələrdən cəlb edilmişdir.*

**Bu həm də Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu, dünya dövlətlərinin ölkəmizdəki inkişafa, əmin-amanlığa və sabitliyə olan inamının təzahürüdür!**

Dünyanın müharibələr girdabında çabaladığı, qlobal iqtisadiyyatın müharibələr səbəbindən baş verən kataklizmlərdən böyük zərbələr aldığı bir vaxtda Azərbaycan cəmi 44 gündə ikiəsrlik münaqişəyə son qoyaraq, Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə çevirməkdədir.

*Bu, İlham Əliyev siyasətinin müdrikliyi və uzaqgörənliyinin real həyatda təsdiqi, dünyaya və insanlara ən dəyərli töhfələrindən biridir!*

**Bəxtiyar SADIQOV**

# Şuşada TDT ölkələrinin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin Birinci görüşü keçirilib







Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin Birinci görüşü keçirilib. Tədbirdə TDT-nın baş katibi, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dini sahədə səlahiyyətli dövlət qurumlarının rəhbərləri və nümayəndə heyətlərinin üzvləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov qonaqları türk dünyasının mədəniyyət paytaxtı, Azərbaycanın şanlı Zəfərinin rəmzi olan Şuşada salamlamaqdan məmnunluğunu ifadə edib. Dövlət komitəsinin sədri bildirib ki, bu tədbir Türk Dövlətləri Təşkilatı çərçivəsində dini məsələlər üzrə məsul dövlət qurumları arasında çoxtərəfli əməkdaşlığın institusional əsaslarını formalaşdırmaqla əlaqələrin möhkəmləndirilməsinə xidmət edir. Ramin Məmmədov vurğulayıb ki, Türk Dövlətləri Təşkilatı bu gün regional sabitliyin və beynəlxalq əməkdaşlığın mühüm platformalarından birinə çevrilib. O, təşkilat daxilində qurumlararası koordinasiyanın gücləndirilməsində TDT Katibliyinin rolunun mühüm olduğunu bildirərək, dövlət başçılarının siyasi iradəsinin türk dünyasının inteqrasiyasını keyfiyyətcə yeni mərhələyə yüksəltdiyini deyib. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursunda türk dünyasının birliyinin möhkəmləndirilməsi strateji prioritetlərdən biridir və "Bizim bir ailəmiz var, o da türk dünyasıdır" prinsipi bu əməkdaşlığın ideoloji əsasını təşkil edir.

Çıxışında müasir dövrdə dini radikalizm, ekstremizm, islamofobiya, dini zəmində nifrət çağırışları və ideoloji manipulyasiya cəhdlərinin dövlətlər qarşısında yeni çağırışlar yaratdığını bildirən komitə sədri qeyd edib ki, bu təhdidlərə qarşı yalnız əlaqələndirilmiş fəaliyyət sayəsində effektiv mübarizə aparmaq mümkündür. O, Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələrinin təqdirəlayiq nümunə olduğunu diqqətə çatdırıb. Ramin Məmmədov bildirib ki, Şuşada əsası qoyulan yeni platforma TDT çərçivəsində dini məsələlər üzrə dövlət qurumları arasında əməkdaşlığın inkişafına, informasiya və təcrübə mübadiləsinin, ortaq dini-mənəvi dəyərlərin qorunması işinin sistemli şəkildə təşkilinə, ideoloji təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcək. O, Azərbaycan İlahiyyat İnstitutunun potensialından istifadə etməklə üzv dövlətlərin dini təhsil müəssisələri arasında akademik əməkdaşlığın, birgə elmi tədqiqatların və mütəxəssis hazırlığının genişləndirilməsinin vacibliyini vurğulayıb. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində dağıdılmış dini-mədəni irsin bərpası, qorunması və bu ərazilərdə vaxtilə Ermənistan tərəfindən törədilmiş vandalizm aktlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində türk dövlətlərinin əməkdaşlığının əhəmiyyətini diqqətə çatdırıb.

Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib. O, tarixi Şuşa şəhərində keçirilən bu görüşün təşkilata üzv ölkələrin dini sahədə institusional əməkdaşlığının inkişafında yeni mərhələnin əsasını qoyacağını vurğulayıb. Baş katib qeyd edib ki, ortaq tarix, mədəniyyət və mənəvi dəyərlər türk dövlətləri arasında həmrəyliyin, eləcə də qarşılıqlı etimadın möhkəmlənməsinin əsas dayaqlarıdır. O, yaradılan yeni əməkdaşlıq formatının dövlət qurumları arasında təcrübə mübadiləsinin genişlənməsində mühüm rol oynayacağını vurğulayıb. Kubanıçbek Ömüralıyev müasir dövrdə dini ekstremizm, radikalizm və dözümsüzlük kimi çağırışlara qarşı birgə fəaliyyətin vacibliyini diqqətə çatdırıb. Təşkilata üzv ölkələrin zəngin elmi və mənəvi irsinin qorunmasının, eləcə də gənc nəslin milli-mənəvi dəyərlər ruhunda yetişdirilməsinin ortaq vəzifələrdən olduğunu deyib. Baş katib Şuşada keçirilən görüşün Türk dünyasında birlik, həmrəylik və qarşılıqlı anlaşmanın daha da möhkəmlənməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Safi Arpaquş türk dünyasının zəngin elmi və mənəvi irsinin qorunmasının, gənc nəslin sağlam dini bilik, milli-mənəvi dəyərlər əsasında formalaşdırılmasının, eləcə də islamofobiya, dini radikalizm, həmçinin dezinformasiyaya qarşı birgə fəaliyyətin vacibliyini qeyd edib. Vurğulayıb ki, bu istiqamətdə ortaq mövqenin formalaşdırılması beynəlxalq platformalarda həqiqətlərin daha təsirli şəkildə çatdırılmasına və dini-mənəvi dəyərlərin müdafiəsinə mühüm töhfə verə bilər. O, dini təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsinin və ortaq elmi platformaların yaradılmasının gələcək nəsillər arasında həmrəyliyin möhkəmlənməsinə xidmət etdiyini bildirib. Sədr dini sahədə peşəkar kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə, elmi əlaqələrin möhkəmlənməsinə, ortaq mənəvi dəyərlərin təbliğinə və türk dövlətlərinin gənc nəsilləri arasında həmrəyliyin daha da güclənməsinə xidmət edən təşəbbüslərə ehtiyac duyulduğunu diqqətə çatdırıb.

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Rüstəm Əli Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin dini məsələlər üzrə məsul qurum rəhbərlərinin ilk görüşünün keçirilməsini yüksək qiymətləndirərək, təşəbbüsə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. O, türk dövlətlərini ortaq tarix, mədəniyyət və mənəvi dəyərlərin birləşdirdiyini vurğulayaraq, dini sahədə əməkdaşlığın daha da dərinləşdirilməsinin vacibliyini qeyd edib. Rüstəm Əli bu sahədə profilaktik tədbirlərin gücləndirilməsi, süni intellekt imkanlarından istifadə, silahlı münaqişə zonalarından qayıdan şəxslərin reabilitasiyası və təcrübə mübadiləsinin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın əsas istiqamətləri kimi xarakterizə edib.

Qırğızıstan Prezidenti yanında Dini Məsələlər və Millətlərarası Münasibətlər üzrə Milli Agentliyin sədri Talantbek Taşibekov dini siyasət sahəsində koordinasiyanın gücləndirilməsi, ekspert və akademik əməkdaşlığın genişləndirilməsi, dini savadlılığın artırılması və tolerantlıq mədəniyyətinin təşviqinə yönəlmiş birgə proqramların həyata keçirilməsinin vacibliyini vurğulayıb. O, gənclər arasında əlaqələrin inkişafının türk dövlətlərinin birliyinin daha da möhkəmlənməsinə xidmət edəcəyini bildirib.

Özbəkistanın Dini Məsələlər Komitəsinin sədri Sodik Toşboyev din, eləcə də dini təhsil sahəsində əməkdaşlığın hüquqi əsaslarının daha da gücləndirilməsi məqsədilə TDT-yə üzv dövlətlərin müvafiq qurumlarının nümayəndələrindən ibarət İşçi qrupunun yaradılması, dini təhsil müəssisələri arasında akademik mübadilənin genişləndirilməsi, ortaq elmi layihələrin həyata keçirilməsi və ziyarət turizminin inkişaf etdirilməsi təşəbbüsünü irəli sürüb.

Görüş islam həmrəyliyinin təşviqi, dini radikalizmə, ekstremizmə qarşı mübarizə sahəsində təcrübə və məlumat mübadiləsinin gücləndirilməsi kimi məsələlərin müzakirəsi ilə davam edib.

Sonda qurumlar arasında əməkdaşlığın institusional əsaslarını, gələcək birgə fəaliyyət istiqamətlərini özündə əks etdirən 11 bənddən ibarət kommünike imzalanıb.

# Azərbaycan oxucularına Birinci Türkoloji Qurultaya həsr olunmuş monoqrafiya təqdim edilib

Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" çərçivəsində Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilmiş "Birinci Türkoloji Qurultay" kitabının təqdimatı keçirilib.




AZƏRTAC xəbər verir ki, nəşr Azərbaycan Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, həmçinin tanınmış alimlər - professor Mahirə Hüseynova və filologiya elmləri doktoru Aysel Qəriblinin müəllifi olduqları bir monoqrafiyadır.

Tədbirdə çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova bildirib ki, kitabda Birinci Türkoloji Qurultayın tarixi missiyası hərtərəfli araşdırılıb. Əsərdə qurultayda müzakirə olunan əlifba, dil, terminologiya, etnoqrafiya, orfoqrafiya, ana dilinin tədrisi, regionşünaslıq və ədəbiyyat məsələlərinə xüsusi diqqət yetirilib.

"Bu fundamental əsər cari il mayın 22-də Almatıda Milli Kitabxanada keçirilmiş beynəlxalq təqdimat mərasimində elmi ictimaiyyətə təqdim olunub. Hesab edirəm ki, bu nəşr təkcə tarixi faktlar toplusu deyil, həm də ortaq tariximizin, milli kimliyimizin və ümumtürk həmrəyliyinin ideoloji əsaslarını əks etdirən mühüm elmi mənbədir", - deyə o vurğulayıb.

Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayevin sözlərinə görə, ötən yüz il ərzində çoxsaylı böyük fəlakətlər və faciələr baş versə də, türkologiya sahəsində tədqiqatlar heç vaxt zəifləməyib və dayanmayıb.

"Kitabın qazax və rus dillərində nəşr olunmuş nüsxələri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə də təqdim edilib. O, bu əsərin əhəmiyyətini xüsusi vurğulayaraq bizə belə bir tapşırıq verdi: "Qurultayın 100 illiyinə həsr olunmuş, Bakıda keçirilən bu möhtəşəm və yüksəksəviyyəli "Türk Dünyası Həftəsi"nə getməli və həmçinin mənim mesajımı da orada çatdırmalısınız", - deyə Malik Otarbayev bildirib.

Qeyd edək ki, kitabda 1926-cı ildə Bakıda keçirilmiş qurultayın tarixi missiyası, onun türk xalqlarının mədəni və elmi inkişafındakı müstəsna rolu, eləcə də etnoqrafiya, orfoqrafiya, terminologiya, əlifba, dil və ədəbiyyat məsələləri dərin elmi təhlil əsasında təqdim olunub.

# *Bakıda "Birinci Türkoloji Qurultay:* Yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqres davam edib

Bakıda keçirilən "Birinci Türkoloji Qurultay: Yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqres iyunun 30-da işini panel müzakirələrlə davam etdirib.



AZƏRTAC xəbər verir ki, tədbirin ikinci günündə iştirakçılar əvvəlcə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin yerləşdiyi tarixi İsmailiyyə binası ilə tanış olublar. Bildirilib ki, Venesiya memarlıq üslubunda inşa edilən bina 1908-ci ildə tikilməyə başlanıb, 1913-cü ildə istifadəyə verilib. Tarixən burada Müsəlman Xeyriyyə Cəmiyyətinin iclasları, ziyalıların və müxtəlif ictimai təşkilatların toplantıları keçirilib.

Daha sonra "Türk dünyası və beynəlxalq elmi əməkdaşlıq" mövzusunda panel iclası işinə başlayıb.

Açılışda çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan "Türk Dünyası Həftəsi"nin açılış mərasimində 26 ölkədən 300-dən çox nümayəndə iştirak edib.



Panelə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli moderatorluq edib.

Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker çıxışında rəhbərlik etdiyi qurumun Birinci Türkoloji Qurultayın elmi irsinin qorunmasını özünə vəzifə hesab etdiyini bildirib. Onun sözlərinə görə, 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayın türk xalqları və dövlətləri arasında formalaşdırdığı birlik ruhu bu gün də yaşayır və həmin irsin gələcək nəsillərə ötürülməsi vacibdir.

Muzaffer Şeker müasir dövrdə dillərin qarşılaşdığı çağırışlara da toxunaraq qeyd edib ki, süni intellekt texnologiyalarının sürətli inkişafı dillərə ciddi təsir göstərir və müəyyən mənada onları bir-birinə yaxınlaşdırır. O vurğulayıb ki, türkoloqlar bu proseslərin doğura biləcəyi risklərin qarşısını almaq üçün qabaqlayıcı addımlar atmalıdırlar.

Paneldə çıxış edən Albaniyanın Tirana Universitetinin Tarix və arxeologiya fakültəsinin müəllimi Gezim Hoxha ölkəsinin tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu məkan olduğunu deyib. O diqqətə çatdırıb ki, Albaniyanın zəngin mədəni irsi müxtəlif tarixi dövrlərin qarşılıqlı təsiri nəticəsində formalaşıb və bu irsin mühüm hissəsini Osmanlı dövrü təşkil edir.

Arxeoloq kimi apardığı tədqiqatlara istinad edən Gezim Hoxha bildirib ki, Albaniyada Osmanlı, yunan, Roma, Bizans, Orta əsr Albaniya və Avropa mədəni irsinin izləri eyni coğrafiyada yanaşı mövcuddur. Onun sözlərinə görə, bu müxtəlif tarixi qatlar bir-birini inkar etmir, əksinə, ölkənin zəngin mədəni kimliyini tamamlayır.

Gezim Hoxha diqqətə çatdırıb ki, Albaniyada çoxsaylı Osmanlı dövrünə aid məscidlər, körpülər, bazarlar və ənənəvi şəhərsalma nümunələri qorunub saxlanılıb. Bundan başqa, həmin irs dil, memarlıq, sənətkarlıq, kulinariya ənənələri və xüsusilə Bəktaşi təriqətinin mənəvi irsi vasitəsilə bu gün də yaşamaqdadır.

O vurğulayıb ki, Osmanlı dövrü Albaniya tarixinin ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir. Onun fikrincə, müxtəlif mədəni təbəqələrin yanaşı öyrənilməsi tarixin daha obyektiv araşdırılmasına, mədəni müxtəlifliyə hörmətin güclənməsinə və xalqlar arasında dialoqun inkişafına xidmət edir.

Qazaxıstan Prezidentinin müşaviri, tanınmış qazax yazıçısı Malik Otarbayev isə çıxışında Birinci Türkoloji Qurultayın 100 illiyinin məhz onun keçirildiyi tarixi binada qeyd olunmasının xüsusi rəmzi məna daşıdığını bildirib. O qeyd edib ki, yüz il əvvəl türk dünyasının görkəmli alim və ziyalılarının məhz bu məkanda toplaşaraq ortaq gələcəyi müzakirə etməsi bugünkü iştirakçılarda həm qürur, həm də məsuliyyət hissi yaradır.

Malik Otarbayev vurğulayıb ki, Qazaxıstandan Birinci Türkoloji Qurultayda iştirak etmiş görkəmli alim və ziyalıların irsi bu gün də türk dünyasının ortaq elmi və mədəni sərvəti kimi yaşayır.

Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov çıxışında Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunmasını bütün türk dünyası üçün əlamətdar hadisə kimi dəyərləndirib. O bildirib ki, hər bir xalq öz milli kimliyini, dilini və mədəni irsini qorumaqla yanaşı, ortaq türk dəyərlərinin yaşadılması istiqamətində də birgə fəaliyyət göstərməlidir.

Nazirin sözlərinə görə, beynəlxalq konqreslər, elmi forumlar, mədəni layihələr, kitablar və filmlər türk xalqlarını bir-birinə daha da yaxınlaşdırır. O əlavə edib ki, Özbəkistanda da ortaq tarixi və mədəni irsin təbliği, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl layihələr həyata keçirilir.

Birinci panel sessiyanın sonunda Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə təsis edilmiş xatirə döş nişanları təqdim olunub.

Panel müzakirələrdə türk dünyasında elmi əməkdaşlığın genişləndirilməsi, ortaq elmi tədqiqatların təşviqi, dil, tarix və mədəni irsin qorunması, beynəlxalq akademik əlaqələrin inkişafı, eləcə də türkoloji elmin aktual istiqamətləri və gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# TDT ölkələrinin dini məsələlər üzrə dövlət qurumlarının rəhbərləri Şuşa ilə tanış olublar

Şuşa şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin Birinci görüşünün iştirakçıları Azərbaycanın mədəniyyət paytaxtı ilə tanış olublar.






AZƏRTAC xəbər verir ki, Şuşa şəhəri ilə tanışlıq Azərbaycanın tanınmış şəxsiyyətləri Bülbül, Xurşidbanu Natəvan və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi mərkəzi meydanla başlayıb. Qonaqlara Şuşa şəhərinin tarixi, işğal dövründəki vəziyyəti, şəhərdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Qonaqlar sonra Yaradıcılıq mərkəzində "Heydər Əliyev və Qarabağ" fotosərgisi, Xan qızı Natəvanın imarəti, Xan qızı bulağı, Şuşa qalası, Aşağı Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi ilə tanış olublar. Sonda Cıdır düzünə gələn qonaqlar buradan açılan gözəl mənzərəni seyr ediblər.

# Azərbaycanın islam dünyasında artan rolu və genişlənən missiyası



Müasir beynəlxalq münasibətlər sisteminin yenidən formalaşdığı, qlobal geosiyasi təlatümlərin və iqtisadi qeyri-müəyyənliklərin kəskinləşdiyi bir dövrdə müsəlman dünyasının vahid platformadan çıxış etməsi təxirəsalınmaz tarixi zərurətə çevrilmişdir. İslam dünyasının ortaq dəyərlər, qarşılıqlı hörmət və qardaşlıq prinsipləri ətrafında sıx birləşməsi regional təhlükəsizliyin, sosial-iqtisadi tərəqqinin və mədəniyyətlərarası dialoqun təmin olunmasında həlledici rol oynayır.

Müstəqillik illərindən bəri islam həmrəyliyinin möhkəmləndirilməsini öz xarici siyasətinin prioritet istiqamətlərindən biri elan edən Azərbaycan bu gün növbəti dəfə mühüm qlobal dialoq mərkəzi qismində çıxış edir. Tarixi Zəfərindən sonra bölgədə yeni geosiyasi reallıqlar və davamlı sülh gündəliyi yaradan rəsmi Bakı coğrafi cəhətdən Şərqlə Qərbin qovşağında yerləşdiyi kimi, siyasi və mənəvi nöqteyi-nəzərdən də islam dünyasının ən etibarlı tərəfdaşlarından birinə çevrilmişdir.

Bu baxımdan İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci Sessiyası Azərbaycanın beynəlxalq nüfuzunun və islam dünyasında artan siyasi çəkisinin növbəti təsdiqi oldu. Bu həm də müsəlman dövlətləri arasında qanunvericilik müstəvisində əlaqələrin yeni mərhələyə qədəm qoymasının bariz göstəricisinə çevrildi. Dünyanın müxtəlif regionlarından parlament sədrlərini, deputatları və beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirən bu mötəbər tədbir təkcə parlament diplomatiyasının inkişafına deyil, həm də islam aləminin qarşısında duran çağırışların müzakirəsinə xidmət etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sessiya iştirakçılarına müraciətində səsləndirilən fikirlər ölkəmizin islam dünyası ilə münasibətlərinin fəlsəfəsini, bu əməkdaşlığın prioritet istiqamətlərini və gələcək hədəflərini aydın şəkildə ortaya qoydu. Müraciət göstərdi ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatını beynəlxalq təşkilat olaraq müsəlman ölkələrinin həmrəyliyini təmin edən mühüm siyasi platforma kimi qiymətləndirir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri islam dünyası ilə əlaqələrin möhkəmləndirilməsi olub. Ölkə İƏT çərçivəsində daim fəal iştirak edib, təşkilatın qəbul etdiyi təşəbbüslərin həyata keçirilməsinə töhfə verib və parlamentlərarası əməkdaşlığın genişlənməsini dəstəkləyib. Müraciətdə oxuyuruq: "Bu il Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olmasından 35 il ötür. İƏT Azərbaycanın müstəqilliyinin bərpasından sonra qoşulduğu ilk beynəlxalq təşkilatlardandır. Qürurla qeyd edə bilərik ki, bu illər ərzində ölkəmiz islam həmrəyliyinin gücləndirilməsinə töhfə vermiş, İƏT-in fəaliyyətində təşəbbüskar və məsuliyyətli rol oynamış, məqsəd və prinsiplərinə sadiq qalmış, beynəlxalq müstəvidə nüfuzunun artırılmasında fəal iştirak etmişdir. Azərbaycan üzv dövlətlərlə ikitərəfli əsasda da möhkəm dostluq və qardaşlıq münasibətlərinə söykənən çoxşaxəli əməkdaşlıq əlaqələri qurmuşdur. Biz də, öz növbəmizdə, İƏT-in ardıcıl dəstəyini daim hiss etmişik".

Bakıda keçirilən "Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" mövzusuna həsr olıunmuş sessiya da Azərbaycanın artıq sadəcə iştirakçı deyil, təşkilatın gündəliyini formalaşdıran və dialoq platforması yaradan dövlətlərdən birinə çevrildiyini nümayiş etdirdi. Bu cür tədbirlər ölkəmizin beynəlxalq etimad qazandığını və mürəkkəb geosiyasi şəraitdə müxtəlif dövlətləri bir masa ətrafında toplamaq qabiliyyətini nümayiş etdirir.

## Haqq səsimizin beynəlxalq tribunası

Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında münasibətlərin ən mühüm xüsusiyyətlərindən biri təşkilatın ölkəmizin suverenliyi və ərazi bütövlüyünə uzun illər ardıcıl dəstək göstərməsi olub. Ermənistanın işğalçılıq siyasəti dövründə İƏT Azərbaycanın haqlı mövqeyini müdafiə edən ən prinsipial beynəlxalq təşkilatlardan biri kimi çıxış edib. Mötəbər qurumun qəbul etdiyi qətnamələrdə Ermənistanın təcavüzü qəti şəkildə pislənib, Azərbaycanın ərazi bütövlüyü dəstəklənib və üzv dövlətlər beynəlxalq hüququn norma və prinsiplərinə hörmət etməyə çağırılıb.

Xüsusi əhəmiyyət daşıyan məqamlardan biri də Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı yaradılmış İƏT Təmas Qrupunun uzun illər ərzində ölkəmizin mövqeyinin beynəlxalq aləmdə müdafiəsində oynadığı mühüm rol idi. Dövlətimizin başçısı müraciətində qardaş ölkələrin bu münasibətini yüksək qiymətləndirmişdir. Vətən müharibəsindəki tarixi qələbəmizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra da İƏT Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa və yenidənqurma işlərini alqışlayan sənədlər - qətnamələr və bəyanatlar qəbul etmiş və bölgədə sülhün təmin olunmasını dəstəkləmişdi.

Cənab İlham Əliyevin sessiya iştirakçılarına müraciətində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı dövründə bu torpaqlarda islam dini və mədəni irsinə qarşı həyata keçirilən vandalizm aktlarına xüsusi diqqət yönəldilmişdi. Ermənistan tərəfindən urbisid və kultursidə məruz qalmış şəhər və kəndlərimizdə bəşəri əhəmiyyətə malik məscidlər və çoxəsrlik islam memarlığı abidələri qəsdən yerlə yeksan edilmiş və talan olunmuşdur. İşğal altında qalmış ərazilərdə mövcud olmuş 67 məsciddən 65-nin dağıdılması təkcə Azərbaycana deyil, bütövlükdə İslam mədəniyyətinə qarşı törədilmiş cinayət olduğu bildirilmişdir. Bununla yanaşı, türbələr, qəbiristanlıqlar, dini və tarixi abidələr sistemli şəkildə məhv edilmiş və təhqir olunmuşdur.

Bu gün isə Azərbaycan dövləti həmin ərazilərdə ardıcıl olaraq genişmiqyaslı bərpa-quruculuq proqramı həyata keçirir. Məscidlərin, dini abidələrin, tarixi memarlıq nümunələrinin yenidən qurulması milli irsin həyata qaytarılaraq qorunması ilə yanaşı, həm də islam sivilizasiyasına hörmətin real təzahürüdür.

## Qərblə Şərq arasında körpü

Dövlətimizin başçısının müraciətində diqqətçəkən ən mühüm məqamlardan biri də islamofobiya ilə mübarizə məsələsi idi. Məlumdur ki, son illər dünyanın müxtəlif ölkələrində müsəlmanlara qarşı ayrı-seçkiliyin artması, müqəddəs dini dəyərlərin təhqir olunması, "Qurani-Kərim"in yandırılması kimi təxribatlar ciddi narahatlıq doğurur. Bu halları "ifadə azadlığı" adı altında ört-basdır etmək cəhdlərini Azərbaycan qəti rədd edir və islamofobiyanı qlobal təhlükəsizlik üçün ciddi risk sayır. Azərbaycan dövləti hesab edir ki, dinə qarşı nifrətin təşviqi heç bir halda demokratik dəyər kimi təqdim oluna bilməz. Bu baxımdan Azərbaycan beynəlxalq təşkilatlarda islamofobiyanın ayrı-seçkiliyin xüsusi forması kimi tanınması istiqamətində ardıcıl fəaliyyət aparmaqdadır. Eyni zamanda ölkəmiz bəzi Qərb siyasi dairələrinin, o cümlədən Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasında müşahidə olunan islamı ekstremizm və terrorizmlə eyniləşdirməyə yönəlmiş qərəzli yanaşmaları da qəbuledilməz sayır. Müraciətdə deyilir: "Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan və dünyada milyardlarla insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan islam dəyərlərinin qorunmasına Azərbaycanda həmişə böyük önəm verilmişdir. Biz islamın həmrəylik və qarşılıqlı hörmət prinsiplərinin təbliği istiqamətində müxtəlif təşəbbüslərlə çıxış edir, mütəmadi olaraq İƏT və onun qurumlarının tədbirlərinə evsahibliyi edirik. İslam sivilizasiyasının zəngin mədəni-mənəvi irsini təcəssüm etdirən Bakı, Naxçıvan və Şuşa şəhərləri müxtəlif illərdə islam dünyasının mədəniyyət paytaxtı adına layiq görülmüşdür".

Azərbaycanın İƏT daxilində artan nüfuzu yalnız siyasi mövqeyi ilə izah olunmur. Ölkəmiz uzun illərdir ki, müxtəlif dinlər və mədəniyyətlər arasında dialoqun təşviqində mühüm rol oynayır. Bakıda keçirilən beynəlxalq forumlar, dinlərarası dialoq tədbirləri, mədəniyyətlərarası əməkdaşlıq platformaları Azərbaycanın həm islam dünyasında, həm də Qərblə Şərq arasında etibarlı körpü funksiyasını gücləndirib. Azərbaycan multikulturalizm modelini daxili siyasətin ayrılmaz hissəsi olmaqla yanaşı, beynəlxalq münasibətlərdə də uğurlu nümunə kimi təqdim edir. Bu səbəbdən İƏT çərçivəsində keçirilən tədbirlərin Bakıda təşkil olunması təsadüfi deyil. Bu, Azərbaycanın həm siyasi sabitliyinə, həm təşkilatçılıq imkanlarına, həm də beynəlxalq etimada verilən qiymətdir.

## Yeni mərhələnin başlanğıcı

Prezident İlham Əliyevin müraciətində xüsusi qeyd olunan məsələlərdən biri də gələn il ölkəmizdə İslam Zirvə Konfransının 16-cı Sessiyasının keçirilməsi və Azərbaycanın 2027-ci ildə İslam Əməkdaşlıq Təşkilatına sədrlik etməsi ilə bağlıdır. Bu sədrlik Azərbaycan üçün mühüm diplomatik status olmaqla bərabər, həm də böyük məsuliyyətdir.

Rəsmi Bakı bu dövrdə islam həmrəyliyinin daha da möhkəmləndirilməsi, üzv dövlətlər arasında siyasi, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, dayanıqlı inkişaf məqsədlərinin təşviqi istiqamətində daha ciddi fəaliyyət göstərməyi qarşısına məqsəd qoyur. Bu perspektiv Azərbaycanın İslam dünyasının gələcək inkişaf gündəliyinin formalaşdırılmasında iştirak edən aparıcı dövlətlərdən biri olduğunu göstərir. Keçirilən sessiyanın "Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" mövzusuna həsr olunması Parlament İttifaqının üzv ölkələrinin tərəqqisi üçün ortaq çağırışlara birgə həll yolları tapmaq əzmini nümayiş etdirir.

Mötəbər tədbirdə qəbul edilmiş Bakı Bəyannaməsində İƏT Parlament İttifaqının Nizamnaməsində təsbit olunmuş məqsədlərə sadiqlik, həmçinin İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nizamnaməsi, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və beynəlxalq hüququn məqsəd və prinsiplərinə hörmət etmək öhdəliyi bir daha təsdiqləndi. Eyni zamanda dövlətlərimizin qarşılaşdığı çoxsaylı mürəkkəb çağırışları və dəyişən təhlükələri, o cümlədən kiberhücumları, terrorizmi və islamofobiyanın artan təzahürlərini nəzərə alaraq, bu təhdidlərin beynəlxalq sülhə və təhlükəsizliyə, həmçinin dünya üzrə müsəlman icmalarının dinc yanaşı yaşamasına və sosial həmrəyliyinə mənfi təsirindən dərin narahatlıq ifadə edildi.

Bakıda keçirilən İƏT Parlament İttifaqının 20-ci Sessiyası Azərbaycanın islam dünyasındakı artan nüfuzunun, etibarlı tərəfdaş imicinin və prinsipial xarici siyasət kursunun növbəti təsdiqi oldu. Bu tədbir bir daha nümayiş etdirdi ki, ölkəmiz yalnız öz milli maraqlarını müdafiə edən dövlət deyil, həm də islam aləmində həmrəyliyin, dialoqun və qarşılıqlı etimadın möhkəmləndirilməsinə real töhfə verən məsuliyyətli iştirakçıdır.

Azərbaycanın İƏT ilə əməkdaşlığı artıq təkcə siyasi dəstək müstəvisini aşaraq mədəni, iqtisadi, humanitar və parlament diplomatiyası sahələrini də əhatə edən çoxşaxəli strateji tərəfdaşlığa çevrilib. 2027-ci ildə təşkilata sədrliyin başlanması isə bu münasibətlərin yeni mərhələyə qədəm qoyacağını göstərir. Bu mərhələdə Azərbaycanın əsas missiyası islam həmrəyliyini daha da gücləndirmək, üzv dövlətlər arasında əməkdaşlığı dərinləşdirmək və qlobal çağırışlar fonunda islam dünyasının vahid mövqeyinin formalaşmasına töhfə vermək olacaq. Bu isə Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına və ölkənin qlobal diplomatiyada rolunun möhkəmlənməsinə xidmət edəcək.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Azərbaycan Korsika məsələsinin beynəlxalq gündəmdə yer almasına mühüm töhfə verdi"

Xəbər verildiyi kimi, Fransa Milli Assambleyasında Korsikanın Fransa Respublikası daxilində xüsusi muxtariyyət hüququ əldə etməsini nəzərdə tutan Konstitusiya qanunu layihəsi qəbul olunub. Layihə adanın tarixi, mədəni, sosial və coğrafi xüsusiyyətləri nəzərə alınmaqla, Korsikaya daha geniş özünüidarəetmə səlahiyyətlərinin verilməsini nəzərdə tutur.

Sağçı Respublikaçılar partiyası bu muxtariyyət hüququ ideyasına tamamilə qarşı çıxaraq ölkənin vahidliyinin qorunmasını tələb edir. Solçu liberal partiyalar isə Korsika nümayəndələrinin özünüidarəetmənin həyata keçirilməsini dəstəkləyirlər. Məlum sənədlə bağlı Azərbaycan Respublikasının Milli Məclisi də bəyanat yayıb.

**Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İSMAYILOV** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan daim ən yüksək beynəlxalq platformalardan müasir dünyamızda kolonializmin davam etməsindən dərin narahatlığını ifadə edib. O qeyd edib ki, Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean və Latın Amerikasında bir sıra xalqlar bu gün də əsarət altında yaşayırlar: "Yaxşı haldır ki, artıq uzun illər müstəmləkə şəraitində yaşayan xalqlar öz hüquq və azadlıqlarını təmin etmək yolunda mühüm tarixi nailiyyətlər əldə edirlər. Bu xüsusda Fransa Milli Assambleyasında Korsikanın Fransa Respublikası daxilində xüsusi muxtariyyət statusunun təsbit edilməsini nəzərdə tutan konstitusiya qanunu layihəsinin qəbul edilməsini qeyd etmək olar. Azərbaycan Respublikasının Milli Məclisinin bu əlamətdar hadisə ilə bağlı bəyanatında da qeyd olunduğu kimi, bu hadisə Korsika xalqının uzun illər ərzində apardığı dinc, demokratik və ardıcıl mübarizənin mühüm siyasi nəticəsi kimi qiymətləndirilir. Bu qərar onu göstərir ki, xalqların qanuni və legitim tələblərinin siyasi müstəvidə həlli mümkündür".



Deputat Milli Məclisdə Korsika xalqına dəstək qrupunun fəaliyyət göstərdiyini xatırladaraq bildirib ki, müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparmaq məqsədilə Bakı Təşəbbüs Qrupu yaradılıb, bir sıra beynəlxalq tədbirlər təşkil olunub və bütün bunlar Azərbaycanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqlara, o cümlədən Korsika xalqına dəstəyinin bariz nümunəsidir.

Ş.İsmayılov hesab edir ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan bu fəaliyyətlər Korsika xalqının hüquq və azadlıqları ilə bağlı məsələlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında müstəsna rol oynayıb: "Azərbaycan Korsika məsələsinin beynəlxalq gündəmdə yer almasına mühüm töhfə verdi. Böyük qürurla qeyd etmək istərdik ki, Azərbaycanın kolonializmə qarşı mübarizə sahəsində səyləri beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və dəstəklənir. Təbii ki, bu, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzunun, ölkəmizin qlobal müstəvidə oynadığı fəal rolun əyani təzahürüdür".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Avropa İttifaqı Azərbaycanın regiondakı strateji rolunu qəbul edir

Dünyada baş verən mürəkkəb proseslər və köklü dəyişikliklər fonunda sabitlik məkanı olan Azərbaycanın beynəlxalq nüfuzu və regional çəkisi getdikcə möhkəmlənir. Ölkəmizin Avropa və Asiyanın quru və hava nəqliyyatı yollarının qovşağında yerləşən əlverişli tranzit mövqeyi, habelə zəngin karbohidrogen resursları rəsmi Bakını qlobal güclər, xüsusilə Avropa İttifaqı (Aİ) üçün vacib tərəfdaşa çevirir. Tərəflər arasında qurulan qarşılıqlı etimad mühiti rəsmi təmasların intensivləşməsində özünü qabarıq büruzə verir.



Bu dinamikanın davamı olaraq, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin bu gün Azərbaycana səfər edir. Bu barədə Avropa Komissiyasının nümayəndəsi Paula Pinyu Brüsseldə brifinqdə deyib. Onun sözlərinə görə, səfərdə məqsəd Avropanın dəstəyini ifadə etməkdir. Qeyd olunub ki, Avropa Komissiyasının rəhbərinin səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin cari vəziyyətinin, enerji əməkdaşlığının, eləcə də regional proseslərin müzakirə olunacağı gözlənilir. Səfərdə Ursula fon der Lyayeni Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosun müşayiət edəcəyi deyilir.

Məlumat üçün bildirək ki, bu, Avropa Komissiyası Prezidentinin 2022-ci ilin iyulundan bəri Azərbaycana ilk səfəri olacaq. Xatırladaq ki, Lyayenin Azərbaycana əvvəlki səfərinin yekunları üzrə enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanıb. Bu da Azərbaycan qazının Aİ-yə tədarükünün artırılması üçün zəmin yaradıb.

Son aylarda Azərbaycan və Avropa İttifaqı rəsmilərinin qarşılıqlı səfərləri, həmçinin təhlükəsizlik, enerji və nəqliyyat sahələrində səmərəli dialoqları ikitərəfli əlaqələrin dərinləşməsinə önəmli töhfələr verib, tərəfdaşlığın keyfiyyətcə yeni mərhələyə daşınması üçün əlverişli zəmin yaradıb. Hazırda tərəflər arasında əlaqələr strateji müstəvidə irəliləyir. Xüsusilə 2025-ci ilin may və oktyabr aylarında Aİ-nin Tirana və Kopenhagendə keçirilmiş "Avropa Siyasi Birliyi"nin (ASB) Zirvə görüşlərində ölkəmizin yüksək səviyyədə təmsil olunması, dövlətimizin başçısı İlham Əliyevin həmin toplantılar çərçivəsində görüşləri əməkdaşlığa əlavə stimul verib. Azərbaycanla əməkdaşlığa verilən önəmin göstəricisidir ki, ötən ilin oktyabrında ASB-nin Kopenhagendə baş tutmuş 7-ci sammitində qurumun 12-ci Zirvə toplantısının 2028-ci ildə Azərbaycanda keçirilməsi qərara alınıb. Bakının belə bir mötəbər tədbirə evsahibliyi rəsmi Bakı ilə Brüssel arasında yaxınlaşmanın göstəricisidir.

İkitərəfli təmasların coğrafiyası və intensivliyi bununla məhdudlaşmır. 2026-cı ilin mart ayında Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın və may ayında Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfərləri rəsmi Bakının Brüsselin xarici siyasət gündəmində nə dərəcədə prioritet yer tutduğunun sübutudur. Avropanın yüksəkrütbəli rəsmilərinin Prezident İlham Əliyevlə birbaşa və intensiv dialoqu göstərir ki, Aİ Cənubi Qafqaz regionu ilə əməkdaşlığının məhz Azərbaycanla qurulan konstruktiv münasibətlərdən asılı olduğunu qəbul edir. Bu səfərlər tərəflər arasında qarşılıqlı etimadın və ortaq maraqların yeni mərhələyə qədəm qoyduğunu bir daha təsdiqləyir.

Son aylar Litva Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin, Çexiya Baş naziri Andrey Babişin və İtaliya Baş naziri Ciorcia Meloninin Azərbaycana ardıcıl səfərləri də rəsmi Bakının beynəlxalq nüfuzunun və mövqeyinin miqyasını nümayiş etdirir. Bu görüşlərdə əsas diqqət enerji tərəfdaşlığı ilə yanaşı, regional təhlükəsizlik və sülh gündəliyinə yönəldilib, xüsusilə enerji idxalı və nəqliyyat dəhlizləri mövzusunda mühüm razılaşmalar əldə edilib. Avropa liderlərinin Bakıda verdikləri bəyanatlar da Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstəyin yüksək səviyyədə davam etdiyinin təzahürüdür.

Bu dəstəyin və marağın formalaşmasında iqtisadi amillər, xüsusən enerji faktoru həlledici rol oynayır. Azərbaycan zəngin karbohidrogen ehtiyatları və reallaşdırdığı irimiqyaslı layihələr sayəsində Avropa İttifaqının enerji təhlükəsizliyində strateji tərəfdaş rolunu oynayır. "Cənub qaz dəhlizi" vasitəsilə Xəzər qazının birbaşa Avropa bazarlarına çatdırılması qitənin resurs mənbələrini şaxələndirib. Hazırda Aİ-nin 10 üzvü Azərbaycanın mavi yanacağını idxal edir, ümumilikdə isə tədarük coğrafiyamız artıq 16 ölkəni əhatələyir. Eyni zamanda birliyin 27 üzvündən 10-u ilə strateji tərəfdaşlıq sənədləri imzalanıb. Bu da o deməkdir ki, Avropanın üçdəbiri ölkəmizi mühüm perspektivli tərəfdaş kimi görür.

Digər tərəfdən Bakının regiondakı çəkisi xüsusilə Orta dəhliz və Xəzər hövzəsinin artan əhəmiyyəti fonunda daha da möhkəmlənir. Azərbaycan Aİ-nin Mərkəzi Asiya və Çinə çıxışını təmin edən əsas mərkəz rolunu oynayır. Şərqdən Qərbə doğru uzanan ən etibarlı və təhlükəsiz tranzit yolu məhz Cənubi Qafqazdan keçir. Digər regionlardakı münaqişələr və qeyri-sabitlik fonunda ölkəmizin təqdim etdiyi marşrut yeganə dayanıqlı və təhlükəsiz alternativə çevrilib. Orta dəhlizin mərkəzi ünvanı olan Azərbaycanla tərəfdaşlıq Brüsselə regional bağlantı layihələrində üstünlük qazandırır.

Avropa İttifaqı Xəzər dənizi ilə Avropanı birləşdirəcək "yaşıl enerji" dəhlizi üzrə əməkdaşlığın dərinləşdirilməsinə də böyük maraq göstərir. Brüssel həmin reallığı gördüyü üçün Bakının bu sahədəki strateji çəkisini də yüksək qiymətləndirir. Azərbaycanın logistik mərkəz kimi əhəmiyyəti qlobal səviyyədə təsdiqlənmiş faktdır. Bu gün aydın görünür ki, rəsmi Bakının iştirakı olmadan Avrasiyada əsas iqtisadi arteriyaların işləkliyini təmin etmək mümkün deyil. Məhz buna görə Aİ rəhbərliyi ölkəmizlə münasibətləri dərinləşdirməyə xüsusi maraq göstərir.

Münasibətlərin gələcək inkişafı üçün tərəflər rəqəmsal transformasiya, innovasiya və süni intellekt kimi yeni texnologiyalar sahəsində əməkdaşlığın genişləndirilməsinə də xüsusi diqqət yetirirlər. Xüsusilə Xəzər dənizindən Qara dənizin dibi ilə Avropaya çəkiləcək elektrik kabeli layihəsi (Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan) Bakını Avropanın elektrik enerjisi bazarına birbaşa bağlayacaq.

Bununla belə tərəfdaşlıq fonunda fərqli yanaşmalar da mövcuddur. Avropa Komissiyası Azərbaycana münasibətdə Aİ-nin digər strukturlarından fərqlənir. Prezident İlham Əliyev Avropa İttifaqının və Avropanın həmin digər strukturlarının Azərbaycana yönəlik ziddiyyətli yanaşmalarına "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxışı zamanı diqqət çəkmişdir: "Mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm. Lakin əfsuslar olsun ki, heç də bütün Avropa təsisatları eyni yanaşmanı sərgiləmir. Onlardan biri Avropa Parlamenti, digəri isə Avropa Şurası Parlament Assambleyasıdır".

Həqiqətən, Azərbaycanın Avropa Komissiyası və Avropa İttifaqı Şurası ilə əlaqələri dinamik inkişaf edir. Tərəflər arasında enerji, nəqliyyat və təhlükəsizlik sahələrində real nəticələrə əsaslanan işbirliyi var. Bunun əksinə, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana qarşı qeyri-konstruktiv, qərəzli və ikili standartlara əsaslanan mövqeyi ortadadır. Regionda yaranan yeni sülh reallıqlarına baxmayaraq, bu strukturların qeyri-obyektiv qətnamələri ədalətsiz yanaşma kimi qiymətləndirilir. Lakin mövcud geosiyasi və geoiqtisadi şərtlər Bakı ilə əməkdaşlığın əhəmiyyətini ön plana çıxarır.

Mövcud dinamika da onu deməyə əsas verir ki, gələcəkdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı daha institusional və strateji xarakter alacaq. Tərəflər arasındakı real maraqlar və irimiqyaslı qlobal layihələr bu tərəfdaşlığın gələcək perspektivlərini şərtləndirən əsas amil kimi qalmaqdadır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Bakıda "İtkin düşmüş şəxslər məsələsinin həllində müasir yanaşmalar və əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib



İyunun 30-da Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya (ICMP) ilə əməkdaşlıq çərçivəsində "İtkin düşmüş şəxslər məsələsinin həllində müasir yanaşmalar və əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransa Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri Qəzənfər Əhmədov moderatorluq edib.

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini, general-leytenant Şərafət Həsənov İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya (ICMP) ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası arasında təmasların İkinci Qarabağ müharibəsindən əvvəlki illərə təsadüf etdiyini, sonradan bu təmasların inkişaf etdirilərək əməkdaşlıq mərhələsinə çatdırıldığını bildirib. Qeyd edib ki, 2022-ci ilin aprelində Katrin Bombergerin rəhbərliyi ilə qurumun nümayəndə heyətinin Azərbaycana səfəri zamanı aparılmış müzakirələrin yekunu olaraq Dövlət Komissiyası və ICMP arasında itkin düşmüş şəxslərə aid məzar yerlərinin ekshumasiyası və meyit qalıqlarının eyniləşdirilməsi sahəsində əməkdaşlığa dair protokol imzalanıb. Həmin vaxtdan bəri əməkdaşlıq intensiv xarakter alıb. "Azərbaycanın aidiyyəti dövlət qurumlarının razılığı ilə 2023-cü ilin iyun ayında ICMP-nin Qiymətləndirmə missiyası Azərbaycana səfər edib və müvafiq hesabat hazırlayıb. Bu hesabat 2025-ci ilin mart ayında Bakı şəhərində təşkil olunmuş konfrans çərçivəsində Dövlət Komissiyasına təqdim edilib. Həmin tədbirdə də nümayəndə heyətinə ICMP-nin baş direktoru Katrin Bomberger rəhbərlik edib. Aparılmış müzakirələr və keçirilmiş görüşlər zamanı ICMP-nin nümayəndə heyəti tərəfindən qurumun axtarış, qazıntı, ekshumasiya və eyniləşdirmə sahəsindəki imkanları və uğurları, maddi-texniki bazası, kadr potensialı və işlədiyi yeni elmi metodikalar barədə ətraflı məlumat verilib, qurum tərəfindən hazırlanmış elektron məlumat bazasının Azərbaycana təqdim edilməsi və aidiyyəti dövlət qurumlarının mütəxəssislərinə müxtəlif istiqamətlər üzrə, o cümlədən məlumat bazasının idarə edilməsi müvafiq rəy və protokolların beynəlxalq standartlara uyğun tərtibi sahəsində təlimlərin keçirilməsinə hazır olduqları bildirilib. Respublikamıza səfərin, keçirilmiş görüşlərin və aparılmış müzakirələrin nəticəsi olaraq ICMP-nin itkin düşmüş şəxslər probleminin həllində, yeni texnologiyaların və metodologiyaların tətbiqi sahəsində ölkəmizə dəstək verəcəyi və əməkdaşlığın davam etdirilməsi razılaşdırılaraq 2025-ci il üzrə "İş planı təklifi" hazırlanıb və icra edilib", - deyə Ş.Həsənov diqqətə çatdırıb.

Sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinə dair təqdimat edilib.

Daha sonra çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev son illərdə həyata keçirilən tədbirlər, xüsusən də itkin-şəhidlərin şəxsiyyətinin eyniləşdirilərək dəfn mərasimlərinin təşkilinin bütün Azərbaycan vətəndaşlarında, o cümlədən itkin ailələrində böyük ümid hissi yaratdığını vurğulayıb. Onun sözlərinə görə, bu işlər məsuliyyət hissi və vicdanlı yanaşma ilə bərabər, ciddi maliyyə, maddi-texniki baza, müasir texnoloji vasitələrin və dəqiq səlahiyyət bölgüsünün tətbiqini tələb edir. Bildirilib ki, mina və partlamamış sursatlarla həddindən artıq çirklənmiş, mürəkkəb və sərt relyefli ərazilərdə, ağır hava şəraitində axtarış-qazıntı işləri aparan, həmçinin insan qalıqları ilə birbaşa təmasda olan komanda üzvlərinin əməyinin qiymətləndirilməsi, xüsusilə də onların sağlamlıqlarının qorunması vacib əhəmiyyət daşıyır.

Xarici işlər nazirinin müavini, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü Elnur Məmmədov çıxışında silahlı münaqişələr zamanı insanların itkin düşməsini yalnız ayrı-ayrı ailələrin deyil, bütövlükdə cəmiyyətlərin yaddaşında dərin iz buraxan faciə olduğunu vurğulayıb. Deyib ki, BMT Baş katibinin 2025-ci ilin mayında təqdim etdiyi "Silahlı münaqişələrdə mülki şəxslərin müdafiəsi" hesabatında dünyada çoxsaylı münaqişələrdə müşahidə edilən böyük insan tələfatının əsas səbəblərindən biri kimi beynəlxalq humanitar hüquqa hörmətin olmaması göstərilib. Bu reallıq bir daha təsdiq edir ki, itkin düşmüş şəxslər məsələsi yalnız milli gündəmin deyil, qlobal humanitar gündəmin də prioritet mövzularından biridir.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc çıxışında Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan hərbi əməliyyatlarda hər bir zabitin və əsgərin taleyinin real vaxt rejimində izlənildiyini, nizami ordu birləşmələrinin dəqiq plan üzrə hərəkət etdiyini, kəşfiyyat məlumatlarının gizli kanallarla əməliyyat qərargahlarına ötürüldüyünü və müasir raket-artilleriya sistemlərindən, pilotsuz uçuş aparatlarından istifadə olunmasının məsafəli döyüşləri mümkün etdiyini xatırladıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin (HTBİ) rəisi, tibb xidməti general-mayoru Rüfət Əliyev çıxışında Ermənistanla Azərbaycan arasındakı münaqişədən uzun müddət keçdiyini və aşkarlanmış məzarlıqlardan götürülmüş sümük nümunələrinin xüsusilə ətraf mühit amilləri nəticəsində ciddi şəkildə deqradasiyaya məruz qaldığını qeyd edib. Bildirib ki, DNT-nin fraqmentasiyası və kimyəvi zədələnmələr genetik profillərin əldə olunmasına ciddi maneələr yaradır. Onun sözlərinə görə, mütəxəssislər tərəfindən gücləndirilmiş protokolların və digər metodların tətbiq edilməsi sayəsində məhkəmə-tibbi ekspertiza mərhələsində çətin genetik tapşırıqları yerinə yetirmək mümkün olub. Qeyd edib ki, hazırda Genetik Araşdırmalar Mərkəzində (CLİMS) kompleks iş və idarəetmə proqramından istifadə olunur. Proqram bioloji materialların qəbulundan yekun rəyin verilənədək olan iş prosesini beynəlxalq ISO 17025 standartlarına uyğun idarə edən, mürəkkəb DNT profillərini analiz edərək DNT Məlumat Bankı ilə inteqrasiya rejimində və yüksək kibertəhlükəsizlik arxitekturasında rəqəmsallaşdıran kompleks proqram təminatıdır.

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) baş direktoru Katrin Bomberger çıxışında təşkilat tərəfindən Azərbaycana göstərilən dəstəkdən danışıb. Bildirib ki, bununla bağlı ilk məsələ əməkdaşlıq, ikincisi isə itkin düşmüş şəxslər məsələsinin həlli üçün müasir mexanizmlərin inkişaf etdirilməsidir.

"Əməkdaşlıq məsələsinə gəldikdə, ilk növbədə, dövlət daxilində əməkdaşlığın olması son dərəcə vacibdir. Azərbaycan nümunəsində görürük ki, bu məsələ ilə məşğul olmaq üçün itkin düşmüş şəxslər üzrə Dövlət Komissiyası yaradılıb və burada bu istiqamətdə fəaliyyət göstərən çoxsaylı dövlət qurumları, nazirliklər təmsil olunur. Fikrimizcə, belə bir institutun mövcudluğu son dərəcə əhəmiyyətlidir və dövlətlərin itkin düşmüş şəxslər məsələsinə necə yanaşmalı olduqlarının mühüm göstəricisidir. Çünki bu məsələ çoxşaxəli xarakter daşıyır və müxtəlif qurumlar arasında sıx əməkdaşlıq tələb edir. Bu baxımdan belə bir əməkdaşlığın mövcudluğunu görmək sevindiricidir", - deyə K.Bomberger əlavə edib.

Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru, professor Ədalət Həsənov çıxışında Birinci Qarabağ müharibəsi ilə əlaqədar indiyə qədər Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində ümumilikdə 934 şəxsə məxsus sümük qalıqları qəbul edildiyini, 327 şəxsin qalıqlarının eyniləşdirildiyini, 226 şəhidin meyitinin ailələrinə təhvil verildiyini deyib. Ədalət Həsənov, eyni zamanda diqqətə çatdırıb ki, bu il iyulun 1-də 3, 3-də isə digər 3 şəhidin qalıqları ailələrinə təhvil veriləcək.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev çıxışında fiziki antropologiyanın çox vacib sahə olduğunu qeyd edib. O, Dövlət Komissiyanın xətti ilə çalışmağın gənclərimizin müəyyən biliklərə yiyələnmələrinə şərait yaratdığını bildirərək deyib: "Ölkəmizdə Genetik Araşdırmalar Mərkəzinin çox möhtəşəm laboratoriyası fəaliyyət göstərir. Amma bizim institut da, eyni zamanda fiziki antropologiya sahəsində yeni laboratoriya yaratmağı planlaşdırır. Bu, insan qalıqlarının ilkin mərhələdə, qazıntı sahəsində aşkar olunan dövrdə həmin mühitdə araşdırılması sahəsidir".

Milli Məclisin deputatı Rizvan Nəbiyev çıxışında uzun illər ərzində Azərbaycanın vətəndaş cəmiyyəti, insan hüquqları müdafiəçiləri, mina qurbanları, etnik təmizləmədən sağ çıxmış şəxslər və itkin düşmüş insanların ailələri beynəlxalq ictimaiyyətə sülhsevər və hüquqi əsaslara söykənən çağırışlarla müraciət etdiklərini qeyd edib. Bildirib ki, "Qarabağ İtkin Ailələri" İctimai Birliyi Ermənistanı itkin düşmüş şəxslərin axtarışını asanlaşdırmaq məqsədilə kütləvi məzarlıqların yerləşdiyi əraziləri göstərən xəritələri Azərbaycana təqdim etməyə çağırıb. Bu baxımdan Beynəlxalq İtkin Şəxslər üzrə Komissiya (ICMP) ilə əməkdaşlıq və onun dəyərli təcrübə və ekspertizasından faydalanmaq xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Onun sözlərinə görə, 2025-ci ilin avqust ayında "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin nümayəndələri Cenevrədə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) Məcburi İtkin Düşmələr üzrə Komitəsinin (CED) Katibliyi ilə görüş keçiriblər. Görüş zamanı Azərbaycan nümayəndələri ölkəmizə qarşı müharibə cinayətləri törətməkdə ittiham olunan şəxslərdən heç birinin Ermənistanda məsuliyyətə cəlb olunmamasından narahatlıqlarını ifadə ediblər.

"Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri Könül Behbudova çıxışında bir çox ölkədə itkin düşmüş şəxslərin axtarışı, itkindüşmə hallarının qarşısının alınması və bu sahədə beynəlxalq iddiaların qaldırılması işinin itkin ailələrinin təsis etdiyi ictimai birliklər tərəfindən aparılması təcrübəsinin geniş yayıldığını bildirib. Qeyd edib ki, nüfuzlu beynəlxalq təsisatlar, o cümlədən BMT-nin müvafiq təsisatları da bu tipli qeyri-hökumət təşkilatları ilə daimi məsləhətləşmələr aparır, beynəlxalq sülh və təhlükəsizlik məsələlərinin humanitar, sosial və ictimai aspektləri ilə bağlı onların rəyinə önəm verir.

Sonda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi, İşçi qrupun rəhbəri Qəzənfər Əhmədov beynəlxalq konfransda bağlanış nitqi ilə çıxış edərək deyib: "Dövlət Komissiyası müasir texnoloji həllərin tətbiqinə xüsusi diqqət yetirir və bu sahəyə davamlı investisiyalar ayırır. Texnologiyaların digər mühüm üstünlüyü onların xəritələşdirmə imkanlarıdır. Bir gün ərzində onlar 45 kvadratkilometrdən artıq ərazinin ətraflı xəritəsini hazırlaya bilirlər. Bu, praktik baxımdan Ağdam kimi geniş ərazinin 1 və ya 1 neçə ay ərzində sistemli şəkildə tədqiq olunması deməkdir. İnanırıq ki, bu müasir texnologiya gələcək humanitar axtarış əməliyyatlarının ayrılmaz tərkib hissəsinə çevriləcək. Bu texnologiya mütəxəssislərimizin təcrübə və peşəkarlığını tamamlayacaq, itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində daha səmərəli nəticələr əldə etməyimizə kömək edəcək".



# Ankarada Azərbaycanın dayanıqlı kənd təsərrüfatı imkanları təqdim edilib

İslam Ticarət və İnkişaf Palatasının (ICCD) İdarə Heyətinin yeni fəaliyyət dövrünün ilk iclası (40-cı iclas) Türkiyənin paytaxtı Ankara şəhərində keçirilib. İclasda Azərbaycan sahibkarları ölkəmizi təmsil ediblər. Palatanın İdarə Heyətinin və Direktorlar Şurasının üzvü olan Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev tədbirdə ölkəmizin dayanıqlı kənd təsərrüfatı, bu sektorda formalaşmış dəyər zənciri, ixrac potensialı haqqında çıxış edib.

İclasın gündəliyində duran əsas məsələlər sırasına daxili seçkilərin tamamlanması (vitse-prezidentlərin, icra və maliyyə komitələri üzvlərinin seçilməsi), halal strategiyası (2026-2030) üzrə işlərin gedişatı və regional iqtisadi əməkdaşlıq layihələri daxildir. Həmçinin Palatanın yaradılmasının 50 illiyinə həsr olunacaq "Qızıl Yubiley-2027" tədbirlərinin planlaşdırılması və gələcək fəaliyyət istiqamətləri də İdarə Heyətinin diqqət mərkəzində olub. İslam dünyasının iqtisadi inkişafı, ticarət inteqrasiyası və özəl sektorun gücləndirilməsi naminə birgə addımların atılması istiqamətində təkliflər müzakirə edilib.

İslam Ticarət və İnkişaf Palatasının İdarə Heyətinin üzvləri tədbir çərçivəsində Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz ilə görüşüblər. Görüşdə islam ölkələrinin iqtisadi əməkdaşlığı, investisiya imkanları, biznes perspektivləri müzakirə olunub.

Tədbir çərçivəsində "Qlobal Halal Bazarında Dayanıqlı Kənd Təsərrüfatı Biznes İmkanı" mövzusunda "dəyirmi masa" keçirilib. Azərbaycan Sahibkarlar Konfederasiyasının baş katibi Ziya Hacılının moderatorluğu ilə təşkil olunan tədbirdə İslam Ticarət və İnkişaf Palatasına (ICCD) üzv ölkələrin biznes təşkilatlarının rəhbərləri, sahibkarlar, aqrar sektor nümayəndələri, beynəlxalq ekspertlər və investorlar iştirak ediblər.

Halal iqtisadiyyatda dayanıqlı kənd təsərrüfatının rolunun, əlavə dəyər yaradan aqrar istehsalın inkişaf perspektivlərinin, üzv ölkələr arasında investisiya və ticarət əməkdaşlığının genişləndirilməsi imkanlarının müzakirə edildiyi tədbirdə açılış nitqləri ilə Palatanın baş katibi Yusif Həsən Xələvi və Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış ediblər. M.Musayev bildirib ki, son illər ölkəmizdə kənd təsərrüfatının inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu istiqamətdə həyata keçirilən islahatlar, subsidiyalar, suvarma sistemlərinin modernləşdirilməsi və aqrar innovasiyaların tətbiqi sektorun dayanıqlı inkişafını təmin edir. Onun sözlərinə görə, xüsusilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən kənd təsərrüfatının inkişafına dair keçirilmiş son müşavirə və qəbul edilən strateji qərarlar bu sahəyə yeni impuls vermişdir. Bu yanaşma aqrar sektorun yalnız daxili bazar üçün deyil, həm də ixracyönümlü güclü iqtisadi sahəyə çevrilməsini hədəfləyir.

Ziya Hacılının moderatorluğu ilə keçirilən "dəyirmi masa"da halal və dayanıqlıq iddialarında istehlakçı etimadını gücləndirmək üçün rəqəmsal izləmə alətlərindən istifadə, aqrotexnologiya və emal investisiyalarını dəstəkləmək üçün "Salam" və "İstisna" kimi şəriətə uyğun maliyyə alətlərinin tətbiq edilməsi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən ilk pilot layihələr qrupunun müəyyənləşdirilməsi və onların Bakıda keçiriləcək Dayanıqlı Kənd Təsərrüfatı Forumunda təqdim olunması kimi məsələlər müzakirə edilib. Müzakirələrdə həmçinin kənd təsərrüfatının halal dəyər zəncirinin əsas elementi kimi rolu, "fermadan süfrəyə" yanaşmasının genişləndirilməsi, torpaq və su resurslarının səmərəli idarə olunması, qida təhlükəsizliyinin gücləndirilməsi və İƏT ölkələrinin qlobal halal bazarda rəqabət qabiliyyətinin artırılması məsələləri ön plana çıxarılıb.

Sessiyanın əsas hissələrindən biri İslam Əməkdaşlıq Təşkilatı ölkələrində aqrosənaye əməkdaşlığının inkişafına həsr olunub. Bu çərçivədə kiçik fermer təsərrüfatlarının müqaviləli kənd təsərrüfatı modellərinə inteqrasiyası, aqrar emal sənayesinin inkişafı, soyuq zəncir logistikasının genişləndirilməsi və üzv dövlətlər arasında ticarət əlaqələrinin dərinləşdirilməsi istiqamətində təkliflər səsləndirilib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Beynəlxalq əlaqələr və dayanıqlı inkişaf şöbəsinin müdiri Aytac Talıblının aparıcılığı ilə keçən Palatanın tədbirləri arasında "İnnovasiya və sahibkarlıq: Gənc və qadın sahibkarlar" mövzusunda panel də maraqla qarşılanıb. Konfederasiyanın Rəyasət Heyətinin üzvü Səkinə Babayevanın spikerlik etdiyi paneldə bu sahədə ölkəmizin təcrübəsi qeyd edilib və əməkdaşlıq perspektivləri müzakirə olunub.

*"Azərbaycan"*

# Peru mətbuatında Azərbaycanla diplomatik münasibətlərin 30 illiyinə həsr olunmuş məqalə yayımlanıb

Perunun "La Razon" qəzetində Azərbaycan ilə Peru arasında diplomatik münasibətlərin 30 illiyinə həsr olunmuş məqalə dərc edilib.



Cultural

Treinta años de amistad entre Azerbaiyán y el Perú

AZƏRTAC xəbər verir ki, yazıda Limada bu münasibətlə keçirilən qala-konsertdən bəhs olunur. Manuel Sequra Teatrında təşkil edilən tədbirin iki ölkə arasında dostluğun, qarşılıqlı hörmətin və mədəni əməkdaşlığın rəmzinə çevrildiyi vurğulanır.

Məqalədə qeyd edilir ki, tədbirdə Peru hökumətinin rəsmiləri, deputatlar, diplomatik korpusun nümayəndələri və mədəniyyət xadimləri iştirak ediblər. Peru Xarici İşlər Nazirliyinin Avropa üzrə baş direktoru Alberto Kampana çıxışında son 30 ildə siyasi dialoq və qarşılıqlı etimada əsaslanan əməkdaşlığın uğurla inkişaf etdiyini bildirib. O, 2025-ci ildə Limada keçirilən ilk siyasi məsləhətləşmələrin mədəniyyət, təhsil, turizm, enerji, ticarət və investisiya sahələrində əməkdaşlıq üçün yeni imkanlar yaratdığını qeyd edib.

Məqalədə vurğulanır ki, konsertdə azərbaycanlı dirijor Fuad İbrahimovun rəhbərlik etdiyi "Camerata de Cuerdas" kamera orkestri Azərbaycan və Peru bəstəkarlarının əsərlərini səsləndirib. Üzeyir bəy Hacıbəyli, Qara Qarayev və Fikrət Əmirovun əsərləri Peru bəstəkarlarının musiqiləri ilə birlikdə ifa olunaraq iki xalqın zəngin musiqi irsini eyni səhnədə bir araya gətirib. Gecədə soprano Rosa Parodi, skripkaçı Mariya Foust və tenor Luis Alberto Melqar da çıxış ediblər.

Yazıda həmçinin Azərbaycanın Meksikadakı və eyni zamanda Perudakı səfiri Seymur Fətəliyevin son illər siyasi, parlamentlərarası, mədəni və təhsil sahələrində əməkdaşlığın əhəmiyyətli dərəcədə genişləndiyini vurğuladığı bildirilir. Peru-Azərbaycan Parlamentlərarası Dostluq Liqasının üzvü Rosangella Barbaran isə musiqinin xalqları birləşdirən universal dəyər olduğunu qeyd edərək, yubileyin iki ölkə arasında dostluq və əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyini bildirib.

# *Rumın politoloq:* "Azərbaycan-Rumıniya strateji tərəfdaşlığı inkişaf edir"

"Azərbaycan və Rumıniya son onilliklərdə möhkəm təməllər üzərində qurulmuş çox yaxşı münasibətlər saxlayır". Bunu AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və dünya" verilişinin son buraxılışında rumıniyalı politoloq Yulian Kifu bildirib.

O qeyd edib ki, enerji sektorunda strateji tərəfdaşlıq ikitərəfli əməkdaşlığın əsas elementi olaraq qalır, lakin iki ölkə arasında əlaqələr artıq çoxdandır bu sahədən kənara çıxıb. Ekspertin sözlərinə görə, Azərbaycan və Rumıniya liderləri arasında güclü qarşılıqlı anlaşma mövcuddur və bu, münasibətlərin inkişafında mühüm rol oynayıb. Yulian Kifu vurğulayıb ki, Azərbaycan və Rumıniya kibertəhlükəsizlik, süni intellekt, elm və texnoloji inkişaf kimi sahələrdə əməkdaşlığı fəal şəkildə genişləndirir. O həmçinin SOCAR-ın Rumıniyadakı investisiya fəaliyyətinin də əhəmiyyətli rol oynadığını və daha geniş əməkdaşlıq baxımından mühüm potensiala malik olduğunu qeyd edib. Politoloq əlavə edib ki, ölkələr arasında münasibətlər güclü humanitar əlaqələr və Rumıniyanın Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə davamlı dəstəyi sayəsində də möhkəmlənir.

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

**Sosial oçerk**

## Xatınlı kəndi: dünənlə bu günün görüş yeri

Sovetlər dönəmində kəndimiz dörd para kəndi birləşdirən bir sovetlik idi. Tovuz rayonunun Xatınlı sovetliyi adlanırdı. 10 mindən çox əhalisi, böyük təsərrüfatı var idi. Bolqar bolşeviki Kirovun adını daşıyan sovxoz rayonda o dönəmin ən varlı təsərrüfatı sayılırdı.



Sovxoz üzümçülüklə məşğul idi. İldə dövlətə on minlərlə ton üzüm məhsulu verirdi. Ucu-bucağı görünməyən üzüm plantasiyalarında çalışan fəhlələr ayda minimum 100-120 manat maaş alırdılar. Bu da kəndlinin dolanışığı üçün yetərli olurdu. Həyətyanı sahəsindən, saxladığı mal-qarasından, toyuq-cücəsindən gələn gəliri də bunun üstünə əlavə etsək, deyə bilərəm ki, xatınlılar yaşayışlarından narazı deyildilər.

Sovet hökumətinin öz qanunları var idi. Kəndlinin həddi nə idi bu qanunlardan, qaydalardan kənara bir addım atsın. Bütün fəsillərdə sovxozun fəhləsi çöldə olurdu, üzümlüklərin becərilərək yüksək məhsul verməsi üçün çalışırdı. Kənd demək olar ki, böyüklüyü ilə nəinki rayonun, hətta respublikanın digər rayonlarının bir çox kəndindən fərqlənirdi. Buna görə də 80-ci illərin ikinci yarısında Xatınlıya dövlət rəsmi olaraq qəsəbə adı vermişdi.

Amma Xatınlı bu adı çox daşıya bilmədi. Xatınlı sovetliyi dağıldı, hər kənd ayrılıqda "müstəqilliyinə qovuşdu". "Azadlığa" çıxmış Xatınlı, Qaraxanlı, Qədirli və Cilovdarlı kəndlərinin özünün ayrıca idarəetmə strukturları fəaliyyətə başladı. Halbuki bu kəndləri bir-birindən ayıran geniş bir məsafə belə yoxdu. Küçənin bir tərəfi bu kəndin, digər tərəfi isə o biri kəndin ərazisinə düşür...

Tarixin sərt sınaqları Xatınlının inkişaf yolunu müəyyən müddət ləngitsə də, onun gələcəyə inamını sarsıda bilmədi. Bu torpağın zəhmətkeş insanları dəyişən dövrlərin çətinliklərini arxada qoyaraq kəndin yenidən dirçəlməsi və müasirləşməsi üçün var gücləri ilə çalışdılar. Xatınlı kəndinin iqtisadi həyatında kənd təsərrüfatı mühüm yer tutur. Əkinçilik və heyvandarlıqla məşğul olan sakinlər zəhmətsevərlikləri ilə seçilir, məhsuldar fəaliyyətləri nəticəsində həm ailələrinin rifahını təmin edir, həm də rayonun iqtisadi inkişafına öz töhfələrini verirlər. Torpağa bağlılıq və halal əmək kənd sakinlərinin əsas həyat prinsiplərindən biridir.

Kənddə aparılan abadlıq və quruculuq işləri onun simasını əhəmiyyətli dərəcədə dəyişib. Müasir yolların salınması, infrastrukturun yenilənməsi, sosial obyektlərin yaradılması sakinlərin rahat yaşayışına xidmət edir. Bu yeniliklər kəndin inkişafına yeni nəfəs gətirib, əhalinin rifahının yüksəlməsinə şərait yaradıb. Xatınlı kəndinin sakinləri öz zəhmətkeşliyi ilə tanınırlar. Kənd təsərrüfatı, əkinçilik və heyvandarlıq burada yaşayan insanların əsas məşğuliyyət sahələrindəndir. Torpağa bağlılıq, halal zəhmət və işgüzarlıq kənd əhalisinin həyat tərzinin ayrılmaz hissəsidir. Hər bir ailə öz əməyinin bəhrəsini görərək kəndin iqtisadi inkişafına töhfə verir.

Kənddə həyata keçirilən abadlıq və quruculuq işləri ilə yanaşı, aqrar sahənin inkişafı da regionların sosial-iqtisadi yüksəlişində mühüm rol oynayır və bu baxımdan dövlət tərəfindən məqsədyönlü tədbirlər xüsusi əhəmiyyət daşıyır. Burada abadlıq və quruculuq işlərinin yaratdığı sosial-iqtisadi dinamika aqrar sahənin inkişafı ilə sıx şəkildə bağlıdır və bu istiqamətdə dövlət siyasəti kənd təsərrüfatının dayanıqlı inkişafına yeni imkanlar açır. Məlumdur ki, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və aqrar sahədə rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" da məhz bu hədəflərə uyğun olaraq məhsuldarlığın artırılmasını əsas məqsəd kimi müəyyənləşdirir. Bu dövlət proqramının hədəfləri Xatınlı kəndində də özünü aydın göstərir. Kənd təsərrüfatı ilə məşğul olan sakinlər üçün yaradılan yeni imkanlar, xüsusilə müasir aqrar texnologiyaların tətbiqi və təsərrüfatçılıqda innovativ yanaşmaların genişlənməsi Xatınlıda istehsalın səmərəliliyini artırır. Eyni zamanda kənd əhalisinin əsas məşğulluq sahələrindən olan əkinçilik və heyvandarlıqda məhsuldarlığın yüksəldilməsi istiqamətində görülən işlər yerli fermerlərin fəaliyyətinə yeni stimul verir. Bu proseslər Xatınlının aqrar potensialının bir qədər də güclənməsinə, kənd əhalisinin rifahının yüksəlməsinə və bölgənin ümumi inkişaf dinamikasına müsbət təsir göstərir.

***

Tovuz sərhəd rayonu olsa da, kəndimiz arzuedilməz qonşulardan xeyli uzaqda yerləşir. Burada yergöy od tutub yanmasa da, Birinci Qarabağ müharibəsinin qızğın vaxtlarında bəzən uzaqdan atılan topların mərmisi kəndə düşüb, torpaq "qrad yağışında islanıb". Amma kənd bütövlükdə müharibə ocağına çevrilməyib. Kəndin oğlanları isə sərhəddə keşik çəkib, Qarabağda döyüşüb şəhid olublar. 4 günlük Tovuz döyüşlərinin və 44 günlük Vətən müharibəsinin də şəhidi və qazisi var kəndimizdə. Vətən Müharibəsi Qəhrəmanı Yaşar Əhmədov Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziridir. Murov döyüşlərində, həmçinin Cəbrayıl, Hadrut və Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə fərqlənib. Bu qəhrəman oğulla kənddə hər kəs fəxr edir, qürur duyur. Elə ev var ki, divarından dörd şəhid şəkli asılıb. Bu, Kərimovlar ailəsinin ocağıdır: baba, oğul, nəvə və nəticə. Baba 1941-1945-ci il müharibəsinin qurbanı, oğul Birinci Qarabağ döyüşlərinin, nəvə atəşkəs dövrünün, nəticə isə 44 günlük Vətən müharibəsinin şəhididir. Dörd şəhid bir ailənin and yerinə çevrilib.

Mənim kəndim müharibə görməyib, amma Xatınlı 30 ilə yaxın döyüşüb. Zaman bu insanların ruhunu alıb, dövran qəlblərini sındırıb, çox arzularını çilik-çilik edib, sanki qaranlıq küncə sıxışdırmışdı. O illərdə həyat da sanki bu mübarizənin qalibi olmuş, xatınlıların çiyinlərinə ağır yük qoyaraq onları davamlı sınağa çəkmişdi. Analar oğullarını itirmişdilər: kimi müharibədə, kimi çörək dalınca getdiyi yad ellərdə, kimi də Rusiyanın uzaq şəhərlərində. Ağsaqqallar Rusiyanı bataqlığa bənzədirdilər, "oğullarımız bu bataqlıqdan çıxa bilmirlər" deyə gileylənərdilər. Cavan gəlinlər illərlə yol gözləyib, uşaqlar atalarının səsini eşitmədən, nəfəsini duymadan böyüyüblər. Türkiyəyə və Avropanın müxtəlif guşələrinə üz tutanların taleyi də bu ayrılıq hekayəsinə qarışdıqca kəndin yaşadığı nisgil daha qabarıq hiss olunurdu.

Amma bu gün Xatınlı artıq o köhnə Xatınlı deyil. Həsrətin yerini ümid, yorğun baxışların yerini gələcəyə inam əvəz edib. Kəndin küçələrində yenidən həyatın nəfəsi duyulur, uşaqların səsi eşidilir, insanların sabaha inamı hiss olunur. Zaman vaxtilə bu kənddən aldıqlarını geri qaytarmağa başlayıb. Xatınlı yenidən yaşayır, yenidən qurulur və yenidən öz insanlarının qürur mənbəyinə çevrilir.

Bakı-Tbilisi-Ceyhan neft kəməri Xatınlının ərazisindən keçir. 2009-cu ildə BP şirkəti kənd təsərrüfatında məhsuldarlığın artırılması məqsədilə Xatınlıya 226.000 dollar dəyərində qrant ayırmışdı. Pay torpaqlarının ərazisindən boru kəməri keçən kənd sakinlərinə həmin vəsaitdən müəyyən məbləğ ödənilmişdi. Əhali qısa müddət ərzində bu pullar hesabına zəruri ehtiyaclarını qismən də olsa qarşılamışdı. Lakin sonradan bu proses kənd həyatında gözlənilən davamlı inkişafı təmin etməmiş, əksinə, müəyyən sosial asılılıq hissinin formalaşmasına da yol açmışdı. Bəlkə də elə bu səbəbdən kəndlilər bir müddət özlərinə ayrılmış torpaqları əvvəlki kimi becərməmişdilər. Əslində isə kəndlini qınamaq da asan deyildi. Bunun müxtəlif səbəbləri var idi. Əkinçilik və becərmə xərclərinin yüksək olması torpaqlardan səmərəli istifadəni çətinləşdirirdi. Sovet dövründə kimyəvi dərmanlarla zəhərlənən torpaqların bərpası kəndlilər üçün əlavə xərc tələb edirdi. Xatınlının torpaqları susuzluqdan çatçat olmuş, uzun müddət boş qalan sahələrdə alaq otları və yabanı bitkilər kök atmışdı. Suvarma suyu bu kənddən demək olar ki, çəkilmişdi. Rayonun keçmiş rəhbərliyinin bu məsələyə laqeyd yanaşması isə vəziyyəti daha da ağırlaşdırmışdı.

Amma bu gün kəndin mənzərəsi xeyli dəyişib. Kəndə su xətti çəkilib, küçələrdə su kranları quraşdırılıb. Demək olar ki, hər ev su ilə təmin olunub. Həmin suyun içməyə yararlılığı tam təmin olunmasa da, əsasən əkinçilik və təsərrüfat işlərində sakinlərin böyük ehtiyacını qarşılayır. Üstəlik arxlarda əvvəlki illərlə müqayisədə daha bol su axını müşahidə olunur. Bu isə torpaqların canlanmasına, əkin sahələrinin daha səmərəli istifadə olunmasına şərait yaradır. Uzun illər su qıtlığından əziyyət çəkən kənd üçün bu dəyişikliklər yeni ümidlər və kənd təsərrüfatında canlanma deməkdir. Sovetlər dönəmindəki geniş üzüm plantasiyaları artıq əvvəlki kimi mövcud deyil. Yüzlərlə hektarı əhatə edən həmin üzümlüklərin yerində bu gün "Təzə məhlə" adlanan yaşayış massivi formalaşıb. Burada əsasən gənc ailələr məskunlaşıb, yeni həyat qurub və kəndin demoqrafik mənzərəsinə canlılıq gətiriblər.

Keçmişdə inşa edilmiş birmərtəbəli evlərin yanında bu gün çoxsaylı iki mərtəbəli müasir evlər yüksəlir. Həmin evlər yalnız xarici görünüşü ilə deyil, daxili şəraiti ilə də diqqət çəkir. Ən müasir məişət texnikası və avadanlıqlar kənd həyatına rahatlıq və komfort gətirib. Kompüter texnologiyalarının və internetin inkişafı kənd həyatında da öz təsirini göstərib. Bu gün Xatınlıda uşaqdan böyüyə qədər hər kəs informasiya texnologiyalarından istifadə edir, internetsiz həyatı isə artıq təsəvvür etmək çətinləşib. Eyni zamanda kənddə elektrik enerjisi və təbii qaz təminatı da sabit şəkildə fəaliyyət göstərir ki, bu da əhalinin gündəlik yaşayışını daha da asanlaşdırır.

İndi Xatınlı keçmişin ağrılarını arxada qoyaraq yeni inkişaf mərhələsinə qədəm qoyub. Zamanın sərt sınaqlarından keçən bu kənd həm tarixi yaddaşını qoruyur, həm də müasir həyatın tələblərinə uyğun şəkildə yenilənir. İnsanların üzündə ümid və sabaha inam, həyatında isə sabitlik hiss olunur. Xatınlı zəhmətin və dirçəlişin simvoluna çevrilib. Burada keçmiş unudulmur, amma gələcək daha böyük inamla qurulur. Bu torpaq öz insanları ilə birlikdə yaşayır, inkişaf edir və gələcəyə doğru inamla addımlayır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Ağstafada meyvə istehsalı ilə məşğul olan şirkətin sorağı uzaq ölkələrdən gəlir

### "KUR FRUİT COMPANY"-nin növbəti layihəsi emal müəssisəsi yaratmaqdır

Azərbaycan tarixən meyvəçilik diyarı kimi tanınıb. Meyvələrimizin sorağı indinin özündə də yaxın və uzaq ölkələrdən gəlir.



Son illər bu gəlirli sahənin inkişafı istiqamətində Ağstafada da bir sıra tədbirlər həyata keçirilmişdir. Dövlətin aqrar sektora göstərdiyi diqqət və dəstəkdən faydalanan sahibkarlar yeni meyvə bağları salmış, köhnələrinin sahəsini genişləndirmişlər.

Ağstafa Aqrar İnkişaf Mərkəzinin direktoru Ramiz İmanovla söhbətimiz elə bu istiqamətdə oldu. Ceyrançöldə yaradılmış "KUR FRUİT COMPANY" şirkətində görülən işlərdən, orada salınan meyvə bağlarında əldə olunan nailiyyətlərdən danışdıq və məsləhət görüldü ki, bütün bunları gözlə görmək lazımdır.

Həqiqətən, təsərrüfatda olarkən insan əllərinin nələrə qadir olduğunun şahidi olduq. Hər tərəf yaşıllığa bürünmüşdü. Ağacların ustundəki yetişmiş müxtəlif meyvələrin ətri ətrafa yayılmışdı.

Bizi Ramiz Nuriyev qarşıladı. Biləndə ki o, şirkətin rəhbəridir, gözlərimizə inanmadıq - sıravi işçilərdən qətiyyən seçilmirdi. Təəccübümüzü görüb gülümsədi: "Mən adi geyimdə olmasam, işçilərə qoşulub çalışmasam, ürəyimə yatmır. Hətta yeməyi də birlikdə yeyirik".

Bağı gəzdik. Ramiz Nuriyev dedi ki, 160 hektar bağ salmaq o qədər də asan deyil: "Buralar Ceyrançöl ərazisi olduğundan hər tərəf quru düzənlik idi. Necə deyərlər, ilan mələşən yerlər idi. Ancaq ataların bir misalı var: niyyətin hara, mənzilin ora. 7 il əvvəl qolumuzu çırmalayıb işə girişdik. Ərazini kol-kosdan təmizlədik, su çəkdik, damcı üsulu ilə suvarma yaratdıq, ən yaxşı meyvə ağacları gətirdik. Sonra intensiv və superintensiv bağ salmağa başladıq. Neçə il onlara qulluq etdik. Nəhayət, ağaclar bar verdi. Bir neçə il ərzində ərazidə müxtəlif meyvələrin istehsalına nail olduq. İndi 11 adda meyvə yetişdiririk. Məhsullarımızı daxili bazarla yanaşı, xarici ölkələrə, xüsusən Rusiya və Qazaxıstana da ixrac edirik".

Şirkətdə çoxlu sayda mütəxəssis çalışır. Onlar tez-tez xarici mütəxəssislərdən məsləhətlər alır, özlərinin bilik və bacarıqlarını artırırlar. Hər il Çilidən, İspaniyadan, İtaliyadan və Estoniyadan dəvət olunmuş mütəxəssislər yerli kadrlarla təcrübə mübadiləsi aparırlar.

Söhbət zamanı öyrəndik ki, mövsüm vaxtı burada 500-600 adam çalışır. Onlar əsasən yaxın kəndlərin sakinləridir. Daimi işçilərin sayı isə 150 nəfərdir. 7 ildir ki, Poylu, Qıraq Kəsəmən, Saloğlu kəndlərinin sakinləri öz ailələrini bu təsərrüfatdan aldıqları əməkhaqqı ilə dolandırırlar.

Şirkət texnika ilə də tam təmin olunmuşdur. Hazırda maşın parkında 20-yə yaxın texnika var və hamısı da yenidir.

Təsərrüfatda hər il 100 hektara yaxın sahədə taxıl da əkilir. Bu il də həmin ərazilərdə bol məhsul yetişmişdir. Keçən il hər hektardan 45 sentner məhsul götürülüb. Bu il həmin rəqəmin 50 sentner olacağı gözlənilir. Yaxın günlərdə biçinə başlanacaq.

R.Mirzəyev onu da dedi ki, qarşıda duran məsələlərdən biri emal müəssisəsinin yaradılmasıdır. Təsərrüfat bu işdə dövlətin dəstəyinə güvənir. Sözsüz ki, dövlət təsərrüfatın bu layihəsinin də reallaşmasına kömək edəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Samux taxılçıları daha çox məhsuldarlığa fikir verirlər



Samux rayonunda da torpaqlardan səmərəli istifadə edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, rayon üzrə taxıl əkini sahələri davamlı olaraq artırılır.

Keçən il cəmi biçiləcək taxıl sahəsi 10822,4 hektar olduğu halda 2025-2026-cı ilin təsərrüfat mövsümündə bu göstərici 388,8 hektar artırılaraq 11211,2 hektara çatdırılmışdır. Onun 5304 hektarında buğda, 5907,2 hektarında arpa əkilmişdir. Hazırda arpa biçilir. Son məlumata görə, arpa sahələrinin 41 faizi, yəni 2 422 hektarı biçilmiş, 8883 ton məhsul tədarük edilmişdir.

Bu il taxıl biçininə keçənilkindən çox texnika cəlb olunmuşdur. Biçinin vaxtında və itkisiz başa çatdırılması üçün zəmilərə 26 ədəd kombayn çıxarılmışdır.

Rayonda taxılçılıqla məşğul olan çoxlu sayda iri təsərrüfat var. Keçən il olduğu kimi, bu il də "Ata Agro" intensiv aqrotexniki qulluq nəticəsində ən yüksək göstəriciyə nail olur. Təsərrüfat bu il 65 hektar sahədən yüksək məhsul gözləyir. Əkinçilər 60 hektar buğda sahəsinin hər hektarından 60 sentner, arpa sahəsinin hər hektarından isə 55 sentner məhsul götürmək üçün çalışırlar.

Rayondakı "Agro Dairy" də böyük taxıl istehsalçısıdır. Bu il 2516 hektarda buğda, 340,1 hektarda arpa yetişdirən şirkət hər hektardan 57,1 sentner buğda, 44 sentner arpa götürməyi planlaşdırmışdır.

Bu nikbinlik onu deməyə əsas verir ki, rayon fermerləri bu il də taxılçılıqda yüksək göstəricilərə nail olacaqlar.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Baramaçılıq etibarlı gəlir mənbəyinə çevrilir

Baramaçılıq ölkəmizin kənd yerlərində yaşayan ailələr üçün, sadəcə, ənənəvi məşğuliyyət sahəsi deyil, həm də minimal xərclə qısa müddətdə maksimum iqtisadi səmərə verən etibarlı bir gəlir mənbəyidir.



Cəmi 30-40 günlük qulluq dövrü kənd sakinlərinə əlavə qazanc imkanı yaradır. Xüsusilə dövlət tərəfindən tətbiq edilən güzəştli şərtlər - istehsal olunmuş yaş baramanın kiloqramının 5 manata təhvil alınması və dövlətin hər kiloqrama görə kümçülərə 6 manat subsidiya ödəməsi bu sahəyə olan marağı kəskin artırıb.

Dövlət dəstəyinin yaratdığı bu iqtisadi canlanmanın ən parlaq nümunələrindən biri hazırda Zaqatala rayonunda müşahidə olunur. AZƏRTAC xəbər verir ki, cari mövsümdə rayonda yaş barama istehsalının 18 tona çatdırılması qarşıya hədəf qoyulub və bu hədəfə artıq tam yaxınlaşılıb. Belə ki, yerli kümçülər indiyədək fəaliyyət göstərən barama qəbulu və qurutma məntəqəsinə 17 ton 176 kiloqram yaş barama təhvil veriblər. Cari ildə uğurlu nəticə əldə etmək üçün rayonda 270-dək kümçü ilə müqavilə bağlanılıb, onlara 450 qutu (yəni 8 kiloqram 550 qram) ipəkqurdu paylanılıb. Əvvəlki illərdə olduğu kimi, bu il də prosesin itkisiz və səmərəli təşkili üçün kümçülərə paylanılan ipəkqurdu toxumu məntəqənin özündə, peşəkar səviyyədə inkubasiya olunub.

Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumatlar da təsdiqləyir ki, yaradılan bu şərait fərdi təsərrüfatların rəqabətini və məhsuldarlığını xeyli yüksəldib. Məsələn, Uzun Tala kəndindən Ramazan Vaşiyev cari mövsümdə qəbul məntəqəsinə rayon üzrə hamıdan çox - 274 kiloqram yaş barama təhvil verərək liderliyini qoruyub. Ondan az fərqlənən Yengiyan kəndindən Nurəddin Hüseynov builki mövsümdə 241 kiloqram, Faldarlı kəndindən Murad Muradov 210 kiloqram, Mamrux kəndindən Nadir Sulxayev isə 209 kiloqram yaş barama istehsal edərək ailə büdcələrinə sanballı töhfə veriblər.

Prezident İlham Əliyevin bu il mayın 25-də təsdiqlədiyi "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" məhz bu sosial-iqtisadi dividendləri daha da böyütməyi və sistemli şəkildə genişləndirməyi hədəfləyir.





# Mədəniyyət





● Teatr xadimlərimiz

## Atası onu həkim, anası isə hüquqşünas görmək istəyirdi

**Maraqla baxılan teatr və filmlərimizdə yaratdığı müxtəlif obrazları, oynadığı bənzərsiz rolları ilə tamaşaçı sevgisi qazanmış aktyorlarımızdan biri də Xalq artisti Fuad Poladovdur. Onun oynadığı böyüklü-kiçikli bütün rollarda sənətkarlıq duyulur.**

Səhnədə olduğu illər ərzində fitri istedadı və bacarığı ilə zövqləri fəth edən Fuad Poladov 24 may 1948-ci ildə Bakıda dünyaya göz açıb. Orta təhsilini 132 nömrəli məktəbdə alıb. Hələ kiçik yaşlarından aktyor olmaq arzusu ilə yaşayan Fuad Poladov 1967-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyorluğu fakültəsinə qəbul olub. Tələbəlik illərində fəallığı və istedadı ilə seçilib. 1972-ci ildə aktyorluq təhsilini başa vuraraq səhnə fəaliyyətinə başlayıb. Paralel olaraq Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Adil İsgəndərovun aktyorluq studiyasını bitirib.



Fuad Poladov müəllim ailəsində doğulmuşdu. Anası Hənifə xanım ibtidai sinif, atası Ağarəhim Poladov isə kimya-biologiya müəllimi olub. Valideynləri onun aktyor olmasına razı deyilmişlər. Atası onu həkim, anası isə hüquqşünas görmək istəyirmiş. Fuad özü isə aktyorluq peşəsini seçib. Əgər o, valideynlərinin göstərdiyi yolla getsəydi, yəqin ki, teatrımız, kinomuz istedadlı bir aktyorunu itirmiş olacaqdı.

Fuad hələ tələbə ikən teatr tamaşalarında müxtəlif rollar oynayıb. İlk dəfə 1969-cu ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq yazıçısı İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" əsərinin tamaşasında səhnəyə çıxaraq Savalan obrazını canlandırmışdır. Elə ilk rolundan da rejissorların diqqətini cəlb etmişdir. Bacarığını nəzərə alan teatrın rəhbərliyi elə həmin ildən də onu teatrın truppasına qəbul etmişdi. Beləcə, gələcəyin görkəmli aktyoru sənət dünyasına gedən yollarında ilk addımlarını atmağa başlamışdı.

Fuad Poladov 20 il bu teatrın səhnəsində müxtəlif xarakterli rollar canlandırmışdı. Lirik-psixoloji üslublu aktyorluq məktəbinin seçilən nümayəndələrindən biri kimi tanınan, fəlsəfi-dramatik və faciə rollarının mahir ifaçısı Fuad Poladovun oynadığı bütün obrazlar sənət adamlarının diqqətini cəlb etmişdi. Görkəmli aktyorun yüksək sənətkarlıqla oynadığı Rəhman, Valeh, Qədim, Mübarək Səltənə ("Mahnı dağlarda qaldı", "Qəribə oğlan", "Büllur sarayda" və "Şeyx Xiyabani", İlyas Əfəndiyev), Cığatay ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Fərhad ("Məhəbbət əfsanəsi", Nazim Hikmət), Şahbaz bəy ("Müsyö Jordan və dərviş Məstəli şah", Mirzə Fətəli Axundzadə), Şöklü Məlik ("Torpağa sancılan qılınc", Nəbi Xəzri), Zaur ("Təhminə və Zaur", Anar), Baron ("Həyatın dibində", Maksim Qorki) rolları tamaşaçı sevgisi qazanmışdır. Sevə-sevə canlandırdığı bu obrazlar aktyora həm də böyük şöhrət gətirmişdir.



O, 1989-cu ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında işləməyə başlamışdır. Səhnə həyatının yeni mərhələsinə qədəm qoyan Fuad Poladov bu teatrda 20-dən çox tamaşada rol almışdır. Bu rollara isə, necə deyərlər, öz möhürünü vurmuşdu. Aktyorun oynadığı rollar bu gün də böyük sevgi ilə xatırlanır. Fuad Poladov tamaşaçıları düşündürməyi, adi hesab olunan obraza yeni rəng və ahəng verməyi bacarırdı. Bütün bunlar isə aktyorun sənətkarlığından, sənətə verdiyi dəyərdən, peşəsinə vurğunluğundan irəli gələn amillər idi.

Fuad Poladov teatrla yanaşı, filmlərimizdə də yaddaqalan rollar oynayıb. Hələ 1966-cı ildə - 9-cu sinifdə oxuyanda ilk dəfə olaraq "İstintaq davam edir" filminə çəkilib. Aktyor bu filmdə Səlim rolunu canlandırıb. Bundan sonra Fuad Poladov bu gün də böyük maraqla baxılan "Ad günü", "Ağasadıq Gəraybəyli", "Ailə", "Aktrisa", "Arxada qalmış gələcək", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Cəza", "Əlvida, cənub şəhəri", "Yeddi oğuldan biri", "Fatehlərin divanı", "İşarəni dənizdən gözləyin", "Güllələnmə təxirə salınır!", "Ovsunçu", "Küçələrə su səpmişəm", "Günaydın, mələyim", "Dolu" və başqa filmlərdə yaddaqalan obrazlar yaradıb.



2015-ci ildə "Aktrisa" filminə görə "Ən yaxşı kişi rolunun ifaçısı" nominasiyasında "Qızıl Pəri" mükafatına layiq görülüb.

Aktyor doğma teatrı olan Akademik Milli Dram Teatrını heç vaxt unutmayıb. Teatr rəhbərliyinin dəvəti ilə tez-tez müxtəlif tamaşalarda rollar ifa edib. 2002-ci ildə Akademik teatrda Uilyam Şekspirin eyniadlı faciəsində "Hamlet" əsərində Hamlet, 2011-ci ildə İlyas Əfəndiyevin "Boy çiçəyi" əsərində Həsənzadə, 2013-cü ildə Əli Əmirlinin "Şah Qacar" əsərində Şah Qacar, 2015-ci ildə Erik-Emmanuel Şmittin "Müsyö İbrahim və Quran çiçəyi" əsərində Müsyo İbrahim obrazlarını canlandırıb.

Azərbaycan teatr və kino sahəsinin inkişafına verdiyi töhfələrə görə Fuad Poladov 20 mart 1987-ci ildə Azərbaycanın "Xalq artisti" fəxri adına layiq görülüb.

Təəssüf ki, sonrakı illər Fuad Poladov səs tellərində problem yarandığına görə danışmaqda çətinlik çəkib. Aktyor bir müddət Milli Onkologiya Mərkəzində müalicə olunub. Uzun müddət davam edən xəstəlikdən sonra 4 may 2018-ci ildə vəfat edib.

Sənət dostları Fuad Poladovu istedadlı bir aktyor və gözəl insan kimi xatırlayırlar. Xalq artisti Həmidə Ömərova mərhum sənət yoldaşının gənclər üçün yeni cığır açdığından söz salaraq deyib ki, Fuad Poladov Azərbaycan mədəniyyətində, kinosunda, teatrında silinməz iz qoyan böyük sənətkardır: "Hər birimizin qəlbində onun əziz xatirəsi yaşayır. Fuad Poladovun oynadığı rolları unutmaq mümkün deyil. Onun Azərbaycan kinosuna, teatrına verdiyi töhfələr hələ də öz bəhrəsini verir. Gənc nəsil, aktyor olmaq istəyənlər də onun filmlərinə baxaraq, istedadından bəhrələnirlər".

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar artist Azad Şükürov Fuad Poladovun sənətinə yüksək dəyər verərək deyib: "Mənim zənnimcə, Fuad Poladovun ən böyük xidməti ondan ibarətdir ki, o, bütün Azərbaycan tamaşaçılarına, bütün mədəniyyət xadimlərinə öz həyat tərzi ilə sübut etdi ki, əsl sənətkar və şəxsiyyət necə olmalıdır".

Tanınmış rejissor Rövşən İsax "Aktrisa" filminin çəkilişləri zamanı Fuad Poladovla yaşanan xatirələrdən bəhs edərək deyib: "Mənim tanıdığım, münasibətdə olarkən gördüyüm Fuad Poladov çox təmkinli, bir kəlmə sözünü də səbəbsiz yerə deməyən, hər baxışında, hərəkətində bir məna olan insan idi. Bu dəqiqə fikirlərimi bölüşərkən elə bilirəm ki, məni eşidir. Ona görə pauzalarla danışıram ki, hər sözüm, kəlməm yerində olsun. Birbaşa müəllimim olmasa da, bizim kursumuza dərs deyib Fuad müəllim. "Aktrisa" filmində bir səhnə var: bankir həyat yoldaşını şillə ilə vurur. Mən aktrisadan xahiş edib icazəsini almışdım. Fuad müəllimə demişdim ki, orta planda çəkəndə siz həqiqətən şillə vurun, aktrisanın xəbəri var, o bilir. Həmin epizodu çəkərkən şillə ilə vuranda aktrisanın dodağı qanadı. Fuad müəllim çox pis oldu. Həmin gün çəkilişi saxladıq, qərara gəldik ki, sabah çəkək. Səhəri gün Fuad müəllim çəkilişə gələndə böyük bir buket alıb gətirmişdi. Aktrisa şillə dəyəndə yox, amma gül dəstəsini görəndə kövrəlib ağladı. Fuad müəllim belə insan idi".

Xalq artisti Hacı İsmayılov isə Fuad Poladovu belə yad edib: "Onun vəfatı xəbəri bütün sənət adamlarını sarsıtdı. Allah ona rəhmət eləsin, ruhu şad olsun. Fuad Poladov Akademik Milli Dram Teatrının səhnəsində çox gözəl obrazlar yaradıb, bu obrazlar hər kəs tərəfindən sevilib".

Azərbaycan teatr və kino sənətinin sevilən aktyoru, Xalq artisti Fuad Poladov film və tamaşalarda yaratdığı obrazları, fitri istedadı və şəxsiyyət bütövlüyü ilə sənət dostlarının, eləcə də tamaşaçıların qəlbində belə iz qoymuşdur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Aşıq Hüseyn Cavan - 110

## O taylı-bu taylı Azərbaycanın şairi

**O taylı-bu taylı Azərbaycanda aşıq poeziyasının xalqın estetik tərbiyəsində nə qədər böyük bir rol oynadığını və ümumiyyətlə, siyasi-ictimai vəzifələri yerinə yetirdiyi tarixdən yaxşı məlumdur. Bu baxımdan xalq şeiri formalarında dəyərli nümunələr meydana gətirən şairlərdən biri də o taylı-bu taylı Azərbaycanda çox məşhur olan, əsərləri məna tutumunun sanbalı ilə seçilən Aşıq Hüseyn Cavandır.**



Həyatı boyu Azərbaycanın güneyi ilə quzeyi arasında mənəvi körpü salmağa çalışan Hüseyn Cavan Azərbaycan aşıq ədəbiyyatının həmişəcavan, barlı-bərəkətli budaqlarından biridir. Hüseyn Cavan 1916-cı ildə Cənubi Azərbaycanda Qaradağın Gərməduz mahalının Uti kəndində yoxsul bir ailədə anadan olub. Erkən yaşlarında atası Mikayıl kişi qəfil dünyasını dəyişir, anası Zöhrə maddi-mənəvi ehtiyaclara tab gətirə bilmədiyindən oğlu və üç qızı ilə birlikdə Arazın şimal səmtinə pənah gətirir, Goranboyun Dəlməmmədli kəndində (indi şəhərdir) məskunlaşır. Hüseyn kənddə varlıların təsərrüfatında çalışaraq anasını və bacılarını dolandırmalı olur. Bu zaman Hüseyn aşıq məclislərinə, aşıq toylarına böyük maraq göstərir, ara-sıra qonum-qonşu, dost-tanış yığıncaqlarında oxuyurdu.

Hüseynin gözəl səsi, yaxşı hafizəsi, özündən söz qoşmaq qabiliyyətini görən dostları və tanışları çox istəyirdilər ki, o, aşıq olsun. Dəlməmmədlidə xeyirxah əməllər, xoş niyyətlər sahibi kimi tanınan Məşədi Adıgözəl onun avazındakı şirinliyi, səsindəki qeyri-adiliyi eşidib günlərin birində onu qədim Göyçə mahalına - ozan-aşıq sənətinin qüdrətli istedad sahibi Dədə Ələsgərin qardaşı oğlu, yaxından tanıdığı Aşıq Musanın yanına aparır. Adıgözəl kişi "Aşıq, bu uşaq həsrətindən göynədiyimiz Təbriz elindəndir. Əlacsızlıqdan biz tərəfə gəliblər. Olduqca dadlı-duzlu səsi var. Onun həsrətli avazını eşidəndə, vallah, kövrəlirəm. Buna görə də yanınıza gətirmişəm ki, sənətin incəliyindən onu bir az da agah edəsiniz" deyir.

Hüseyn bu müqəddəs ocaqda saz çalmağı, söz qoşmağı daha mükəmməl öyrənməyə başlayır. Çox keçmir ki, nəyə qadir olduğu üzə çıxır, ustadı ilə birgə el məclislərində ad-san qazanır. Sazda ifa etdiyi "Yanıq Kərəmi", "Dilqəmi", "Baş sarıtel" havaları dinləyicilərin böyük marağına səbəb olur. Hüseyn Cavan ürəyindəki sözləri sinəsindəki telli saza pıçıldayır. O, 1934-cü ildən şeir yazmağa başlayır. "Gül, Azərbaycan", "Oyan, vətəndaşım, oyan", "Ana vətən" kimi şeirləri Arazın o tayında, Təbrizdə "Vətən yolu" qəzetində dərc edilərək dillər əzbəri olur.

Tale yenidən Hüseyn Cavanın üzünə gülür: 1938-ci ildə həsrətini çəkdiyi Təbrizə qayıdır. Onu alqışlarla qarşılayırlar. Təxminən 8 il orada yaşayır. Milli-demokratik hərəkat təlatümə gəldiyi zaman sazı və sözü ilə fədailəri qələbəyə ruhlandırır. Ona inananları, dinləyicilərini tərəqqiyə səsləyir. Aşıq Hüseyn Cavan düşmənlə üz-üzə, süngü-süngüyə, səngər-səngərə vuruşan xalq sənətkarı idi. Başqa sözlə desək, Aşıq Hüseynin bu dövr yaradıcılığı həm də siyasi mübarizəni əks etdirən lirika olmuşdur. 1945-ci ildə Azərbaycan Demokrat Firqəsi yaranan zaman Aşıq Hüseyn bu təşkilata ilk üzv olanlardan və öz alovlu şeirlərilə onun yaradılmasını alqışlayanlardan biri olmuşdur.

1945-ci ilin qış ayları yaxınlaşır, əsl sınaq günləri gəlirdi. Ələ silah götürmüş vətən oğulları kəndləri, qəsəbələri və şəhərləri bir-bir irtica qüvvələrindən azad edirdilər. Artıq fədai dəstələri sel kimi axışaraq, Təbriz şəhərini mühasirəyə almışdı. Bu günlər Aşıq Hüseyn sədəfli sazını çiyninə salaraq fədai dəstələrinin içərisinə gedir və fədailərin igidliklərindən və qəhrəmanlıqlarından yazdığı yeni şeirlərini onlara oxuyurdu. 1945-ci ildə Cənubi Azərbaycanda milli hökumət qurulur. El məhəbbəti qazanmış haqq aşığı xalq qarşısında xidmətlərinə görə "21 Azər" medalı ilə təltif olunur.

O, radioda və mətbuatda öz şeirləri ilə çıxış etməkdən əlavə, 1946-cı ilin martında Təbrizdə Dövlət Dram Teatrı təşkil olunanda direktor müavini vəzifəsində çalışır, inqilabi ruhlu nəğmələri ilə çıxış edir. Teatrda aşıqlar ansamblı yaradır. Ürəyi Vətən həsrəti, qəlbi məhəbbətlə, işıqla dolu olan Hüseyn Cavanın yaradıcılığında məhəbbət şeirlərinin də öz yeri var. Bu illərdə o, ən gözəl şeirlərini qələmə alır.

1946-cı ildə Cənubi Azərbaycanda milli hökumət süqut edir. Tale onu yenidən Arazın bu tayına gətirir. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında solist kimi fəaliyyət göstərir. Böyük səhnədə çıxışı hərarətlə qarşılanır. Respublika özfəaliyyət incəsənət festivalının laureatı olur, birinci dərəcəli diplom alır. 12 dastanı dillər əzbəri olan aşığın 10 kitabı işıq üzü görür.

Aşıq Hüseyn Cavanın yaradıcılığı olduqca əhatəlidir. Vətənpərvərlik, xəlqilik, milli dəyərlərə, ana torpağa bağlılıq onun yaradıcılığının ana xəttini təşkil edir. Xalq şeirinin hər formasında mükəmməl əsərlər yaradan şair şeirlərində hikmətli ifadələrə geniş meydan ayırıb və ibrətamiz kəlamlarla poeziya xəzinəsinə misilsiz naxışlar vurub.

Şair aşıq olduğu üçün xalq yaradıcılığı ənənələrinin forma xüsusiyyətlərinə peşəkarcasına bələd idi. Təsadüfi deyil ki, şair öz yaradıcılığında çox az işlənən divani, dodaqdəyməz divani, ustadnamə formalarından da məharətlə istifadə edib. Aşıq Hüseyn Cavan özünə ustad saydığı, aşıq sənətində misilsiz töhfələr yaratmış Aşıq Ələsgər kimi aşıq poeziyasının çərçivələrini xeyli genişləndirərək, klassik poeziyamıza daha da yaxınlaşdırıb, aşıq poeziyasının gözəl, mütərəqqi ənənələrini inkişaf etdirib.

Aşıq Hüseyn Cavanın qoşmaları formaca oynaq, ahəngdar və estetik gözəllik nümunəsidir. O, aşıq poeziyasının bütün növlərində ən kamil nümunələr yaradıb. Adətən xalq arasında qıfılbəndlərə hikmətamiz qoşmalar da deyilir. Aşıq Hüseyn Cavan sələflərindən mükəmməl dərslər aldığı üçün xalq şeirinin ən çətin formalarında belə heyrətamiz sənət nümunələri ərsəyə gətirib.

Aylar-illər ötüb keçsə də, 110 illik yubiley günlərində ustad sənətkar daha böyük sevgiylə, istəklə, məhəbbətlə yad edilir, saysız-hesabsız şagirdləri onun sənətini layiqincə yaşadırlar. Qaraçıoğlu Aşıq Paşa Mehdiyevdən bir gün xəbər alırlar: "Ay ustad, kimə qulluq eləmisən? Gözləri yaşarır, yadına ustadı Hüseyn Cavan düşür, babası Aşıq İbrahimi xatırlayır. Deyir ki, babam Qaraçıoğlu Aşıq İbrahim 103 yaşında idi. Bir gün dedim, ay baba, sazı mənə də öyrət, yaman həvəsim var. Qaraçıoğlu Aşıq İbrahim dedi ki, mənim yaşım az deyil, qocalmışam, daha o gücüm yoxdu, get, gör aşıq Hüseyn Cavan səni özünə şəyird götürərmi? Götürsə, ondan öyrən, zəmanənin Ələsgəridi. Babamın məsləhəti ilə Hüseyn Cavanı tapdım. O gündən düz 13 il ona qulluq elədim, çəkməsinə qədər təmizlədim. Əvəzində isə sazı-sənəti öyrəndim. Bu da ən böyük qazancımdı. Ustadım məni toylara da aparırdı, sonra halallığın aldım".

Hüseyn Cavanın yaradıcılığı haqqında məqalələr, kitablar yazılıb. Belə topludan biri ustadın şərəfinə özünə "Cavan" təxəllüsü götürmüş Adil Cavana məxsusdur. Onun "Azadlıq pərvanəsi" bədii-publisistik kitabına ön söz yazan tanınmış qələm sahibi, Əməkdar jurnalist Əhməd İsayevin fikirlərindən: "...Adil gözünü açandan evlərində, ocaqlarının başında ürəyi nisgilli Aşıq Hüseyn Cavanı görüb, onun sazını, sözünü eşidib. Bu ünsiyyətin bəhrəsi olaraq Adil Cavan həyatdan narahat, nigaran gedən Hüseyn Cavan haqqında müxtəlif xatirələri toplayıb oxuculara çatdırıb".

Aşıq Hüseyn Cavan Azərbaycan incəsənətinin, o cümlədən milli aşıq poeziyasının inkişafında xidmətlərinə görə " Şərəf nişanı" ordeninə, Azərbaycanın Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüş, böyük Səməd Vurğunun təklif və tövsiyəsi ilə AYB-yə üzv qəbul olunmuş, fəxri fərman və mükafatlarla təltif edilmişdi.

Güney və Quzey Azərbaycanda səsi, sazı-sözü ilə dolaşan Hüseyn Cavan 1985-ci il noyabrın 14-də 69 yaşında dünyasını dəyişib. Goranboy rayonunda torpağa tapşırılıb. Məzarı üstündəki abidə üzü doğma yurda - Təbriz səmtinə qoyulub.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## Gənclər Kitabxanasından yeni rəqəmsal memarlıq təqdimatları

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında həyata keçirilən "Ağıllı irs: Azərbaycan memarlığının rəqəmsal təqdimatı" layihəsi çərçivəsində Azərbaycanın zəngin memarlıq irsinin təbliği məqsədilə süni intellekt texnologiyalarının imkanlarından istifadə etməklə ölkəmizin tarixi-mədəni irsini əks etdirən dörd yeni rəqəmsal təqdimat hazırlanaraq oxucuların istifadəsinə verilib.**




Kitabxanadan bildirilib ki, hazırlanan təqdimatlar "İşıqlı irs və möhtəşəm daş salnamə - Şuşa qalası", "Şuşanın işıqlanan mirası: Aşağı Gövhər ağa məscidinin dirçəlişi", "Yuxarı Gövhər ağa məscidi: Tarix, incəsənət və yenidən doğuş" və "Beynəlxalq Muğam Mərkəzi: Azərbaycan musiqisinin işıqlı məbədi" adlı materiallardır. Təqdimatlar müasir rəqəmsal həllər, dinamik vizual effektlər, süni intellekt vasitəsilə yaradılmış təsvirlər və multimedia elementləri ilə zənginləşdirilərək hazırlanıb.

Təqdimatlarda Azərbaycanın memarlıq tarixində xüsusi yer tutan bu möhtəşəm abidələrin yaranma tarixi, memarlıq xüsusiyyətləri, inşa edilmə səbəbləri, ölkəmizin tarixi və mədəni inkişafındakı rolu barədə geniş məlumat verilir. Eyni zamanda bu memarlıq nümunələrinin təkcə milli deyil, həm də dünya mədəni irsi baxımından əhəmiyyəti, Azərbaycan xalqının tarixi yaddaşının və milli kimliyinin qorunmasındakı rolu diqqətə çatdırılır.

Şuşa şəhərinin tarixi simvolu olan Şuşa qalası, Qarabağın dini-mədəni irsinin qiymətli nümunələri sayılan Aşağı və Yuxarı Gövhər ağa məscidləri, eləcə də müasir Azərbaycan memarlığının ən uğurlu nümunələrindən biri olan Beynəlxalq Muğam Mərkəzi haqqında təqdim olunan məlumatlar istifadəçilərə bu abidələrin keçmişi ilə bu günü arasında əlaqəni aydın şəkildə izləməyə imkan yaradır. Təqdimatlarda tarixi faktlarla yanaşı, memarlıq elementləri, bədii-estetik xüsusiyyətlər və bu irs nümunələrinin gələcək nəsillərə ötürülməsinin vacibliyi də ön plana çəkilir.

Layihənin əsas məqsədi süni intellekt və rəqəmsal texnologiyaların imkanlarından istifadə etməklə Azərbaycanın zəngin memarlıq irsini müasir formatda təqdim etmək, gənc nəslin tarixi-mədəni irsə marağını artırmasına dəstək göstərməkdir.

## Bakıda Azərbaycan Ssenaristlər Gildiyasının təqdimatı olub

**Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) kinozalında Azərbaycan Ssenaristlər Gildiyasının təqdimatı keçirilib. Bu barədə AZƏRTAC-a AKİ-dən məlumat verilib.**



Bildirilib ki, Azərbaycan Kinematoqrafçılar İttifaqının dəstəyi ilə yaradılan qurumun əsas məqsədi ölkədə fəaliyyət göstərən ssenaristləri bir araya gətirmək, peşəkar əməkdaşlığı gücləndirməkdir. Gildiyanın təsis toplantısında keçirilən səsvermənin nəticələrinə əsasən, ssenarist Nicat Dadaşov səs çoxluğu ilə qurumun sədri seçilib.

Təşkilatın sədri N.Dadaşovun sözlərinə görə, Azərbaycan Ssenaristlər Gildiyasının əsas missiyası təşkilatlanmaq və vahid bir sistem yaratmaqdır. O qeyd edir ki, gənc ssenaristlərin gildiyaya qoşulması onlara bir sıra imkanlar yaradacaq. Gənclər üçün planlaşdırılan ssenari laboratoriyaları və müsabiqələr də var. Eyni zamanda rezidensiya proqramlarına qoşulmaq, ssenari ədəbiyyatına daha rahat çıxış əldə etmək imkanı olacaq.

Tədbirdə iştirak edən AKİ təmsilçiləri yeni yaranan təşkilata uğurlar arzulayıblar.




# Amerikalı nazir İran millisinə görə sevindiyini deyir



ABŞ-nin daxili təhlükəsizlik naziri Markveyn Mallin İran millisinin DÇ-2026-da qrup mərhələsini keçə bilməməsi ilə bağlı diqqətçəkən açıqlama verib.

O, bu barədə "The Athletic"ə danışıb. Ölkə rəsmisi İranın mübarizəni dayandırmasına görə sevindiyini deyib: "Mən onların turnirdən kənarda qalmasına və bir daha geri qayıtmayacaqlarına sevindim. Vizalarını ləğv edib ABŞ ərazisini tərk edə biləcəklərini öyrəndiyimiz zaman çox xoşbəxt idim. Hətta sevincimdən bir-iki mahnı oxudum, rəqs də etdim". O əlavə edib ki, İran yığması turnir ərzində ABŞ rəsmilərinin ən çox məşğul olduğu komandaya çevrilmişdi. İran Futbol Federasiyası isə bu sözlərə görə ABŞ-ni qınayıb. Qurumun yaydığı açıqlamada bildirilib: "İranlılar bu cür düşmənçilik ifadələrindən təəccüblənmirlər - onlar uzun müddətdir ki, Amerika rəsmilərinin yersiz münasibətləri və yalan ifadələri ilə qarşılaşırlar. Bu cür şərhlər bir daha ABŞ rəsmilərinin beynəlxalq qanunlara əməl etmədiyini və böyük beynəlxalq turnirin ev sahibi ölkəsindən gözlənilən standartlara cavab vermədiyini nümayiş etdirir".

Qeyd edək ki, İran millisi DÇ-2026-nın G qrupunu 3 oyundan topladığı 3 xalla 3-cü pillədə başa vuraraq pley-offa yüksələ bilməyib.

# Noyerin son oyunu oldu



**Almaniya millisinin qapıçısı Manuel Noyer milli karyerasının son oyununu keçirib.**

Təcrübəli qolkiper Paraqvaya məğlubiyyətdən sonra emosiyalarını bölüşüb. "Hər şeyin bu cür başa çatması son dərəcə kədərlidir", - deyə Noyer bildirib.

Qeyd edək ki, 40 yaşlı qapıçı Almaniya millisində son oyununa çıxıb. O, 2009-cu ildə debüt etdiyi bundestimdə 128 matç keçirib, 2014-cü ildə dünya çempionu, 2021-ci ildə isə ilin ən yaxşı qapıçısı seçilib.

# Niderlandın penalti kabusu

Niderland millisi ardıcıl 3-cü dünya çempionatında mübarizəni penaltilər seriyasında dayandırıb.



Avropa təmsilçisi 1/16 finalda Mərakeşə penaltilərlə uduzaraq turnirlə vidalaşıb.

Niderlandın son üç dünya çempionatında penaltilərlə uduzduğu oyunlar belədir:

DÇ-2014: Niderland - Argentina - yarımfinal
DÇ-2022: Niderland - Argentina - 1/4 final
DÇ-2026: Niderland - Mərakeş - 1/16 final

Qeyd edək ki, Niderlandın dünya çempionatlarında penaltilər istisna olmaqla uduzduğu son oyun DÇ-2010-un finalında İspaniyaya olub. Həmin görüşdə Niderland əlavə vaxtda buraxdığı qolla 0:1 hesabı ilə məğlub olmuşdu.

# "Meydanda ölməyə hazır idik"



Paraqvay millisinin yarımmüdafiəçisi Maurisio Almaniya üzərində qazanılan qələbədən sonra danışıb. Futbolçu komandanın sonadək mübarizə apardığını bildirib.

"Bu gün qalib gəlməsəydik belə, meydanda ölməyə hazır idik. Biz belə komandayıq", - deyə Maurisio bildirib.

# Yığmanın heyətində üçüncü ən gənc futbolçu oldu



Braziliya millisinin gənc hücumçusu Rayan Vitor dünya çempionatları tarixində əlamətdar göstəriciyə imza atıb.

19 yaşlı futbolçu 1/16 finalda Yaponiya ilə oyuna start heyətində çıxmaqla Braziliya millisinin tarixində pley-off mərhələsində əsas heyətdə meydana çıxan üçüncü ən gənc futbolçu olub. "Mr.Sheep" statistika səhifəsinin məlumatına görə, Rayan Vitor bu uğura 19 yaş 330 günlüyündə imza atıb.

Siyahıya 1958-ci ildə Uelslə matçda 17 yaş 241 günlüyündə meydana çıxan Pele başçılıq edir. İkinci pillədə isə 1970-ci ildə Peru ilə oyunda 19 yaş 128 günlüyündə forma geyinən Marko Antonio qərarlaşıb. Rayan Vitor 1958-ci ildə Uelsə qarşı eyni yaşda meydana çıxan Mazola ilə üçüncü yeri bölüşür.

Qeyd edək ki, gənc hücumçu Yaponiya ilə qarşılaşmada zədəli Rafinyanı əvəz edərək turnirdə ikinci dəfə start heyətində yer alıb.

# Almanlar tarixlərində ilk dəfə penalti seriyasında məğlub oldular

Almaniya milli komandası DÇ-2026-nın 1/16 final mərhələsində Paraqvay millisinə məğlub olub.



Əsas və əlavə vaxtda 1:1 hesabı heç-heçəyə razılaşan tərəflər arasında qalib penalti seriyasında müəyyənləşib. Paraqvaylılar standart zərbələrdə 4:3 hesabı ilə qalib gəliblər.

"Opta"nın hesablamasına görə, Almaniya millisi tarixində ilk dəfə mundialda penalti seriyasında məğlub olub.

Bundestimin indiyəqədərki penalti seriyaları:

DÇ-1982 (yarımfinal): Fransa - 8:7
DÇ-1986 (1/4 final): Meksika - 4:1
DÇ-1990 (yarımfinal): İngiltərə - 5:4
DÇ-2006 (1/4 final): Argentina - 5:3
DÇ-2026 (1/16 final): Paraqvay - 4:5

Avropa çempionatlarını nəzərə alsaq, almanlar 1976-cı ildən bu günə qədər - 50 il ərzində rəsmi yarışlarda penaltilər seriyasında uduzmamışdılar. Bundestim AÇ-1976-nın finalında (2:2) Çexoslovakiyaya "lotoreya"da uduzub (3:5).



# Klopp iddialara cavab verdi

**Yurgen Klopp Almaniya millisi ilə bağlı iddialara münasibət bildirib. Təcrübəli mütəxəssis adının yığma komanda ilə hallanmasından xəbərdar olduğunu deyib.**

**"Hazırda adımın milli komanda ilə çəkildiyini bilirəm. Amma indi bunu danışmağın yeri deyil. Ən azından bunun üçün doğru zaman deyil. Hələ bu barədə düşünməmişəm", - deyə Klopp bildirib.**

**Qeyd edək ki, Almaniya 1/16 finalda Paraqvaya penaltilər seriyasında uduzaraq turnirlə vidalaşıb.**

# Mərakeşə "həyat verdi", mükafatlandırıldı



Mərakeş millisinin müdafiəçisi İssa Diop fərdi mükafata layiq görülüb. FIFA onu DÇ-2026-nın 1/16 finalında Niderlandla keçirilən görüşün ən yaxşı futbolçusu seçib.

Diop qarşılaşmada 1 qol vurub, müdafiədə 7 dəfə topu uzaqlaşdırıb və matçı 8,2 reytinq balı ilə başa vurub.

Qeyd edək ki, Mərakeş əsas və əlavə vaxtı 1:1 hesabı ilə başa çatan oyunda Niderlandı penaltilər seriyasında məğlub edərək 1/8 finala yüksəlib. Afrika təmsilçisi növbəti mərhələdə Kanada ilə qarşılaşacaq.

# Bütün komanda səcdəyə getdi



Mərakeş millisi növbəti mərhələyə yüksəldikdən sonra qələbəni meydanda səcdə ilə qeyd ediblər.

Komanda üzvləri bu hərəkətlə qələbəyə görə Allaha şükür etdiklərini bildiriblər.

# Ronald KUMAN: "Tənqidlərə əhəmiyyət vermirəm"



Futbol üzrə Niderland millisinin baş məşqçisi Ronald Kuman mübarizəni dayandırdıqdan sonra komandasının ünvanına səsləndirilən tənqidlərə münasibət bildirib.

Matç bitdikdən sonra Kuman yığmanın taktiki sxemi ilə bağlı kənardan gələn tənqidlərə əhəmiyyət verməyəcəyini vurğulayıb. "Bütün Niderland beş müdafiəçi ilə oynamalı olduğumuzu deyirdi. Biz müdafiədə beşliklə çıxış etdik, lakin yenə də tənqid olunduq. Bir daha təkrar edirəm: tənqidlərə əhəmiyyət vermirəm", - deyə Kuman bildirib.

# "Günahkar millinin baş məşqçisidir"



İsveç yığmasının sabiq hücumçusu Zlatan İbrahimoviç Niderland millisinin dünya çempionatının 1/16 final mərhələsində Mərakeşə uduzaraq turnirlə vidalaşmasını şərh edib.

Sabiq futbolçu bunu deyib: "Bu məğlubiyyətdə baş məşqçi Ronald Kuman günahkardır. Mən, sadəcə, Niderland millisini tanımadım. Onlar öz kimliklərini göstərmədilər. Bu, məni həqiqətən qəzəbləndirdi. Oyunçular meydanda rahat deyildilər, özlərini hücumda ifadə edə bilmirdilər.

Bu, dəhşətli bir oyun idi. Bunun günahkarı baş məşqçidir".



# Kazemiro çətin oyun barədə danışıb

**Braziliya millisinin yarımmüdafiəçisi Kazemiro 1/16 finalda Yaponiyaya qarşı keçirdikləri oyundan danışıb.**

**34 yaşlı yarımmüdafiəçi 2:1 hesablı qələbəni belə şərh edib: "Motivasiyamız bizim əsas gücümüz idi. Biz dayanmadan hücumda rəqibə təzyiq göstərirdik. Endrik ikinci hissədə oyuna qoşulduqdan sonra bizə çox kömək etdi. Martinelli haqqda da eyni sözləri deyə bilərəm. O da, Rafinyanı əvəzləyən Rayan da əla futbolçulardır. Bu heyət dünya çempionu olmağa qadirdir".**

**Qeyd edək ki, Braziliya millisi iyulun 5-də 1/8 finalda Kot-d'İvuar - Norveç cütünün qalibi ilə üz-üzə gələcək.**

# "Məsuliyyəti öz üzərimə götürürəm və hər kəsdən üzr istəyirəm "

Yaponiya millisinin baş məşqçisi Hacime Moriyasu komandasının DÇ-2026-nın 1/16 final mərhələsində Braziliyaya 1:2 hesabı ilə məğlubiyyətini şərh edib.



"Globo Esporte" məşqçinin oyunsonrası mətbuat konfransında dediklərini belə çatdırıb: "Qələbə qazana bilmədiyimiz üçün dərin təəssüf hissi keçirirəm. Bir məşqçi olaraq məsuliyyəti öz üzərimə götürürəm və hər kəsdən üzr istəyirəm. Oyunu izləyən yapon azarkeşlərə də təşəkkür etmək istərdim. Həmçinin bilirəm ki, həm Yaponiyada, həm də dünyanın hər yerində bir çox insan matçı gecəyə qədər televiziyada və ya onlayn izləyərək bizi dəstəkləyib. Turnir seriyamızı indi bitirmək təəssüf doğurur. Amma oyunçular bu matçda əllərindən gələni etdilər. Məşqçilər heyəti və bütün komanda da oyun boyu inanılmaz fədakarlıq nümayiş etdirdilər. Əlimizdən gələni etdik və indi çox məyus olsaq da, bu nəticəni götürüb daha da güclü şəkildə geri qayıtmaq üçün motivasiyaya çevirmək istəyirəm".

# Paraqvayın qələbəsinə ölkə Prezidentindən xüsusi qərar



Paraqvayda Almaniya üzərində qazanılan qələbədən sonra xüsusi qərar verilib. Ölkə Prezidenti Santyaqo Penya 1/16 finalda Almaniyanın mübarizədən kənarlaşdırılması münasibətilə 30 iyunu rəsmi tətil elan edib.



Paraqvay millisi əsas və əlavə vaxtı 1:1 hesabı ilə başa çatan oyunda Almaniyanı penaltilər seriyasında məğlub edərək 1/8 finala yüksəlib.

Qeyd edək ki, Cənubi Amerika təmsilçisi növbəti mərhələdə Fransa-İsveç cütünün qalibi ilə qarşılaşacaq.

# Naqelsmann getmək barədə düşünmür

Almaniya millisinin baş məşqçisi Yulian Naqelsmann Paraqvaya məğlubiyyətdən sonra gələcəyi barədə danışıb.



Mütəxəssis postundan könüllü ayrılmaq fikrində olmadığını bildirib: "Mən məsuliyyətdən qaçan insan deyiləm. 2028-ci ilə qədər müqaviləm var. Almaniya Futbol Federasiyası getməyimi istəyirsə, bunu mənə deməlidir".

# Ronaldo saç düzümünə görə üzr istədi

Braziliya millisinin sabiq hücumçusu Ronaldo Luis Nazario de Lima 2002-ci ildə Cənubi Koreya və Yaponiyada keçirilən mundial zamanı yalnız ön hissədə saç saxlayıb qalan hissəni qırxdırdığı saç düzümü barədə danışıb.

"Mundo Deportivo" nəşri xəbər verir ki, o, həmin saç düzümünə görə valideynlərdən üzr istəyib: "İlk növbədə fürsətdən istifadə edib 2002-ci ildəki saç düzümümə görə bütün valideynlərdən üzr istəmək istərdim. Həmin vaxt dizimdən zədə almışdım və yalnız fiziki və psixoloji hazırlığı birləşdirən yeni hazırlıq prosesi məni olmaq istədiyim yerə çatdıra bilərdi".



***Hazırladı:***
***Dönməz ABBASOV***

# Leyla Əliyevanın təşəbbüsü ilə Hövsanda yeni ictimai çimərlik sakinlərin istifadəsinə verilib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Suraxanı rayonunun Hövsan qəsəbəsində yaradılmış yeni nümunəvi ictimai çimərlik sakinlərin istifadəsinə verilib. Təxminən 5 hektar ərazini əhatə edən ödənişsiz istirahət məkanı IDEA İctimai Birliyi tərəfindən yaradılan sayca yeddinci nümunəvi ictimai çimərlikdir.



IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, sakinlərin rahat və təhlükəsiz istirahəti üçün çimərlik ərazilərinə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, kölgəliklər, soyunub-geyinmə və duş kabinələri, sanitar qovşaqlar, söhbətgahlar, şezlonqlar və zibil konteynerləri yerləşdirilib, oyun meydançaları qurulub və istifadə üçün tam hazır vəziyyətdədir.

Əlilliyi olan şəxslərə müyəssərliyin təmin edilməsi məqsədilə hərəkəti məhdud olan şəxslərin suya və çimərlikdəki məntəqələrə maneəsiz gedə bilməsi üçün xüsusi yollar və panduslar inşa edilib, çimərlik ərazisinə ən yaxın dayanacaq əlilliyi olan şəxslər üçün xüsusi nişanlama ilə ayrılıb. Çimərlik ərazisinə giriş və yaradılan bütün imkanlar tamamilə ödənişsiz istifadə üçün nəzərdə tutulub. IDEA nümunəvi ictimai çimərlikləri cəmiyyətdə ekoloji və sosial məsuliyyətin təşviq edilməsinə yönəlib. Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə daha əvvəl paytaxtın Şıx, Goradil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbələrində baxımsız sahilyanı ərazilər abadlaşdırılaraq nümunəvi ictimai çimərliklər yaradılıb. Hövsan qəsəbəsində istifadəyə verilən yeni çimərliklə onların sayı yeddiyə çatdırılıb.

Hamıya dəniz mövsümündə xoş istirahət arzulayan IDEA İctimai Birliyi, hər kəsi təbiətin bəxş etdiyi gözəlliklərdən və yaradılan şəraitdən hər zaman zövq ala bilmək üçün sahillərin təmizliyinə diqqət etməyə, ətraf mühiti çirkləndirməməyə, suda təhlükəsizlik qaydalarına riayət etməyə və istirahət zamanı ehtiyatlı davranmağa çağırıb.

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi davam etdirilib

İyunun 30-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən şəxslər Madat Babayan və David Babayanın hər birinin hüquqlarını qoruyan iki vəkilindən birinin səhhətlərində yaranmış problemlərlə əlaqədar məhkəmə iclasında iştirak edə bilmədikləri qeyd olunub. Bu səbəbdən qanunvericiliyin tələblərinə uyğun olaraq onlara dövlət hesabına yeni müdafiəçilərin təyin edildiyi proses iştirakçılarının diqqətinə çatdırılıb.

Ardınca yeni təyin olunmuş müdafiəçilər məhkəmə prosesi iştirakçılarına təqdim olunub. Təqsirləndirilən şəxslər müdafiəçilərinə iştirakına etiraz etmədiklərini bildiriblər.

Bundan sonra məhkəmə çıxışları davam etdirilib. Daha sonra təqsirləndirilən Davit İşxanyan məhkəməyə müraciət edərək məhkəmə iclaslarının protokolları ilə tanış olduqdan sonra hazırladığı qeydləri təqdim etmək istədiyini bildirib. Məhkəmə kollegiyasının sədri iclas protokolları ilə tanış olmağın onun prosessual hüququ olduğunu qeyd edib.

Davit İşxanyana izah olunub ki, protokollara dair qeydləri Azərbaycan dilində təqdim edilmədiyi üçün onların tərcümə olunduqdan sonra məhkəməyə təqdim edilməsi zəruridir. Bildirilib ki, qeydlər şifahi deyil, yazılı formada və Azərbaycan dilində təqdim olunmalıdır.

Qeydlər tərcümə olunduqdan sonra məhkəmə prosesində çəkişmə zamanı bərabərliyin təmini üçün ittiham tərəfinə də təqdim edilməlidir.

Davit İşxanyan qeydlərinin tərcüməçiyə təqdim olunmasına şərait yaradılmasını xahiş edib. Məhkəməyə sədrlik edən bunun üçün ona müvafiq imkan yaradılacağını bildirib.

Daha sonra çıxış edən David Babayan yeni təyin olunmuş müdafiəçisi ilə tanış olmaq üçün şərait yaradılmasını xahiş edib.

Məhkəmə iclası müdafiə tərəfinin apellyasiya şikayətlərinin əsaslandırılması üzrə çıxışlarla davam etdirilib.

Təqsirləndirilən Davit Allahverdiyanın müdafiəçisi çıxış edərək hüquqlarını qoruduğu şəxs barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Davit Allahverdiyan müdafiəçisi tərəfindən verilən apellyasiya şikayətini müdafiə etdiyini və həmin şikayətdə göstərilən dəlillərlə razı olduğunu bildirib.

Sonra Melikset Paşayanın müdafiəçisi çıxış edib. O, təqsirləndirilən şəxs barəsində 2026-cı il 5 fevral tarixli ittiham hökmünün ləğv edilərək bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Çıxış edən M.Paşayan müdafiəçisinin səsləndirdiyi mövqeni dəstəklədiyini bildirib. O, özünü irəli sürülmüş ittiham üzrə təqsirli bilmədiyini qeyd edib.

Sonra təqsirləndirilən Davit İşxanyanın müdafiəçisi çıxış edib. Vəkil çıxışında D.İşxanyan barəsində 2026-cı il 5 fevral tarixli hökmün ləğv edilməsini və bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Ardınca təqsirləndirilən şəxslərin müdafiəçiləri ilə konfidensial görüşlərinin təmin edilməsi məqsədilə məhkəmə iclasında fasilə elan olunub. Fasilədən sonra məhkəmə iclasında çıxışlar davam etdirilib.

Çıxış edən təqsirləndirilən Davit İşxanyan əvvəlcə vəsatət verərək özü tərəfindən hazırlanmış apellyasiya şikayətinin və ərizəsinin dublikat nüsxələrinin cinayət işinin materiallarına əlavə olunmasını məhkəmədən xahiş edib. Ardınca bildirib ki, ona qarşı irəli sürülmüş ittihamla razı deyil.

Məhkəmənin növbəti iclası iyulun 3-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Türk dünyası ailəsi əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır
Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin iştirakçılarına
Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib
Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı
"İntensiv bağçılıq xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır"
"AZƏRBAYCAN"ın Qarabağ səfəri
Süni intellekt və rəqəmsal texnologiyalar "orta güc" konsepsiyasının mühüm faktoru kimi

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Qəbələ Beynəlxalq Musiqi Festivalı başlayır

İyulun 29-da Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə XV Qəbələ Beynəlxalq Musiqi Festivalı başlayır.

AZƏRTAC xəbər verir ki, avqustun 3-dək davam edəcək festivalda beynəlxalq miqyasda tanınmış ifaçılar, musiqi kollektivləri Qəbələdə bir araya gələcəklər.

Azərbaycanla yanaşı, musiqi bayramında Avstriya, Qazaxıstan, Moldova, Özbəkistan və Vyetnamdan olan musiqiçilər və rəqqaslar iştirak edəcəklər.

XV Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılışı iyulun 29-da Azərbaycanın Xalq artisti Ramiz-Məlik Aslanovun dirijorluğu, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası Tələbə Simfonik Orkestrinin konserti ilə baş tutacaq. Musiqi gecəsində Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səslənəcək.

Festivalın növbəti günü tamaşaçılar Vyetnamdan gələn "Bronze drum" ansamblının, Özbəkistandan "Bek" doyraçılar ansamblının ifalarını dinləyəcək, Özbəkistanın "Daşkənd Zeboları" Xalq Rəqs Ansamblının solistlərinin çıxışlarını izləyəcəklər.

İyulun 31-də Əməkdar artist Emil Əfrasiyabın bədii rəhbərliyi və Mustafa Mehmandarovun dirijorluğu ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Kamera Orkestrinin konserti olacaq. Elə həmin gün festivalda sevilən muğam ifaçıları, həmçinin muğam müsabiqəsinin laureatlarının iştirakı ilə muğam axşamı təşkil ediləcək.

Festivalın 4-cü günü - avqustun 1-də avstriyalı pianoçu Aleksandr Maria Vaqner "Kamera musiqi axşamı"nda çıxış edəcək. Həmin gecənin daha bir özəlliyi - "Dünya kinofilmlərindən sevilən musiqi parçaları" adlı konsert proqramıdır. Mustafa Mehmandarovun bədii rəhbərliyi və dirijorluğu ilə "Scorrendo" orkestri Azərbaycan və xarici filmlər - "Axırıncı aşırım", "Yeddi oğul istərəm", "Xaç atası", "Matrisa", "Görüş", "Cangüdən", "Şindlerin siyahısı", "Ceyms Bond" və digərlərindən dillər əzbəri olan musiqiləri ifa edəcək.

Avqustun 2-də isə səhnə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin ixtiyarına veriləcək. Gənc musiqiçilərin təqdim edəcəyi konsertdə Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səslənəcək.

Həmin gün tamaşaçılar qarşısında Moldovanın "Fluieraş" Xalq Mahnı və Rəqs Ansamblı və "Millenium" etnoestrada qrupu da çıxış edəcək. Daha sonra Qazaxıstandan olan sənətkarların təqdimatında Luvr kolleksiyasına daxil olan qədim Şirvan xalçasından ilhamlanaraq ərsəyə gələn "İki xalça" baleti nümayiş etdiriləcək. Layihənin ideya müəllifi, libretto müəllifi Valeri Kopeykindir.

Beynəlxalq Musiqi Festivalı avqustun 3-də Əməkdar artist Fuad İbrahimovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti ilə yekunlaşacaq. Gecəni Xalq artistləri Azər Zeynalov (tenor), Dinarə Əliyeva (soprano), Elçin Əzizov (bariton), Samir Cəfərov (tenor), Əməkdar artistlər Elnarə Məmmədova (lirik-koloratur soprano), Sahib Paşazadə (tar) və beynəlxalq müsabiqələr laureatlarının ifaları bəzəyəcək.

2009-cu ildən keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı illərdir dünya musiqisinin müxtəlif simalarını bir məkanda toplayaraq beynəlxalq mədəni dialoqun önəmli ünvanına çevrilib. Bu musiqi platforması təkcə klassik əsərlərin təntənəsi deyil, eyni zamanda xalqları birləşdirən, sərhədləri aşan, musiqi ilə dolu unudulmaz anlarla yadda qalan mədəniyyətlərarası körpüdür.

Ənənəyə uyğun olaraq yay fəslində təşkil edilən bu beynəlxalq mədəniyyət tədbiri bu il də parlaq ifalar vəd edir.

Festival günlərindəki konsert proqramlarına giriş sərbəstdir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ramil Usubov Şahbazovlar ailəsinə əzizləri

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Oqtay və Pərviz Şahbazovlara əzizləri

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəki Rayon Məhkəməsinin sədri Ceyhun Əhmədov, məhkəmənin hakimləri və kollektivi Şəki Rayon Məhkəməsinin hakimi Pərvanə Məmmədovaya əzizi

**GÜLÜM MUSTAFAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əməkdar elm xadimi Vaqif Şadlinski ailəsi ilə birlikdə Oqtay Şahbazova əzizi

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Əli Abbasov Odlar Yurdu Universitetinin rektoru, professor Əhməd Vəliyevə bacısı

**FATMA VƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova və universitetin kollektivi energetika naziri Pərviz Şahbazova və dövlət xadimi Oqtay Şahbazova əzizləri

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA ŞAHBAZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti İdarə Heyətinin sədri Zakir Quliyev energetika naziri Pərviz Şahbazova anası

**ZEMFİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 2980
Sifariş 834

Qiyməti 60 qəpik